RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 112 (9567) 30 may 2024-cü il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# O gün gəldi...



## “Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik”

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonuna və Xocalı şəhərinə səfər edib. Dövlət başçısı Ağdam rayonunun Tağıbəyli, Güllücə, Nəmirli və Şotlanlı kəndlərinin təməlini qoyub. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva elə həmin gün Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də həmçinin Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər. Dövlətimizin başçısı və birinci xanım evlərin açarlarını sakinlərə təqdim ediblər.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva daha sonra sakinlərlə birlikdə Xocalı şəhərini gəzərək görülən işlərlə tanış olublar. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva eyni zamanda yerli sakin Səriyyə Cəfərovanın evində yaradılan şəraitlə tanış olublar. Dövlətimizin başçısı və birinci xanım həmçinin sakin Müşfiq Sadıqovun evində yaradılan şəraitlə də tanış olublar. Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Sənətkarlar məhəlləsinə gələrək "AzeRobot Education" Robototexnika Tədris Mərkəzinin Xocalıdakı filialında yaradılan şəraitlə maraqlanıblar. Sonra "Nakhishli" atelyesi ilə tanışlıq olub. Dövlət başçısı və birinci xanım eyni zamanda "Gilabi Ceramics" emalatxanası ilə də tanış olublar. "Sariban" Peşə İnkişaf Mərkəzinin filialı ilə tanışlıqdan sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərinin baş planı ilə də tanış olublar. Sonda xatirə şəkli çəkdirilib.

→ 4-7

## Müstəqillik Gününün Xocalı qüruru

Mayın 28-də, Müstəqillik Günündə Xocalıya qayıdış reallaşdı.

Bu ikiqat sevinc hissləri təkcə xocalılıları deyil, hər bir azərbaycanlının ürəyini dağa döndərdi, hər kəsi qürurlandırdı.

Sözü imzası qədər keçərli olan, nəyi nə zaman edəcəyini çox yaxşı bilən Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın nələrə qadir dövlət olduğunu dünyaya nümayiş etdirdi.

Qarabağ və Şərqi Zəngəzuru yenidən quran Prezidentin bayram günündə növbəti töhfəsi Xocalı sakinləri ilə görüş oldu.

İki il əvvəl - 2022-ci ilin Müstəqillik Günündə Ağalıda, 2023-cü il mayın 28-də Laçında yerli sakinlərlə görüşən İlham Əliyevin bu il həmin gündə Xocalıda olmasının rəmzi mənası vardı.

Artıq Azərbaycan ictimaiyyəti illərdir bir reallığa şahidlik edir ki, bu ölkəni tarixinin ən qüdrətli dövlətinə çevirən qurucu, xilaskar lider əlamətdar günləri yalnız xalqın arasında keçirir, mühüm xəbərlərlə müjdələyir və görüləcək işlər barədə geniş məlumat verir. Prezidentin söylədikləri isə qısa zamanda reallığa çevrilir.

→ 14

## Keçmiş hərbi xuntaya növbəti zərbə

Bəzi erməni mənbələrində və sosial şəbəkələrdə yayılan məlumatlara görə, ikili vətəndaşlığı olan Baqrat Qalstanyan hazırda Bakıda həbsdə saxlanılan milyarder Ruben Vardanyana yaxın adam hesab olunur. "4rd.am" nəşri yazıb ki, hətta etirazçı keşişi oliqarx Ruben Vardanyanın "səlahiyyətli nümayəndəsi" adlandıranlar da var. Qeyd edilir ki, vaxtilə Rusiyada təlimatlandırılaraq Qarabağa göndərilən, Xankəndidə separatçılara "dövlət naziri" təyin olunan Ruben Vardanyan daha sonra İrəvana yüksək posta transfer olunacağı anı gözləyirdi. Lakin Vardanyanın planlarını pozan Nikol Paşinyan buna imkan vermədi. İndi Baqrat Hayastanda hakimiyyət dəyişikliyinə nail olmaq istəyir. Bu məsələdə erməni diasporunun və bir sıra erməni iş adamlarının keşiş Qalstanyana dəstək verdiyi bildirilir.

Bu arada revanşist politoloq Stepan Danielyan deyib ki, beynəlxalq nizama görə, legitim hökumət təhdid olunarsa, başqa ölkənin silahlı qüvvələrini daxili düşmənlərdən müdafiəyə çağıra bilər. Qeyd edilib ki, indiki baş nazir istefa verməməklə Hayastanı işğal təhlükəsi altına qoyur: "Bu açıqlama həm də hazırkı rejimin əsl sponsorlarının kim olduğunu göstərir. Biz hüquqi sahəyə girməliyik və indiki baş nazir artıq məqbul olmadığını, vaxtının bitdiyini başa düşərək qanuni şəkildə istefa verməlidir".

→ 16

## Azərbaycan dünyanın qabaqcıl maliyyə qurumları ilə əməkdaşlığını genişləndirir



### Prezident İlham Əliyev "CVC Capital Partners" şirkətinin həmtəsisçisi və sədrini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da alternativ investisiyaların idarə edilməsi üzrə Avropanın ən böyük və nüfuzlu investisiya şirkətlərindən biri olan "CVC Capital Partners" şirkətinin həmtəsisçisi və sədri Rolli Van Rappardı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizdə davamlı inkişaf proseslərinin getdiyini vurğulayan Rolli Van Rappard Azərbaycanın bir çox sahədə əldə etdiyi nailiyyətlərin çox təqdirəlayiq olduğunu bildirdi. Qonaq "CVC Capital Partners" şirkətinin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlıq etməsindən böyük məmnunluq hissi duyduğunu deyərək, gələcəkdə əməkdaşlığın daha da möhkəmlənəcəyinə inamını ifadə etdi.

Prezident İlham Əliyev dünyanın qabaqcıl maliyyə qurumları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun "CVC Capital Partners" şirkəti ilə uğurlu tərəfdaşlığını müsbət qiymətləndirərək mövcud münasibətlərin daha da gücləndirilməsi üçün əlverişli mühitin olduğunu bildirdi. Dövlət Neft Fondunun fəaliyyətinin daim genişləndiyini deyən dövlətimizin başçısı qeyri-sabit maliyyə bazarları mühitində də fondun aktivlərinin artdığını vurğuladı.

Qeyd edək ki, 1981-ci ildə təsis olunmuş "CVC Capital Partners" şirkətinin özəl səhmlər, özəl kredit, infrastruktur və digər fondlarında idarə etdiyi aktivlərin toplam dəyəri 187 milyard avrodur. Dünyanın müxtəlif şəhərlərində 40 ofisi və 850-dən çox əməkdaşı olan şirkətin mərkəzi ofisi Lüksemburqda yerləşir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 28 May - Müstəqillik Günü ilə bağlı paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir: "Müstəqillik Günü münasibətilə bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, hamıya möhkəm cansağlığı və xoşbəxtlik, Vətənimizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram!".




## *Fransız Polineziyası:* kiçik ada ölkəsinin Parisin müstəmləkəçilik siyasətinə qarşı müstəqillik mübarizəsi

BMT Baş Assambleyası 2013-cü ildən etibarən hər il Fransız Polineziyası ilə bağlı qətnamələr qəbul edir. 2014-cü ildən bəri isə Fransız Polineziyası barəsində BMT-nin Baş Assambleyası, Dördüncü Komitə, C-24, həmçinin İqtisadi və Sosial Şuranın (ECOSOC) hesabatları əsasında illik məruzə sənədi nəşr olunur.

Fransız Polineziyasının müstəmləkəçilikdən azad olunması məsələsi ilə əlaqədar BMT Baş Assambleyasının "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannaməsinin həyata keçirilməsinə dair son on ildə 11 qətnamə qəbul olunub.

BMT Baş Assambleyası təşkilatın Nizamnaməsinin XI fəslinə uyğun olaraq, 1960-cı il 14 dekabr və 2013-cü il 17 may tarixli "Fransız Polineziyasının öz müqəddəratını təyinetmə" adlı qətnamələrində Fransız Polineziyası xalqının öz müqəddəratını təyin etməsini və müstəqillik qazanmasını onun əsas hüququ kimi təsdiqləyib. Sözügedən qətnamələr rəhbər tutularaq, Fransız Polineziyasının "Dekolonizasiya edilməli olan ərazilər" siyahısına uyğunluğu qəbul edilib. Lakin Nizamnamənin 73-cü maddəsinə və "Müstəmləkə ölkələri və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannamənin qəbulundan 63 il keçməsinə baxmayaraq, ərazinin hələ də Fransa hökuməti tərəfindən idarə olunmasına dair narahatlıq ifadə edilir. Beləliklə, BMT-nin Nizamnaməsinə və Baş Assambleyanın "Müstəmləkə ölkələri və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannaməni əks etdirən 1514 (XV) saylı qətnaməsinə uyğun olaraq, Fransız Polineziyası xalqının öz müqəddəratını təyin etmək hüququ var. Bu sənədlər Fransız Polineziyasının azadlıq mübarizəsinin beynəlxalq hüquqi əsaslarını təşkil edir.

→ 10

◆ Prezident İlham Əliyevin Ağdam rayonuna səfəri

# Prezident Ağdamda daha dörd kəndin təməlini qoydu

## Tağıbəyli kəndinə 3840 nəfərin köçürülməsi nəzərdə tutulur





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Tağıbəyli kəndinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi. Bildirildi ki, Tağıbəyli kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 725 ailə - 3018 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, qoyun ferması və üzüm bağları fəaliyyət göstərib. O cümlədən Qarabağın məşhur seyidlərindən olan Fuğara ağanın ocağı da burada yerləşir.

Qeyd olunub ki, kəndin layihələndirilən ərazisi 255,31 hektardır. Kəndə 3840 nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 885 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Tağıbəyli və Suma kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən sahə 78,05 hektardır və buraya 108 ailənin köçürülməsi planlaşdırılır. Bu mərhələdə tikiləcək 108 evin 22-si ikiotaqlı, 54-ü üç-otaqlı, 27-si dördotaqlı, 5-i isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 264 şagird yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, sənətkarlıq emalatxanası, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu və bazar kompleksi inşa ediləcək.

Dövlətimizin başçısı Tağıbəyli kəndinin təməlini qoydu.

## Güllücə kəndində 1042 fərdi ev inşa ediləcək





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Güllücə kəndinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Qeyd olundu ki, Güllücə kəndində yaşayış təxminən XIX əsrin ortalarına təsadüf edir. Kənddə 988 ailə - 4003 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, aptek, maşın-traktor parkı, kənd təsərrüfatı məhsulları anbarı, mal ferması və üzüm bağları var idi.

Bildirildi ki, ərazisi 388,44 hektar olacaq kənddə 3992 nəfərin məskunlaşdırılması nəzərdə tutulur. Güllücə və İlxıçılar kəndlərinin ərazisindən ibarət olacaq bu kənddə 1042 fərdi ev inşa ediləcək. Birinci mərhələdə layihələndirilən ərazi 225 hektar olacaq. Buraya 113 ailənin köçürülməsi planlaşdırılır. Kənddə birinci mərhələdə inşa ediləcək 113 evin 22-si ikiotaqlı, 57-si üçotaqlı, 28-i dördotaqlı, 6-sı isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 480 şagird yerlik məktəb binası, 120 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, çoxfunksiyalı bina (poçt, bank filialı, ofis), mal-qara ferması, yanğınsöndürmə deposu (2 maşın yerlik), kənd meydanı, Bayraq meydanı, çörək sexi inşa olunacaq. Burada, həmçinin kənd təsərrüfatı texnikasının və maşınlarının təmir müəssisəsi, süd qəbulu və süd məhsulları istehsalı, quru meyvə istehsalı, ət kəsimi və qablaşdırılması sahələri, qarışıq yem istehsalı, barama tədarükü və qurdayırma məntəqələri, mineral gübrələr və kimyəvi maddələr anbarı, muzey, mehmanxana, xalça istehsalı sahəsi, işçi geyimlərinin istehsalı sahəsi, taxta taraların istehsalı sahəsi, dulusçuluq və suvenir istehsalı emalatxanası, bal qablaşdırılması sahəsi, üzüm emalı zavodu, şirniyyat sexi, taxıl anbarı, suvarmada istifadə olunan elektrik mühərriklərinin və avadanlıqlarının təmiri sahəsi, yanacaqdoldurma məntəqəsi də yaradılacaq.

Prezident İlham Əliyev Güllücə kəndinin təməlini qoydu.

◆ Prezident İlham Əliyevin Ağdam rayonuna səfəri

# Prezident Ağdamda daha dörd kəndin təməlini qoydu

## Nəmirli kəndinə 179 ailə köçürüləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Nəmirli kəndinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Nəmirli kəndində 624 ailə - 2515 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, üzüm emalı zavodu, ərzaq mağazası, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, heyvandarlıq ferması və üzüm bağları fəaliyyət göstərib.

Məlumat verildi ki, kəndin layihələndirilən ərazisi 211 hektardır. Buraya 3036 nəfərin köçürülməsi planlaşdırılır. Bunun üçün 759 fərdi ev inşa ediləcək. Layihələndirilən ərazi Nəmirli və Şuraabad kəndlərinin ərazisindən ibarətdir. Birinci mərhələdə layihələndirilən ərazi 50,22 hektardır və buraya 179 ailənin köçürülməsi nəzərdə tutulur. Bu mərhələdə tikiləcək 179 evin 36-sı ikiotaqlı, 90-ı üçotaqlı, 44-ü dördotaqlı və 9-u isə beşotaqlı olacaq. Bundan başqa, kənddə 528 şagird yerlik məktəb binası, 80 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi, kitabxana, qonaq evi, ticarət mərkəzi, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu, bazar kompleksi yaradılacaq.

Dövlətimizin başçısı Nəmirli kəndinin təməlini qoydu.









## Şotlanlı kəndində 606 ailə qeydiyyatda olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam rayonunun Şotlanlı kəndinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına layihə barədə məlumat verildi.

Qeyd olundu ki, Şotlanlı kəndində yaşayış, təxminən, XIX əsrin ortalarına təsadüf edir. Sakinlər buraya Qubadlı rayonunun Zilanlı kəndindən köç ediblər. Kənddə 606 ailə - 2542 nəfər rəsmi qeydiyyatda olub. Əhalinin əsas məşğuliyyəti əkinçilik, üzümçülük, baramaçılıq və heyvandarlıq olub. İşğal dövrünə qədər kənddə məktəb, uşaq bağçası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana, maşın-traktor parkı, kənd təsərrüfatı məhsullarının anbarı, ərzaq mağazası və üzüm bağları fəaliyyət göstərib.

Bildirildi ki, Şotlanlı və Umudlu kəndlərinin ərazilərini əhatə edəcək bu kəndin layihələndirilən ərazisi 197,4 hektardır. Buraya 3 min nəfərin köçürülməsi nəzərdə tutulur. Bunun üçün 750 ev tikiləcək. Birinci mərhələdə layihələndirilən ərazi 51 hektardan çoxdur və buraya 205 ailənin köçürülməsi planlaşdırılır. Tikiləcək 205 evin 41-i ikiotaqlı, 103-ü üçotaqlı, 51-i dördotaqlı və 10-u isə beşotaqlı olacaq. Burada 540 şagird yerlik məktəb binası, 90 yerlik uşaq bağçası, tibb məntəqəsi, klub-icma mərkəzi və kitabxana, qonaq evi, ticarət mərkəzi, bazar, idman-sağlamlıq mərkəzi, inzibati bina, məişət xidməti obyekti, kənd meydanı, Bayraq meydanı, park, yanğınsöndürmə deposu (2 maşın yerlik), qazanxana, su anbarı, idman meydançası, 35 kV-luq paylayıcı qurğu yaradılacaq.

Prezident İlham Əliyev Şotlanlı kəndinin təməlini qoydu.

Prezident İlham Əliyevin Xocalı şəhərinə səfəri

# O gün gəldi...

## "Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik"

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərində 15 çoxmənzilli binada təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov və Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov görülən işlər barədə məlumat verdilər. Bildirildi ki, Xocalı şəhərindəki yarımçıq tikili olan yaşayış kompleksi əsaslı təmir edilib. Kompleks 3,34 hektar ərazini əhatə edir. Burada hər biri ikigirişli olmaqla üçmərtəbəli 15 binada ikiotaqlı, üçotaqlı və dördotaqlı 80 mənzil var. Kompleksdə uşaq oyun meydançaları, idman qurğuları, idman meydançası, söhbətgahlar yaradılıb.

Sonra dövlətimizin başçısı və birinci xanım kompleksdə yaradılan şəraitlə tanış oldular.







## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım əvvəlcə sakinlərlə söhbət etdilər.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Sakinlər:** Cənab Prezident, xoş gəlmisiniz. Qədəmləriniz mübarək. Allah Sizi qorusun.

**Mehriban xanım Əliyeva:** Sizi təbrik edirəm.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Salam. Siz də xoş gəlmisiniz.

**Sakin:** Allah Sizi qorusun. Allah Sizə cansağlığı versin. Sizinlə fəxr edirik. Nə yaxşı ki varsınız.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Xocalı necə gözəlləşib.

**Sakin:** Gözəldir, Sizin sayənizdə, hamımız minnətdarıq. Bütün xocalılılar Sizə minnətdardır, cənab Prezident. Nə yaxşı ki bizim belə Prezidentimiz var. Vallah, Sizinlə fəxr edirik. Sevincimizin hədd-hüdudu yoxdur.

**Prezident İlham Əliyev:** Sağ olun. Bu gün bayram günüdür, Müstəqillik Günüdür. İlk növbədə sizi Müstəqillik Günü münasibətilə təbrik edirəm.

**Sakin:** Çox sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Bu gözəl gündə xocalılılar artıq qayıdırlar.

**Sakin:** Bəli, görüşdük.

**Prezident İlham Əliyev:** Həm görüşürük, həm də ki, birinci 20 ailə Xocalıya qayıdır. Bu münasibətlə də sizi ürəkdən təbrik etmək istəyirəm.

**Sakinlər:** Çox sağ olun, Sizə minnətdarıq.

**Prezident İlham Əliyev:** Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur.

**Sakinlər:** Bəli, gözəlləşib. Çox sağ olun.



**Prezident İlham Əliyev:** Əvvəlkindən də daha gözəl şəhərdir və daha da gözəl olacaq. Bu gün sadəcə olaraq, birinci mərhələdir. Bu gün, əslində, Böyük qayıdış proqramının Xocalı səhifəsi yazılır. Yaxın gələcəkdə digər xocalılılar da buraya qayıdacaqlar, əminəm ki, böyük həvəslə.

**Sakin:** Siz onsuz da qədəmlərinizi haraya qoyursunuzsa, orada gül-çiçək canlanır, bütün torpaqlar çiçəklənir.

**Prezident İlham Əliyev:** Sağ olun. Xocalılılar müxtəlif yerlərdə məskunlaşmışdılar və müstəqillik illərini Xocalıdan ayrı keçirməli oldular. Müstəqilliyin bərpası elan olunandan dörd ay sonra Ermənistan Xocalı soyqırımını törətdi, günahsız insanları qətlə yetirdi, insanlığa qarşı cinayət törətdi. Xocalılılar faktiki olaraq müstəqilliyin bütün illərini başqa-başqa yerlərdə keçirməli oldular, o cümlədən Ağcakənd kəndində. Bildiyiniz kimi, birinci köçkün qəsəbəsi məhz Ağcakənd qəsəbəsində xocalılılar üçün Ulu Öndərin iştirakı ilə salınmışdır.

**Sakin:** Qisasımızı aldınız, qurban Sizə.

**Prezident İlham Əliyev:** Mən də, Mehriban xanım da o vaxt orada idik və o vaxtdan bu günədək, görün, nə qədər gözəl tarix yazdıq, Qarabağı tam azad etdik. Mən bilirəm ki, İkinci Qarabağ müharibəsi başa çatanda xocalılılar inanırdılar, bilirdilər ki, bu gün də gələcək.

**Sakinlər:** Bəli, Sizə inanırdıq.

**Prezident İlham Əliyev:** Mən də bilirdim, şübhə etmirdim, sadəcə olaraq, onun vaxtı var idi. Onu da təxmin edirəm, xocalılılar bəlkə də gözləmirdilər ki, bu, bu qədər tez baş verəcək.

**Sakinlər:** Bəli.

**Prezident İlham Əliyev:** Çünki müxtəlif fikirlər var idi, o cümlədən Ermənistanda müxtəlif gözləntilər var idi. Burada - Xocalıda, Xankəndidə, o vaxt hələ ki, azad edilməmiş digər şəhər və kəndlərimizdə separatçılar at oynadırdılar. Onlar hesab edirdilər ki, burada separatçılıqla əbədi məşğul olacaqlar. Halbuki bunun heç bir hüquqi, tarixi əsası yox idi. Xocalı qədim Azərbaycan torpağıdır. Mənfur düşmən soyqırımı törədəndən sonra burada qanunsuz məskunlaşma da aparmışdır. Bu da hərbi cinayət sayılır. Xocalının adını da dəyişdirməyə, bir hərbi cinayətkarın adına rəsmiləşdirməyə çalışırdılar. Ancaq hər şeyin vaxtı var və biz qayıtmışıq, həm Vətən müharibəsi, həm antiterror əməliyyatı xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

**Sakinlər:** Amin!

**Prezident İlham Əliyev:** Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur.

*Ardı 5-ci səh.*

◆ Prezident İlham Əliyevin Xocalı şəhərinə səfəri

# O gün gəldi...

## "Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik"

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər







*Əvvəli 4-cü səh.*

Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik.

Bu gün hərbçilər üçün inşa edilmiş evlərlə də tanış oldum. Bütün Qarabağ və Şərqi Zəngəzur çox möhkəm bir istehkam zonası olacaq və burada artıq bu istiqamətdə işlər görülür ki, Azərbaycan xalqı əbədi əmin olsun, bir daha bu faciələr bizim xalqımızın başına gəlməyəcək.

Bu gün bax burada - Xocalıda, - cəmi 8 ay ərzində bərpa edilmiş Xocalıda, - görüşməyimiz əlbəttə ki, xüsusi məna daşıyır. Məhz Müstəqillik Günündə mən sizinlə yenidən görüşmək istəmişəm. Üç ay bundan əvvəl - fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoyduq. Bu gün isə artıq xocalılılar qayıdır və şəhər də göz oxşayır.



**Sakinlər:** Çox gözəldir, cənab Prezident, Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Həm abad, gözəl evlər, istirahət zonaları. O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm, - Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, - deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax bu gün də gəldi. Sizi təbrik edirəm. Sizə cansağlığı arzulayıram.

**Sakinlər:** Çox sağ olun, minnətdarıq. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** İndi də açarları sizə təqdim edək.

❖ ❖ ❖

Dövlətimizin başçısı və birinci xanım evlərin açarlarını sakinlərə təqdim etdilər.

Sonra xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva sakinlərlə birlikdə Xocalı şəhərini gəzdilər, görülən işlərlə tanış oldular.

**Prezident İlham Əliyev:** Xocalının indi quruluşu dəyişir, əvvəllər burada nə olub, yadınızdadır?

**Sakinlər:** Çox dəyişib. Bəli, əlbəttə, yadımızdadır. Bura dairə idi, Mədəniyyət evi. Yanğın meydançası var.

**Prezident İlham Əliyev:** O vaxt qəsəbənin mərkəzi bura idi?

**Sakinlər:** Xeyr, bura baş hissə idi, mərkəz bir az qabaqdadır. Təqdimat olacaq yer.

**Prezident İlham Əliyev:** Xocalının gələcək inkişafı ilə bağlı baş planı da hazırlanıb. Gedək ona bərabər baxaq.

**Sakinlər:** Allah Sizin canınızı sağ eləsin. Allah köməyiniz olsun. Bu sevinci bizə yaşatdınız. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Allah Sizi var eləsin. Sizin sayənizdə gəlmişik bu gözəl yerə, gözəl vətənə. Bu gün gözəl bayrağın altında sevinci yaşayırıq. Bundan gözəl nə ola bilər?

**Prezident İlham Əliyev:** Bəli, Xocalı indi böyük şəhər olacaq.

**Sakin:** Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Bu, hələ birinci mərhələdir.

**Sakin:** Allah Mehriban xanımı, övladlarınızı xoşbəxt eləsin. Vallah, bundan gözəl xoşbəxtlik nə ola bilər? Yaşayırıq, gözəldir, hər şey yaxşıdır.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz. Vətəninizdən 30 ildən çox məhrum olmusunuz.

**Sakin:** Bəli, cənab Prezident, demək olar ki, 30 ildir. Bizim əhali XX əsrin faciəsini yaşayıb, Xocalı faciəsini. Burada olan bütün insanlar o faciədən çıxmış insanlardır. Bütün bunlara baxmayaraq, bu gün biz kədərli olsaq da, sevincimizin hədd-hüdudu yoxdur. Kədərliyik ona görə ki, Xocalı faciəsini yaşamışıq, Xocalı faciəsindən çıxmışıq. Xocalıda elə bir ailə yoxdur ki, həmin faciə vaxtı itki verməsin, şəhid verməsin. Yəni bütün bunlara baxmayaraq, Sizin xarici və daxili siyasətiniz nəticəsində bizim torpaqlarımız azad edildi. Daha sonra keçən ilin sentyabr ayında antiterror əməliyyatı nəticəsində Xocalımız separatçı ermənilərdən təmizləndi və azad edildi. Sizin sayənizdə qısa müddət ərzində Xocalımız belə gözəlləşdi.

**Prezident İlham Əliyev:** Səkkiz aya.

**Sakinlər:** Səkkiz aya, bu, möcüzədir. Səkkiz aya bax belə quruculuq işləri aparıldı.

**Prezident İlham Əliyev:** Mən xüsusi tapşırıq vermişdim, antiterror əməliyyatından dərhal sonra dedim ki, birinci növbədə biz Xocalını bərpa etməliyik.

**Sakin:** Cənab Prezident, Xocalıda ilk şəhid mənim qardaşım olub. 1991-ci il sentyabr ayının 9-dan 10-na keçən gecə 25 yaşında.

**Prezident İlham Əliyev:** Necə şəhid olub? Döyüşlər gedirdi, yoxsa hücum etmişdilər?

**Sakin:** Yox, dağdan "Qrad" atdılar, yox, "Alazan" atdılar. Düşdü, qardaşım da postda idi, həmin vaxt biz kəndi qoruyurduq.

**Prezident İlham Əliyev:** Hansı tərəfdən atırdılar?

**Sakinlər:** Baxın, o dağın bu üzündən, meşəlikdən. Allah Sizə dəyməsin, bu xoşbəxtliyi bizə Siz yaşatmısınız. Bunu mən həmişə demişəm, mənim birinci arzum olub Sizi xanımınızla bax belə, yan-yana, yaxından görüm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Mən onu bilirəm ki, dünyada Sizin kimi Prezident olmayıb, olmayacaq da. Həqiqətən, vicdan haqqı. Bunu hamı deyir, təkcə bizim Xocalı camaatı yox, bütün Qarabağ, bütün Azərbaycan xalqı. Bu, son 200 ildə tariximizdə olmayan bir şeydir. İndi Sizin sayənizdə biz qalib xalq kimi yaşayırıq.

**Prezident İlham Əliyev:** Siz yaxşı bilirsiniz ki, o vaxt bura Dağlıq Qarabağ Muxtar Vilayəti idi və burada yaşayan azərbaycanlılar da istər-istəməz erməni rəhbərlərə tabe olmalı idilər.

**Sakinlər:** Doğrudur. Yüzə-yüz elə idi.

**Prezident İlham Əliyev:** Sizi nə qədər sıxışdırırdılar. Mən xocalılılarla çox görüşmüşəm, hətta burada tam məktəb də olmayıb.

**Sakinlər:** Olmayıb.

**Prezident İlham Əliyev:** Olmayıb ki, getsin uşaqlar orada oxusun. Orada da min dənə əzab-əziyyət çəkirdilər.

**Sakinlər:** Bütün yarışlara gedəndə də bizi sıxışdırırdılar, yer vermirdilər. Deyirdilər ki, azərbaycanlısan.

**Prezident İlham Əliyev:** Bir tərəfdə Xankəndi, bir tərəfdə Əsgəran.

**Sakinlər:** Qalmışdıq bunların arasında. Həqiqətən, cənab Prezident, Siz Şuşadan, - həmin kadrlar mənim yadımdan çıxmır, - qardaş ölkənin Prezidenti cənab Ərdoğanla Xankəndiyə baxanda dediniz ki, olacaq.

**Prezident İlham Əliyev:** Olacaq.

**Sakin:** Bu gün mən şadam ki, Xocalıdayam. Yəni 32 il bundan qabaq Xocalını itirdik. Mən əsir düşmüşdüm, yaralanmışdım.

**Prezident İlham Əliyev:** Əsir düşmüşdün?

**Sakin:** Xankəndidə mən həmin yerə getmək istədim, mənə dedilər ki, olmaz.

**Prezident İlham Əliyev:** Xankəndidə əsir düşmüşdünüz?

**Sakin:** Xocalı faciəsində yaralanmışdım, Xankəndidə saxlayırdılar.

**Prezident İlham Əliyev:** Yox, gedib baxmaq olar.

**Sakin:** Yəni həmin yeri təxmin etdim ki, necə gətirib aparırdılar.

**Prezident İlham Əliyev:** Gedib görərsiniz o yerləri. Çünki sentyabr ayından artıq Xankəndiyə də köç başlayır.

**Sakinlər:** İnşallah.

**Prezident İlham Əliyev:** Birinci köçən tələbələr və onların müəllimləri olacaqlar. Qarabağ Universiteti fəaliyyətə başlayır. Ona görə bir tərəf olacaq Xankəndi, bir tərəf Ağdam. Ağdam şəhərinə də gələn il insanlar qayıdacaqlar.

**Sakin:** İnşallah. Bəli, cənab Prezident, Sizin sayənizdə, Sizin siyasətinizin nəticəsində biz Xocalıya qayıtdıq və işlərimizi gördük. Min şükür.

**Prezident İlham Əliyev:** Allaha şükür. Siz burada əbədi yaşayacaqsınız.

**Sakinlər:** Sağ olun, var olun, Allah Sizə dəyməsin.

**Xocalı sakini Səriyyə Cəfərova:** Cənab Prezident, mən bu evdə yaşamışam.

**Prezident İlham Əliyev:** Bu evdə?

**Səriyyə Cəfərova:** Bəli, bu evdə. Mən Sizi evimizə dəvət edirəm.

**Prezident İlham Əliyev:** Gedək, Mehriban xanım da gəlsin, gedək.

**Səriyyə Cəfərova:** Mən bu evdə doğuldum, bu evdə böyüdüm.

**Prezident İlham Əliyev:** Sonra ermənilər gəlib evinizdə yerləşmişdilər, elədir?

**Səriyyə Cəfərova:** Bəli, ermənilər bu evdə yerləşdilər və mənim anamı şəhid etdilər. Ondan sonra mən bir ailə olaraq üç əmim oğlunu itirdim, anamı itirdim.

**Prezident İlham Əliyev:** Bu xanımın evidir.

**Mehriban xanım Əliyeva:** Eləmi?

**Səriyyə Cəfərova:** Bəli, mənim anam bax bu evi tikib.

**Prezident İlham Əliyev:** Anası da şəhid olub.

**Səriyyə Cəfərova:** Bəli, şəhid olub.

**Mehriban xanım Əliyeva:** Allah rəhmət eləsin.

**Səriyyə Cəfərova:** Anam üç qız uşağını atasız böyüdüb. Bu ev mənim üçün çox doğmadır, əzizdir.

**Mehriban xanım Əliyeva:** Bu, həmin evdir, qalıb?

**Prezident İlham Əliyev:** Bərpa etmişik.

**Səriyyə Cəfərova:** Bu evi bizə yenidən bəxş etdiniz, cənab Prezident. Məni evimə gətirən Prezident, Mehriban xanım, Sizə sonsuz təşəkkür edirəm ki, bu, mənim üçün yuxu deyil, xəyal deyil, bu, əsl gerçəkdir. Təşəkkürlər, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun, gedək evinizə baxaq. Amma əminəm ki, ümidlərinizi heç vaxt itirməmişdiniz.

**Səriyyə Cəfərova:** Heç vaxt itirmədim.

**Prezident İlham Əliyev:** Amma çox vaxt keçib təbii ki, 32 il başqa-başqa yerlərdə.

**Səriyyə Cəfərova:** Cənab Prezident, 32 il zaman keçdi. Amma mən Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədriyəm, tədqiqatçı-jurnalistəm, 2017-ci ildə biz Sizinlə görüşmüşük, cənab Prezident.

**Prezident İlham Əliyev:** Harada?

**Səriyyə Cəfərova:** Mətbuat Günündə görüşmüşük biz və orada Sizinlə səmimi söhbətimiz də olub. Yəni Siz həmişə xocalılılara xüsusi qayğı ilə yanaşmısınız.

**Prezident İlham Əliyev:** Elədir, düzdür.

**Səriyyə Cəfərova:** Allah elə qismət edib ki, mənə Ulu Öndərlə də görüşmək nəsib olub. 1995-ci ildə o, xocalılıları qəbul edib. Buyurun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sizin həyətiniz budur?

**Səriyyə Cəfərova:** Bəli, bu həyətdir.

**Prezident İlham Əliyev:** Hə, yaxşıdır.

**Səriyyə Cəfərova:** Mən həmişə, - bayaq qeyd etdiyim kimi, - anamın oğul övladı olmadığına görə, bu həyəti becərirdim və deyirdim ki, qoy mənim anamın ürəyi böyüsün və mənim anam qış vaxtı...

**Prezident İlham Əliyev:** Artıq indi yenidən becərirsiniz.

**Səriyyə Cəfərova:** Yenidən burada elə bir həyat, elə bir gözəllik gördüm ki, bəlkə də bu gün anamın ruhu Sizi görür, bizi görür və nə qədər şad olur.

**Prezident İlham Əliyev:** Ruhu şaddır.

**Səriyyə Cəfərova:** Şad olur ki, onun evinə cənab Prezident gəlib. Bundan gözəl hiss harada var, cənab Prezident?

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Səriyyə Cəfərova:** Bunu bizə yaşatdığınız üçün Sizə sonsuz təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox gözəl tarixi bir hadisədir. Tarixi günləri yaşayırıq.

**Səriyyə Cəfərova:** Tarixi bir hadisədir ki, ilk dəfə mənim evimə gəlirsiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Həyət də yaxşıdır, böyükdür.

**Mehriban xanım Əliyeva:** Həyət də böyükdür.

**Sakinlər:** Allah Sizi xoşbəxt eləsin, Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Gedək.

**Mehriban xanım Əliyeva:** Gəlin, keçək baxaq.

❖ ❖ ❖

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Səriyyə Cəfərovanın evində yaradılan şəraitlə tanış oldular.

❖ ❖ ❖

**Səriyyə Cəfərova:** Buyurun, cənab Prezident, xoş gəlmisiniz. Buyurun, Mehriban xanım, xoş gəlmisiniz.

**Mehriban xanım Əliyeva:** Sağ olun, sizinlə bərabər.

*Ardı 6-cı səh.*

◆ Prezident İlham Əliyevin Xocalı şəhərinə səfəri

# O gün gəldi...

## "Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik"

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər







*Əvvəli 5-ci səh.*

**Səriyyə Cəfərova:** Çox sağ olun. Bax o evdə doğuldum, bu evdə böyüdüm. Bu evdə bizim anamız üç qızı böyütdü, təhsil verdi, ali təhsil verdi. Bu gözəlliyi bizə Siz bəxş etdiniz, Xocalını Siz bizə bəxş etdiniz.

**Prezident İlham Əliyev:** Gözəl tikilib. Mən baxıram, divarları da qalındır, möhkəmdir.

**Səriyyə Cəfərova:** Çox gözəl, hər şey çox yüksək səviyyədə təmir olunub. Mehriban xanım, çox təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Çox gözəldir bura, mətbəxdir, qaz da var.

**Səriyyə Cəfərova:** İnşallah. Hər şey var, burada evlər yüksək səviyyədə təmir olundu və bu evləri bizə bəxş etdilər.

**Prezident İlham Əliyev:** Sizi təbrik edirik.

**Səriyyə Cəfərova:** Mən bir məsələni də vurğulamaq istəyirəm ki, mən Erməni Təcavüzünün Tanınması İctimai Birliyinin sədriyəm. Uzun illərdir Qarabağ həqiqətlərinin dünyada yayılmasında xidmət göstərirəm. Mehriban xanım, nə yaxşı ki, Sizin Qarabağ həqiqətlərinin yayılmasında çox böyük xidmətləriniz oldu. Mən "Xocalıya ədalət!" kampaniyasına görə təşəkkür edirəm ki, biz də azacıq olaraq ona dəstək verdik.

**Mehriban xanım Əliyeva:** Sağ olun, çox sağ olun.

**Səriyyə Cəfərova:** Buna görə də Xocalı soyqırımını dünyaya tanıtdıq. Xocalını dünyaya tanıtdıq.

**Prezident İlham Əliyev:** Bəli, "Xocalıya ədalət!" kampaniyasına qədər, siz də yaxşı bilirsiniz, Xocalı soyqırımı haqqında o qədər də böyük məlumat yox idi, dünyada geniş məlumat yox idi. Çünki Ermənistan çalışırdı ki, hər vəchlə bunu ört-basdır etsin, bizdə də o vaxt belə imkanlar yox idi sözün düzü. Amma "Xocalıya ədalət!" kampaniyası bütün dünyaya səs saldı, geniş vüsət aldı və bunun nəticəsində 13 ölkə Xocalı soyqırımını soyqırımı kimi tanıdı.

**Səriyyə Cəfərova:** Bəli, soyqırımı kimi tanıdı. Bundan sonra da mən inanıram ki, Mehriban xanımın, eyni zamanda Sizin əməyiniz nəticəsində Xocalı soyqırımı tanınacaq. Siz bizə 8 ay ərzində belə bir gözəllik bəxş etdiniz. İnanın, mən heç vaxt güman etmirdim ki, evimə bax bu formada gələcəyəm. Bunu bizə yaşatdınız, cənab Prezident, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun. Xocalı soyqırımı abidəsinin, memorial kompleksinin yaradılması ilə bağlı uzun illər məsələlər müzakirə edilirdi, hətta "Ana fəryadı" abidəsinin yanında yer də seçilmişdi, layihə də hazırlanmışdı. Ancaq hər il mən son təsdiqimi vermirdim. Çünki ürəyimdə saxlayırdım ki, bu memorial kompleks Xocalıda yaradılmalıdır və belə də oldu. Həmin o layihəni biz gətirdik və fevralın 26-da Xocalıda xocalılılarla bərabər Xocalı Memorial Kompleksinin təməli qoyuldu və burada inşa ediləcək. Bütün dünya da görəcək ki, erməni vəhşiliyi nədir, bu, həqiqətdir və bunu hər kəs bilməlidir. Ermənistan özü bunu etiraf etməlidir, özü bizdən üzr istəməlidir. Ancaq bunu etməklə ola bilsin ki, indiki Ermənistan rəhbərliyi - o vəhşilərin, vandalların, qaniçənlərin günahlarını bir qədər yumuş ola bilər. Bunu etməsə, məncə, Ermənistan özü heç vaxt ayağa dura bilməyəcək. Gərək, ilk növbədə, Ermənistan özü bu faciəni, bu cinayəti, hərbi cinayətini tanısın.

**Sakinlər:** İnşallah. Allah səsinizi eşitsin, Allah Sizi qorusun. Allah ömrünüzü uzun eləsin.

**Səriyyə Cəfərova:** Bir daha təşəkkür edirəm. Sizə minnətdarıq, cənab Prezident. Siz gəldiniz, mənim anamın ruhunu şad etdiniz. Mehriban xanım, çox sağ olun. Mənim anamın ruhu necə şad oldu. Bu gün mən özümü bu evdə çox xoşbəxt hiss edirəm. Çünki bu işığı mənə Siz bəxş etdiniz. İşığınız sönməsin, Mehriban xanım.

**Digər qadın sakin:** Cənab Prezident, Mehriban xanım, Sizə minnətdarıq. Soyqırımı qurbanlarının ruhu şaddır. Bu gün xocalılılar sevinirlər ki, bizim gözəl Prezidentimiz qisasımızı yerdə qoymadı. Mehriban xanım, evdə də Sizə dua edirəm. Allah-taala Sizi bir-birinizdən ayırmasın. Allah Sizə cansağlığı versin. İşığınız sönməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Mehriban xanım Əliyeva:** Sağ olun.

❖ ❖ ❖

Daha sonra dövlətimizin başçısı və birinci xanım sakin Müşfiq Sadıqovun evində yaradılan şəraitlə tanış oldular.

❖ ❖ ❖

**Prezident İlham Əliyev:** Sizin eviniz buradadır?

**Müşfiq Sadıqov:** Bəli, ata-baba evimiz qabaqdadır. Evin o daşı da orada durur. Yəqin ki, ermənilərin də yadından çıxıb, onu sökməyiblər, qalıb. 1976-cı ildə atamın adı-familiyası yazılıb.

**Prezident İlham Əliyev:** 1976-cı ildə?

**Müşfiq Sadıqov:** Bəli, atamın adı da, familiyası da.



**Prezident İlham Əliyev:** Burada qanunsuz məskunlaşmışdılar?

**Müşfiq Sadıqov:** Bəli, bizim evdə məskunlaşmışdılar, cənab Prezident.

**Prezident İlham Əliyev:** Böyük həyətin var, təqribən 20 sot olar.

**Müşfiq Sadıqov:** Dədə-baba yerimiz 20 sotdur.

**Prezident İlham Əliyev:** 20, görürsən də, necə görürəm.

**Müşfiq Sadıqov:** Buyurun, cənab Prezident, birinci qonağım Siz olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Neçə otaqdır?

**Müşfiq Sadıqov:** Dörd otaqdır.

**Prezident İlham Əliyev:** Bərpa olunub?

**Müşfiq Sadıqov:** Bəli, əvvəl də dörd otaq olub, sonra da.

**Prezident İlham Əliyev:** Üç yataq otağı, bir qonaq otağı.

**Müşfiq Sadıqov:** 1976-cı ildə tikilib.

**Prezident İlham Əliyev:** Çox gözəl, təmir yaxşıdır, razısınız?

**Müşfiq Sadıqov:** Çox gözəldir. Hər şey var, su, qaz, işıq.

**Prezident İlham Əliyev:** Bəs istilik?

**Müşfiq Sadıqov:** Kombi sistemimiz var. Çox gözəl təmir ediblər. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Burada xoşbəxt yaşayın.

**Müşfiq Sadıqov:** Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

❖ ❖ ❖

**Prezident İlham Əliyev:** O nə binasıdır, məktəbdir?

**Sakin:** Bəli, məktəbdir, təzə məktəbdir.

**Prezident İlham Əliyev:** Bu, o vaxt olmayıb?

**Sakin:** Xeyr, bizim köhnə məktəbin binasını onlar konserv zavodu ediblər. Bizim məktəb onillik olub.

**Prezident İlham Əliyev:** Xocalıda bir məktəb olub?

**Sakin:** Xeyr, 3 məktəb olub. Biri onillik, biri səkkizillik, biri də dördillik.

**Prezident İlham Əliyev:** Bu məktəb neçə şagird yerlikdir?

**Sakin:** 132 şagird, çox gözəl məktəbdir.

**Prezident İlham Əliyev:** Yəni dərslər sentyabrdan başlayacaq?

**Sakin:** Bəli, direktor da təyin olunub, müəllim heyəti də formalaşıb.

**Prezident İlham Əliyev:** Çox gözəl.

**Sakin:** Hər şey əladır, maşallah.

**Prezident İlham Əliyev:** Təbiət də, maşallah, göz oxşayır.

**Sakin:** Maşallah gününüz olsun.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz, bilirsiniz, bəlkə də dünyada sizin qədər əzab-əziyyət çəkən ikinci belə insanlar yoxdur.

**Sakin:** Ən az əhali, çox şəhid verən, Xocalı balaca bir yerdir.

**Prezident İlham Əliyev:** Bəli.

**Sakin:** Cənab Prezident, arabir oraya baxıram, öz-özümə fikirləşirəm ki, həmin gecə mən o dağı necə aşmışam?

**Prezident İlham Əliyev:** Qarqar çayının qırağı ilə?

**Sakin:** Yox, Qarqarın o biri üzünə keçdik.

**Prezident İlham Əliyev:** O dağın ətəyi ilə?

**Sakin:** Biz dağın ətəyindən keçdik, üç günə Ağdamın Şelli kəndinə çatdıq. O beşmərtəbədə qalan insanlardan biri də biz olmuşuq.

**Prezident İlham Əliyev:** Çayı keçdiniz, dağın ətəyi ilə getdiniz.

**Sakin:** Bəli, dağın ətəyi ilə, orada Naxçıvanlı kəndi var idi.

**Prezident İlham Əliyev:** Bəli, bilirəm, orada olmuşam.

**Sakin:** Oranın yanından keçib Ağdamın Şelli kəndinə getdik.

**Prezident İlham Əliyev:** Həmən o faciə günü?

**Sakin:** Orada da pusqu qurmuşdular.

**Prezident İlham Əliyev:** Orada da pusqu qurmuşdular?

**Sakin:** Bəli, onu mən gözümlə gördüm, cənab Prezident, borunu deşib qazı yandırmışdılar. Soyuğa düşmüş camaat da o istiyə qaçdı. İnsanların çoxunu orada əsir götürdülər. Bəli, belə bir pusqu qurmuşdular. İnsan soyuqda haraya qaçar, istiyə. Adamlarımızın çoxunu orada əsir götürdülər.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Sənətkarlar məhəlləsinə gəldilər, əvvəlcə "AzeRobot Education" robototexnika tədris mərkəzinin Xocalıdakı filialında yaradılan şəraitlə tanış oldular.

**Mərkəzin nümayəndəsi:** Mərkəzimiz barədə məlumat verim. "AzeRobot Education" artıq üç ilə yaxındır fəaliyyət göstərir. Xocalıdakı doqquzuncu filialımızdır. Proqramlaşdırma, mühəndislik və robototexnika. Beş yaşında uşaqlardan tutmuş şagirdlərə və gənclərə IT sahəsini tədris edirik. On yeddi modulumuz var, yəni süni intellekt, kibertəhlükəsizlik, proqramlaşma. Uşaqları, şagirdləri hazırlayıb həm yerli, həm də beynəlxalq yarışlara gedirik və Azərbaycanı təmsil edirik.

**Prezident İlham Əliyev:** Yəni məktəbdən sonra uşaqlar buraya gəlib məşğul olacaqlar?

**Mərkəzin nümayəndəsi:** Bəli, məktəbdən sonra və Xocalıda da artıq bu fəaliyyət başlayıb. Səksənə yaxın müəllimimiz var. Müəllimlərimiz gənclərdir. Universiteti bitirən kimi, hər bölgədən gənclərimiz var və onlar, hər kəs əlbəttə ki, Qarabağa gəlmək istəyirdi. Xocalıda olan mentorlarımız var idi. İki ildir onları hazırlayırdıq, həsrətlə bu günü gözləyirdilər.

**Prezident İlham Əliyev:** Xankəndidə Qarabağ Universiteti də sentyabr ayından fəaliyyətə başlayır. Ora ilə də yəqin ki, əlaqəniz olacaq.

**Mərkəzin nümayəndəsi:** Bizim bütün universitetlərlə əlaqəmiz var. Mexatronika, kompüter, IT sahəsində tələbələr hazırlaşırlar. Onları - uşaqları, gəncləri öyrədirik ki, artıq silahla yox, bu dəfə özlərinin yığdığı pilotsuz uçuş aparatları ilə torpaqlarımızı qorusunlar.

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə. İnşallah.

❖ ❖ ❖

Sonra "Nakhishli" atelyesi ilə tanışlıq oldu.

**Prezident İlham Əliyev:** Salam.

**Atelyenin əməkdaşı:** Həmişə Siz gələsiniz. Çox şadam. Bu gün o qədər şadam ki, mən Sizi Xocalıda qarşılayıram. Ən böyük arzularımdan birinə çatmışam.

**Prezident İlham Əliyev:** Həm də iş başında.

**Atelyenin əməkdaşı:** Bəli iş başında, ən sevdiyim iş başında. Buraya gəlmək üçün çox çətinliklərdən keçmişik.

**Prezident İlham Əliyev:** Allah işinizi avand eləsin.

**Atelyenin əməkdaşı:** Çox sağ olun. Çox şadam.

**Mehriban xanım Əliyeva:** Salam. Mən də çox şadam bu günü bir yerdə yaşayırıq. Sizi təbrik edirəm.

**Atelyenin əməkdaşı:** Sizi təbrik edirəm. Buralarda Sizin hamınızın əziyyəti var. Xocalıda şəhid olanların hamısının ruhu bu gün şaddır. Ona görə ki, bizim belə Prezidentimiz var, belə birinci xanımımız var. Mən həqiqətən çox şadam. Ulu Öndər Heydər Əliyevi həddən artıq çox sevirdim. İndi də Sizi çox sevirəm. Onun da ruhu şad olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

Sonra birgə foto çəkdirildi.

❖ ❖ ❖

**Prezident İlham Əliyev:** Sağ olun, Sizi təbrik edirik.

**Atelyenin əməkdaşları:** Çox sağ olun, gələn ayaqlarınız var olsun. Allah Sizi qorusun.

❖ ❖ ❖

Dövlətimizin başçısı və birinci xanım "Gilabi Ceramics" emalatxanası ilə tanış oldular.

**Prezident İlham Əliyev:** Siz Bakıdan gəlmisiniz?

**Emalatxananın əməkdaşı:** Bakıdan gəlmişik. Düzdür, başlanğıc olaraq Bakıda başlamışıq.

**Elçin Yusubov:** Bölgələrimizdə də var.

**Emalatxananın əməkdaşı:** Laçında başlamışıq. Bu ailə Laçındandır.

**Prezident İlham Əliyev:** Laçından? Nə yaxşı.

**Emalatxananın əməkdaşı:** Laçına köç etmiş sakinlərdir. Yəni Laçında artıq fəaliyyətə başlayıblar.

**Prezident İlham Əliyev:** Laçında işləyirlər?

**Elçin Yusubov:** Bəli, işləyirlər.

**Qadın işçi:** Kollektivimiz adından Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Emalatxananın əməkdaşı:** Başlanğıc üçün Bakıdan işçi çağırmadıq.

**Elçin Yusubov:** Özümüzdə var, Qarabağımızda var.

**Emalatxananın əməkdaşı:** Daha yaxından.

**Prezident İlham Əliyev:** Laçın kimi gözəl mənzərəli yerdən gəlmisiniz, daha da gözəl yerə.

**Mehriban xanım Əliyeva:** Salam, xoş gördük.

**Emalatxananın əməkdaşı:** Salam, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Laçında işlər necə idi, yaxşı idi?

**Emalatxananın əməkdaşı:** Cənnəti daha da cənnət etmisiniz.

**Prezident İlham Əliyev:** Laçın onsuz da cənnətdir, mən demişəm, Azərbaycanın yəqin ki, ən gözəl rayonlarından biridir, özü də indi abadlıq işləri aparılandan sonra. Mən demişdim ki, biz Qarabağı cənnətə çevirəcəyik. Yavaş-yavaş çeviririk. Xocalı da elə olacaq.

**Emalatxananın əməkdaşları:** Çox sağ olun. Allah Sizə cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sizi təbrik edirik. Sağ olun.

**Mehriban xanım Əliyeva:** Təbrik edirəm.

**Emalatxananın əməkdaşları:** Sağ olun.

❖ ❖ ❖

Daha sonra "Sariban" peşə inkişaf mərkəzinin filialı ilə tanışlıq oldu.

**Mərkəzin əməkdaşı:** Xocalımıza xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun. Salaməleyküm.

**Mərkəzin əməkdaşı:** Xoş gördük, cənab Prezident. Sizi görməyə çox şadıq.

**Prezident İlham Əliyev:** Siz hansı işlərlə məşğul olursunuz?

**Mərkəzin əməkdaşı:** Peşə inkişaf mərkəzi olaraq Xocalı sakinlərinə mədəniyyətimizlə bağlı sənət sahələrini öyrədəcəyik. Bundan əlavə, Xocalıda məskunlaşacaq sakinlərə müxtəlif peşələr öyrədəcəyik, master-klaslar keçiriləcək.

*Ardı 7-ci səh.*

◆ Prezident İlham Əliyevin Xocalı şəhərinə səfəri

# O gün gəldi...

## "Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik"

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı şəhərinə köçən sakinlərlə görüşüblər







*Əvvəli 6-cı səh.*

**Prezident İlham Əliyev:** Yəni rəssamlıq, yoxsa?

**Mərkəzin əməkdaşı:** Rəssamlıq da daxildir, təbii-dekorativ sənət növləri də. Şamın hazırlanması, vitraj sənəti, yəni buraya xalq yaradıcılığı da aiddir.

**Prezident İlham Əliyev:** Yəni bura təlim mərkəzi olacaq?

**Mərkəzin əməkdaşı:** Təlim mərkəzi olacaq, eyni zamanda mentorluq proqramı da düşünmüşük, Xocalı sakinləri öyrəndikdən sonra digərlərinə də öyrətsinlər.

**Prezident İlham Əliyev:** Çox yaxşı, sizi təbrik edirəm. Sağ olun.

**Mehriban xanım Əliyeva:** Sizi təbrik edirəm.

**Mərkəzin əməkdaşı:** Mehriban xanım, Sizi görməyə çox şad olduq. Sağ olun, bayramınız mübarək.

❖ ❖ ❖

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərinin baş planı ilə də tanış oldular.

❖ ❖ ❖

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri **Anar Quliyev:** Salam, cənab Prezident.

**Prezident İlham Əliyev:** Gedək, bizə göstərsinlər Xocalının gələcəyi necə olacaq?

**Sakin:** İnşallah, Xocalının gələcəyi bundan da gözəl olacaq.

**Anar Quliyev:** Cənab Prezident, Xocalının baş planını hazırlayarkən biz, ilk növbədə, onun regiondakı mövqeyini nəzərə aldıq. Çox strateji mövqeyə malikdir. Bu, beynəlxalq hava limanıdır. Bu, Xocalı şəhəridir. Bu isə Xocalı rayonunun sərhədləridir. Beynəlxalq hava limanı, respublika əhəmiyyətli avtomobil yolu, hazırda layihələndirilən, tezliklə çəkiləcək dəmir yolu. Bütün bunlar Xocalının gələcəyini artıq bir qovşaq kimi, nəqliyyat qovşağı və logistika mərkəzi kimi şərtləndirir.

Eyni zamanda strateji əhəmiyyətə malik Ağdam, Xankəndi şəhərlərinin, bizim mədəniyyət paytaxtımız Şuşa şəhərinin çox yaxında yerləşdiyini də nəzərə alaraq, regionla inteqrasiyasına xüsusi önəm verilib. Bu tərəfdə Xocalı şəhərinin tündqəhvəyi rənglə əvvəl mövcud olmuş sərhədləri göstərilib, 610 hektar təşkil edirdi. Hazırda isə biz 1300 hektara yaxın ərazini nəzərdən keçiririk.

**Prezident İlham Əliyev:** Burada nə idi o vaxt? İşğala qədər ora boş torpaq idi?

**Anar Quliyev:** Boş torpaqdır, bəli. Bura kiçik bir yaşayış məntəqəsi idi. 9100 nəfər əhalisi var idi.

**Prezident İlham Əliyev:** Qeydiyyatda 9100?

**Anar Quliyev:** Bəli, qeydiyyatda 9100. Biz ilk mərhələdə 12 min nəfərlik şəhər planlaşdırırıq. Eyni zamanda ehtiyat üçün də ərazilər saxlanılır.

İcazənizlə, növbəti planşetdəkilər barədə məlumat verim. Burada gələcəyə baxış hədəflərini əks etdirmişik. Təbii ki, Xocalı bir regional mərkəz kimi davamlı surətdə inkişaf etməlidir. Burada həm bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar, təbiətlə daim təmasa imkan verən rekreasiya əraziləri demək olar ki, bütün şəhər boyu, yaşıl məkanlarla əlaqələndirilmiş komfortlu yaşayış əraziləri nəzərdə tutulub. Əsasən 3-5 mərtəbəli yaşayış binaları, həyətyanı sahələrə malik fərdi evlər. Təbii ki, bu gün artıq bir neçəsi Sizə də təqdim olundu. Bərpa olunan evlər də vacib elementlərdən biridir.

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq, mobilliyi artıracaq. Bu, həmçinin şəhərdə iqtisadiyyatın, sahibkarlığın inkişafına da xüsusi təkan verəcək. Bütün bunlar dinamik inkişafı təmin edən iqtisadi şaxələndirməyə imkan verəcək. Burada çox zəngin kənd təsərrüfatı torpaqları olduğunu nəzərə alaraq, şəhər daxilində kiçik aqropark yaradılması təklif olunur. Müxtəlif tikinti materialları istehsalı, yüngül sənaye, qida sənayesi obyektləri yaradılacaq, nəqliyyat və logistika ənənəvi əsas sektor olaraq inkişaf etdiriləcək.

**Prezident İlham Əliyev:** Yəni müasir şəhər olacaq.

**Anar Quliyev:** Bəli, müasir şəhər.

**Prezident İlham Əliyev:** Mən dəmir yolu ilə də bağlı göstəriş verdim. Ağdam-Xankəndi dəmir yolunun bərpası, yəni yenidən qurulması layihəsi hazırlanır. Xankəndi dəmir yolu vağzalının layihəsi mənə təqdim edilmişdir. Yəqin ki, o vağzal bir az fərqli yerdə yerləşəcək, daha uyğun. Ona görə də dəmir yolu ilə buradan - Xankəndidən, Xocalıdan istənilən istiqamətə getmək mümkün olacaq. Həm Bakıya, həm qərb istiqamətinə, Gəncəyə. Ona görə də gediş-gəliş rahat olacaq. İndi Ağdam, Əsgəran, Xankəndi yolunu da genişləndiririk. Siz yaxşı bilirsiniz ki, o yol dar idi.

**Sakin:** Çox dar idi, cənab Prezident.

**Prezident İlham Əliyev:** İndi dördzolaqlı yol olacaq. Yəqin ki, Ağdam-Bərdə yolunu görmüsünüz. Necə də gözəl olub. Bu tərəfdən də Şuşaya cəmi 20 dəqiqəlik yoldur, oradan Laçına. Laçın-Şuşa yolunda bir neçə tunel, körpü inşa edilir. Yəqin ki, siz o yol ilə çox gedib-gəlmisiniz. Hamısı belə serpantin idi. Bu serpantinləri də düzəldirik, körpülər, tunellər. Şuşadan Laçına maksimum 25 dəqiqəyə getmək mümkün olacaq. Deməli, buradan bütün yaxın qonşu rayonlara da gediş-gəliş çox rahat olacaq.

Xankəndidə Qarabağ Universiteti, uşaqlarınız orada oxuyacaqlar. Şuşa da ki, indi dünyanın ən gözəl şəhəridir və olacaq.

**Sakin:** Bir də, cənab Prezident, mümkünsə Xocalıda Soyqırımı muzeyi.

**Prezident İlham Əliyev:** Mən fevralın 26-da təməlini qoymuşam.

**Sakin:** Muzeyin?

**Prezident İlham Əliyev:** Bəli.

**Sakin:** Gözəl, çox sağ olun. O, vacibdir. Çünki o, bizim Xocalı camaatı üçün çox vacibdir, çünki burada çox insan şəhid olub.

**Prezident İlham Əliyev:** Fevralın 26-da mən burada idim. Özüm o layihənin təməlini qoydum. Soyqırımı Memorial Kompleksinin təməli qoyulub. Mən artıq bunu dedim bacımıza ki, Bakıda nəzərdə tutulurdu. Ancaq mən onun Bakıda inşa olunmasına hər dəfə tərəddüd edirdim. Deyirdim ki, yox, gün gələcək, Xocalıda bunu edəcəyik. Layihə çoxdan hazırdır. Mehriban xanım onu çoxdan təsdiqləyib. Heydər Əliyev Fondu tərəfindən hazırlanıb və Heydər Əliyev Fondu tərəfindən inşa edilir.

**Sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Üç ay bundan əvvəl təməli qoyuldu. Yer də elə seçildi ki, yoldan görünsün, təpəcikdə. Yəqin ki, bir ilə, il yarıma hazır olacaq.

**Sakin:** İnşallah.

**Prezident İlham Əliyev:** Burada məşğulluq, ticarət, sənaye.

**Anar Quliyev:** Bəli, nəqliyyat, logistika, kənd təsərrüfatı, ticarət və sənaye - əsas iqtisadiyyatın dayaqlarını təmin edəcək bu region üçün.

**Prezident İlham Əliyev:** "Yaşıl enerji".

**Anar Quliyev:** Mütləq, bəli. Cənab Prezident, bir az öncə qeyd etdiyiniz kimi, çox yaxındır qonşu yaşayış məntəqələrinə, Xocalını Əsgəranla cəmi 5 kilometr, Ağdam şəhərindən isə cəmi 10 kilometr ayırır. Xankəndiyə 11 kilometr, Şuşaya isə 7 kilometrdir. Bununla artıq Xocalının gələcəyi özü təbii olaraq şərtləndirilir. Bu, regional bir haba çevriləcək, tranzit nöqtəsinə. Bu, iqtisadiyyatın, iqtisadi fəaliyyətin həm cəmləşdiyi, həm də kənara inkişaf edəcəyi bir məkandır.

**Prezident İlham Əliyev:** Burada zonalara bölünür.

**Anar Quliyev:** Bəli, artıq konseptual sxem baş plana keçməmişdən əvvəl şəhərin tarixi mərkəzi. Biz hazırda bu hissədəyik. Şəhərin yeni mərkəzi salınacaq. Aşağıda hava limanı və onun ətrafında logistika, sənaye zonası kimi inkişaf etdiriləcək. Hava limanının üstündə arxeoloji park mövcuddur. Artıq o, qorunacaq, inkişaf etdiriləcək, konservasiya işləri aparılır.

**Prezident İlham Əliyev:** Qarqar çayının ətrafı da yəqin daha da abadlaşacaq, gözəl bir gəzinti məkanı olacaq. Xankəndidən bu tərəfə gözəl bir istirahət zonası olmalıdır.

**Anar Quliyev:** Həm Qarqar çayının, həm də Qarqar çayına gələn Badara çayının ətrafında bulvar yaradılması nəzərdə tutulur. İnkişaf zonası, həmin memorial kompleks artıq şəhərin bu hissəsindədir. Növbəti slaydda, planşetdə baş plan daha təfsilatlıdır.

**Prezident İlham Əliyev:** Memorial kompleks haradadır?

**Anar Quliyev:** Burada, bu ərazidə. Biz hazırda buradayıq. Burada məktəb artıq bərpa olunub, yaxınlıqdadır. Bu, faktiki tarixi mərkəzdir və bu hissədə isə şəhərin yeni mərkəzi salınacaq. İnzibati zona, şəhər parkı, mədəniyyət mərkəzi, çoxfunksiyalı zonalar, hava limanı və ətrafında sənaye-logistika zonası. Bu hissədə aqroparkın inkişaf etdirilməsi, müvafiq olaraq texniki peşə məktəbinin layihələndirilməsi və tikintisi planlaşdırılır. Bu, məktəb, bu da yaşayış məntəqəsidir. Kənd təsərrüfatı torpaqlarından sonra bir az məsafədə yerləşdiyi üçün orada da məktəb nəzərdə tutulub. Hər altmərkəzdə məktəblər və uşaq bağçaları olacaq.

Biz təxminən 200 hektar təşkil edən həmin bu mərkəzi hissənin artıq müfəssəl planını hazırlamışıq. Yenə biz durduğumuz məkan buradır. Göründüyü kimi, bu hissədə ictimai, işgüzar zona - yəni çoxfunksiyalı mədəni mərkəz, inzibati binalar və çox böyük şəhər parkı olacaq. Ümumiyyətlə, bütün şəhər boyu yaşıl zonalar bir-biri ilə əlaqələndiriləcək və şəhər çox yaşıl olacaq. Adambaşına 140 kvadratmetr yaşıllıq nəzərdə tutulur.

**Prezident İlham Əliyev:** Bu da bunun vizual görüntüsü, memarlığıdır.

**Anar Quliyev:** Memarlıq həlləri ilə bağlı yanaşmalardır. İctimai binalarla bağlı, müvafiq evlər, yaşayış binaları. Bəli, landşaft memarlığına xüsusi diqqət yetiriləcək. Nəqliyyat və mühəndis qurğuları da şəhərin simasını təşkil edir.

**Prezident İlham Əliyev:** Avtovağzal.

**Anar Quliyev:** Avtovağzal, bəli, avtonəqliyyat qovşağı, dəmir yolu stansiyası - hamısı bir məkanda yerləşəcək.

**Prezident İlham Əliyev:** Bir də əlbəttə ki, təbiətin qorunması. Əsas odur ki, Xocalı gözəl bir park şəhəri olsun.

**Anar Quliyev:** Bunlar istinad olunan şəkillərdir. Burada isə konkret artıq ilkin təkliflər hazırlanıb. Məsələn, bu hissədə yaşayış binalarının görüntüləridir. Müfəssəl planda da görünür, həmin yaşayış binaları yerləşəcək zona buradır. Çayətrafı bulvarın şəkli, yəni bu ərazidən söhbət gedir. Şəhər parkı, təxminən bu hissədən söhbət gedir. Həmin şəhər parkının olduğu hissədə çoxfunksiyalı mədəniyyət mərkəzi...

**Prezident İlham Əliyev:** Tədbirlərin keçirilməsi üçün.

**Anar Quliyev:** Bəli, müxtəlif tədbirlər keçiriləcək. İlkin fasad görüntüləri artıq hazırlanıb. Eyni zamanda uşaq bağçası və tam orta məktəbin birlikdə göründüyü şəkil.

**Prezident İlham Əliyev:** Uşaq bağçası yoxdur?

**Anar Quliyev:** Var.

**Prezident İlham Əliyev:** Məktəbin içində?

**Anar Quliyev:** Xeyr, ayrı, 40 yerlik. Amma bu layihədəki yenidir, şəhərin bu hissəsində layihələndiriləcək.

**Prezident İlham Əliyev:** Yeni məktəb, əlbəttə, lazım olacaq, yəni müəyyən müddətdən sonra.

**Anar Quliyev:** Dəmir yolu stansiyasının ilkin fasad görünüşü hazırlanıb. İnzibati binalarla bağlı fasad görüntüləri ilkin olaraq bu şəkildə təklif olunur.

**Prezident İlham Əliyev:** Bu da inzibati mərkəz.

**Anar Quliyev:** Bəli, üç binadan ibarət inzibati mərkəzdir - bütün dövlət qurumlarının yerləşəcəyi inzibati mərkəz.

**Prezident İlham Əliyev:** Necə, bəyənirsiniz Xocalını gələcək üçün?

**Sakinlər:** Çox sağ olun. Allah Sizi var eləsin. Yüksək səviyyədədir.

**Prezident İlham Əliyev:** Yağışda bir az gəzişək.

**Sakin:** Yağış da aydınlıqdır, nurdur.

**Prezident İlham Əliyev:** Sizi bir daha təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident, var olun. Sağ-salamat gedin.

**Prezident İlham Əliyev:** Burada xoşbəxt yaşayın.

**Sakinlər:** Sağ olun, minnətdarıq. Siz bizim torpaqlarımızı qaytarmısınız.

**Prezident İlham Əliyev:** Xoşbəxt yaşayın. Siz buna layiqsiniz.

**Sakinlər:** Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Bir daha təşəkkür edirəm, gələn ayaqlarınız var olsun. Cənab Prezident, sağ olun, bizə ən böyük xoşbəxtliyi bəxş etmisiniz. Allah Sizi qorusun, ailənizi qorusun. "Dəmir yumruğ"unuz həmişə var olsun.

**Prezident İlham Əliyev:** Həmişə yerindədir. Allah lazım etməsin, amma lazım olarsa, yerindədir.

**Sakin:** Cənab Prezident, lazım olan yerdə lazım oldu.

**Sakinlər:** Allah Sizə güc-qüvvət versin. Allah Sizi var eləsin. Sağ olun. Sağ-salamat gedin.

**Prezident İlham Əliyev:** Sağ olun.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Qeyd edək ki, Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Bütün kommunikasiya xətləri yerin altına salınıb, ilk 50 evə birləşmələr verilib. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir.

Xocalı şəhərində orta təhsil müəssisəsi və uşaq bağçası da inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. Həmçinin idman kompleksində tamamlanma işləri görülür. Kompleksdə şahmat, cüdo, güləş, gimnastika, stolüstü tennis, basketbol, minifutbol, badminton ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaq. İnfrastruktur işlərinin yaxın müddətdə tamamlanması nəzərdə tutulur.



# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Zati-aliləri.

Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Birləşmiş Millətlər Təşkilatı bu əlamətdar günü Azərbaycan xalqı ilə birlikdə qeyd edir.

Bu əlamətdar tarix Dayanıqlı İnkişaf Məqsədlərinin inkişaf etdirilməsinin, iqlim böhranı ilə mübarizənin, hamı üçün fürsətlərin genişləndirilməsi və ümid verilməsinin əhəmiyyətini xatırlamaq baxımından gözəl fürsətdir.

İndi hamı üçün sülhün, davamlı inkişafın, insan hüquqlarının təmin olunmasına kömək etmək naminə həmrəyliyin və ortaq həll yollarının tapılmasının vaxtıdır.

Bu əlamətdar günü qeyd edərkən, gəlin Azərbaycan xalqı və bütün dünya xalqları üçün daha da yaxşı gələcək naminə səylərimizi artıraq.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Antonio QUTERREŞ,***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri.

Dost Azərbaycan xalqı milli bayramını qeyd etdiyi gündə Sizə ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bakı ilə Roma arasında mövcud olan səmərəli əməkdaşlıq əlaqələri məni çox məmnun edir. Bu əlaqələr ikitərəfli səviyyədə inkişaf edərək Rusiya-Ukrayna müharibəsi və Orta Şərqdə gərginliyin artması ilə xarakterizə olunan hazırkı mürəkkəb beynəlxalq vəziyyətdə xüsusi əhəmiyyət kəsb edir.

Əminəm ki, bu möhkəm əsaslarla ölkələrimiz strateji tərəfdaşlığı gücləndirmək, maraq doğuran bir çox sahələrdə onu zənginləşdirən yeni təşəbbüslər irəli sürmək üçün birgə fəaliyyətini davam etdirəcək.

Mən bir daha təsdiq edirəm ki, İtaliya Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da möhkəmlənməsinə, o cümlədən regional sabitlik, əlaqələr və beynəlxalq təhlükəsizlik məsələləri üzrə dialoqun intensivləşməsinə qətiyyətlə dəstək verməyə davam edəcək.

Cənab Prezident, sentyabr ayında Sizinlə Kuirinaledə yenidən görüşəcəyimə ümidvaram.

Sizə və bütün həmvətənlərinizə İtaliya xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

*Hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Müstəqilliyin elan edilməsinin və Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 106-cı ildönümü münasibətilə Polşa Respublikasının xalqı adından və şəxsən öz adımdan Sizə, eləcə də bütün Azərbaycan vətəndaşlarına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Polşa ilə Azərbaycan arasında ənənəvi dostluq və əməkdaşlıq əlaqələrinə, eləcə də ümumi qəhrəmanlarımızın - general Maçey Sulkeviç və polkovnik Vəli bəy Yadigarın tarixi irsinə istinad edərək Sizi əmin etmək istərdim ki, Polşa həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatların forumlarında, həm də Avropa İttifaqı çərçivəsində qardaş xalqlarımız üçün faydalı əməkdaşlığın bütün sahələrini əhatə edən əlaqələrimizin daha da inkişafına daim sadiqdir.

Azərbaycan Respublikası bizim üçün Cənubi Qafqaz regionunda mühüm tərəfdaşdır. 2017-ci ildə Varşavaya səfəriniz zamanı imzalanmış Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair yol xəritəsi haqqında Birgə Bəyannamə münasibətlərimizin inkişaf istiqamətlərini müəyyən edən sənəd olaraq qalır. Polşa iqtisadi əməkdaşlığımızın daha da inkişaf etdirilməsində və ölkələrimizin daim artan iqtisadi potensialına uyğun səviyyəyə çatdırılmasında xüsusilə maraqlıdır.

*Dərin hörmətlə,*

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, Sizə Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Mən şadam ki, son illər ölkələrimiz arasında qarşılıqlı hörmət və minnətdarlığa əsaslanan çoxşaxəli əməkdaşlıq inkişaf edib. Macarıstan Azərbaycanla dostluq əlaqələrinin dərinləşməsinə böyük əhəmiyyət verir və bunun üçün genişlənmiş strateji tərəfdaşlığımız çox gözəl əsas yaradır.

Sizi əmin edə bilərəm ki, mən çoxşaxəli siyasi, iqtisadi və mədəni əlaqələrimizin daha da möhkəmlənməsinə sadiqəm. Ümid edirəm ki, gələcəkdə bizim ümumi məsələlərlə bağlı şəxsən fikir mübadiləsi aparmaq imkanımız olacaq.

Xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Tamaş ŞUYOK,***
***Macarıstanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Slovakiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizi təbrik edirəm.

Şadam ki, Slovakiya ilə Azərbaycan arasında münasibətlər uzunmüddətli dostluq xarakteri daşıyır və ümumi maraqların yeni sahələrinə doğru genişlənir. Əminəm ki, qarşılıqlı əməkdaşlığımız ölkələrimizin vətəndaşlarının rifahı naminə bundan sonra da inkişaf edəcəkdir. Bizim əsas dəyərlərimiz demokratiya, qanunun aliliyi, insan hüquqları və çoxtərəflilik, eləcə də davamlı gələcək naminə sabitlik, firavanlıq və həmrəylikdir.

Hörmətli cənab Prezident, Sizə, həmçinin bütün Azərbaycan vətəndaşlarına möhkəm cansağlığı, əmin-amanlıq, sabitlik, firavanlıq və uğurlu inkişaf arzulayıram.

*Hörmətlə,*

***Zuzana ÇAPUTOVA,***
***Slovakiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

İcazə verin, Azərbaycan Respublikasının milli bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi, həmçinin ölkənizə və xalqınıza sülh və firavanlıq arzularımı çatdırım.

Şadam ki, Latviya ilə Azərbaycan arasında yaxşı və konstruktiv münasibətlər mövcuddur, qarşılıqlı maraq doğuran müxtəlif sahələrdə uğurlu əməkdaşlıq inkişaf etmişdir. Mən Avropa İttifaqı-Azərbaycan tərəfdaşlığının əhəmiyyətini, müsbət gündəm və Avropa İttifaqı-Azərbaycan dialoqunun iqtisadi əməkdaşlıq, regional sabitlik baxımından gətirə biləcəyi faydalarla bağlı birgə fəaliyyətin davam etdirilməsinin önəmini vurğulayıram. Bu baxımdan mən Sizin Cənubi Qafqazda davamlı sülhə nail olmaq istiqamətində səylərinizi alqışlayıram.

Bu ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dəvətinizi qəbul etməkdən böyük məmnunluq duyuram. COP29 zamanı Sizinlə görüşmək imkanı olsa minnətdar olardım. Əminəm ki, COP29 uğurlu olacaq və iqlimlə bağlı fəaliyyətlərə təkan verəcək.

Bu il biz Latviya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik və mən qəti şəkildə inanıram ki, bu yubiley əlaqələrimizin müsbət dinamikasını daha da möhkəmləndirəcək. Bu baxımdan mən bu il Sizinlə Latviyada görüşməyimizi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, güc-qüvvət və məsul vəzifənizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Edqars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram. Sizə, ölkənizə və xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Litva Azərbaycanın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir. Qəti əminəm ki, Siz bundan sonra da milli tərəqqiyə və transformasiyaya aparan islahatları həyata keçirməkdə davam edəcəksiniz.

Biz Sizin ölkənizin Ermənistanla sülh əldə etmək səylərini dəstəkləyir və yüksək qiymətləndiririk. Mən Ermənistanla sərhədlərin delimitasiyası ilə bağlı bu yaxınlarda əldə edilmiş və regionda davamlı sülh üçün tarixi imkan yaradan razılaşmanı alqışlayıram. Litvanın Cənubi Qafqazda etimadın yaradılmasına töhfə verməyə hazır olduğunu bir daha qeyd edirəm. İnanıram ki, dialoq və danışıqlar davamlı konsensusa nail olmağın yeganə yoludur.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əhəmiyyətlidir. Biz ölkənizlə Avropa İttifaqı arasında getdikcə inkişaf edən dialoqu dəstəkləyir və təşviq edirik. Bütün dünyanın artan çağırışlarla üzləşdiyi, Rusiya ilə Ukrayna arasında müharibənin üçüncü ildir ki, davam etdiyi bir vaxtda beynəlxalq nizamı qorumaq, sabitliyi gücləndirmək üçün qarşılıqlı anlaşmanı möhkəmləndirmək və həll yollarını tapmaq çox vacibdir.

Müstəqillik Gününüzü bir daha təbrik edirəm. Cənab Prezident, ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əziz Prezident.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ümidvaram ki, Estoniya ilə Azərbaycan arasında əməkdaşlıq gələcəkdə daha da dərinləşəcəkdir. Tarixin bu çətin dövründə sabitlik və yaxşı münasibətlər ən böyük dəyərdir, xüsusən də Ukraynada və Yaxın Şərqdə gedən müharibələrin bütün dünyaya dağıdıcı təsirini davam etdirdiyi və dünyada digər çoxsaylı böhranların yaşandığı bir vaxtda. Bu xüsusda ədalətli və davamlı sülhə doğru irəliləmək, eləcə də digər qlobal çağırışlarla mübarizə aparmaq üçün əməkdaşlığımız həmişəkindən daha vacibdir.

Hörmətli Prezident, xahiş edirəm, mənim ən yüksək ehtiramımı, Azərbaycan Respublikasının, onun xalqının rifahı və firavanlığı naminə ən xoş arzularımı qəbul edin.

*Səmimi hörmətlə,*

***Alar KARİS,***
***Estoniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşım.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə Əlcəzair xalqı, hökuməti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaqdan, Uca Allahdan zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə daha çox inkişaf və firavanlıq diləməkdən məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizi birləşdirən qardaşlıq və əməkdaşlıq münasibətlərinin artan dinamika ilə inkişafından şad olduğumu bildirirəm. Dost xalqlarımıza xidmət baxımından əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində Sizinlə birgə işləmək istəyimi bir daha ifadə edirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Bosniya və Herseqovinanın Rəyasət Heyəti adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırır, ölkənizin daha da sürətli inkişafı naminə ən xoş arzularımı bildirirəm.

Əminəm ki, ikitərəfli münasibətlərimiz ümumi maraqlara cavab verən bütün sahələrdə dostluq ruhunda inkişaf edəcək, ölkələrimizin və xalqlarımızın rifahı naminə əməkdaşlığın gücləndirilməsinə töhfə verəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına Avstraliya hökuməti və xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Bu il Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Konfransına evsahibliyi etməkdə sizə uğurlar arzulayıram.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri növbəti illərdə də inkişaf etməkdə davam edəcək.

*Dərin hörmətlə,*

***Devid Con HÖRLİ,***
***Avstraliya İttifaqının General-Qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Bu fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

❖ ❖ ❖

Cənab Prezident, əziz Qardaşım.

Ölkənizin milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Konqo xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırmaqdan şərəf və məmnunluq duyuram.

Cənab Prezident, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına firavanlıq və əmin-amanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud olan dostluq, həmrəylik və əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi istiqamətində Sizinlə birgə çalışmağa hazır olduğumu bir daha bildirirəm. Ölkənizə səfərim məndə xoş təəssüratlar yaradıb.

Sizi əlamətdar bayram münasibətilə bir daha təbrik edir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Deni Sassu-NQESSO,***
***Konqo Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Ölkənizin milli bayramı münasibətilə Keniya Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan zati-alinizə və Sizin simanızda Azərbaycan xalqına səmimi təbriklərimi çatdırıram. Bu əlamətdar gün ölkənizin tarixində qürurverici hadisə kimi qeyd olunur.

Keniya və Azərbaycan arasında bu il diplomatik münasibətlərin qurulmasının 20-ci ildönümünün qeyd olunduğu vaxtda mən ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Son iki onillikdə tərəfdaşlığımız qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq dəyərlər əsasında inkişaf etmişdir.

İqlim fəaliyyəti, enerji keçidi, ticarət və sərmayələr, turizm və digər sahələr daxil olmaqla, yeni istiqamətlərdə əməkdaşlığımızı inkişaf etdirmək və tərəfdaşlığımızı genişləndirmək üçün böyük potensialın olduğunu qeyd edirəm.

Bu əlamətdar gündə zati-alinizə möhkəm cansağlığı, böyük Azərbaycan xalqına isə rifah arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Uilyam Samoi RUTO,***
***Keniya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri, əziz Qardaşımız.

İcazə verin, Nikaraqua Respublikasının xalqı, Barışıq və Milli Birlik Hökuməti adından və şəxsən öz adımızdan Sizə, qardaş Azərbaycan xalqına və hökumətinə əlamətdar tarix - 28 May - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimizi çatdıraq.

Daim firavan və müstəqil olan Nikaraquadan bu zəfərlər, milli suverenlik və müstəqillik tarixini qeyd etməkdə sizə qoşuluruq. Qardaş Azərbaycan xalqı və hökuməti ilə ənənəvi dostluq və əməkdaşlıq əlaqələrini bundan sonra da möhkəmləndirməyə sadiqliyimizi bir daha vurğulayırıq.

Hörmətli Prezident, Sizi qardaşcasına bağrımıza basır, dost Azərbaycan xalqına sülh, inkişaf və firavanlıq arzularımızı çatdırırıq.

*Hörmətlə,*

***Daniel Orteqa SAAVEDRA,***
*Nikaraqua Respublikasının Prezidenti,*
***Rosario MURİYO ,***
*Nikaraqua Respublikasının vitse-prezidenti*

❖ ❖ ❖

Zati-aliləri.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi öz adımdan, həmçinin Slovakiya Respublikasının vətəndaşları adından təbrik edirəm.

Bu yaxınlarda ölkənizə rəsmi səfərim zamanı səmimi qəbula və səmərəli müzakirələrimizə görə Sizə təşəkkür edirəm. Birgə səylərimizin əməkdaşlığımızın daha da dərinləşməsinə və yeni sahələrdə genişlənməsinə töhfə verməsi məni ürəkdən sevindirir. Əminəm ki, əlaqələrimiz bundan sonra da inkişaf edəcək və xalqlarımıza rifah gətirəcəkdir.

Hörmətli cənab Prezident, fürsətdən istifadə edərək bu yaxınlarda mənə qarşı törədilmiş sui-qəsdlə əlaqədar dəstəyinizə görə şəxsən Sizə minnətdarlığımı bildirirəm. Mən yalnız Azərbaycan Respublikasının ən yüksək səviyyəli nümayəndələrinə deyil, həmçinin mənə və bütün Slovakiya xalqına həmrəylik ifadə edən Azərbaycan vətəndaşlarına ürəkdən təşəkkür edirəm.

İnanıram ki, səhhətim Sizi Slovakiyada şəxsən qarşılamağa imkan verəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Robert FİTSO,***
***Slovakiya Respublikasının Baş naziri***

❖ ❖ ❖

Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə şəxsən öz adımdan, həmçinin İraq Respublikasının hökuməti və xalqı adından Sizə ən xoş arzularımı və səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək dost ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin uğurla davam edəcəyinə əmin olduğumu bildirirəm.

Zati-aliləri, Sizə davamlı uğurlar və xoşbəxtlik, Azərbaycan hökumətinə tərəqqi, xalqına isə firavanlıq arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

***Məhəmməd Şiya ƏS-SUDANİ,***
***İraq Respublikasının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirik.

Bu əlamətdar tarix Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsinin, sosial-iqtisadi inkişafında nəzərəçarpan nəticələrin əldə olunmasının, ölkənin beynəlxalq arenada nüfuzunun artmasının rəmzidir.

Mən Azərbaycan xalqının mədəniyyətini və qonaqpərvərliyini hiss etdiyim, çoxlu müsbət təəssüratlar aldığım Bakı səfərimi və Sizinlə görüşümü məmnunluqla xatırlayıram.

Azərbaycan Respublikası Şanxay Əməkdaşlıq Təşkilatı ailəsinin ayrılmaz parçasıdır və təşkilatın dialoq üzrə ən fəal tərəfdaşlarındandır. Əminəm ki, birgə səylərimizlə qarşılıqlı münasibətlərimizin məzmununu gələcəkdə daha da zənginləşdirəcəyik.

Zati-aliləri, icazə verin Sizə möhkəm cansağlığı və işlərinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayım.

*Dərin hörmətlə,*

***Can MİN,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibliyi, təşkilata üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin müdrik və ardıcıl siyasəti nəticəsində Azərbaycan Respublikası bütün əraziləri üzərində tam hüquqi nəzarəti bərpa edərək regionda sülhün və əmin-amanlığın təminatçısına çevrilmişdir.

TÜRKSOY ortaq türk mədəniyyətinin inkişafına yönəlik beynəlxalq fəaliyyətində Sizin dəstəyinizi daim hiss edir, Azərbaycanın dünya mədəni irsinə verdiyi töhfələri yüksək qiymətləndirir.

Bu xoş fürsətdən istifadə edərək, TÜRKSOY-a göstərdiyiniz diqqət və qayğıya görə zati-alinizə dərin təşəkkürümü bildirir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, rifah və tərəqqi arzulayıram.

*Ən dərin hörmət və ehtiramla,*

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə Azərbaycan xalqına Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Katibliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırıram.

Azərbaycan Respublikası ildən-ilə öz müstəqilliyini, suverenliyini, regiondakı yerini möhkəmləndirir, beynəlxalq aləmdə daha fəal rol oynayır.

Bu gün Azərbaycan regional tərəqqinin və beynəlxalq əməkdaşlığın mühərriki olmaqla ən dinamik və inkişaf edən iqtisadiyyatlardan biridir. Azərbaycan, həmçinin bütün dünyada sülh, təhlükəsizlik, sabitlik, eləcə də qarşılıqlı anlaşma və tolerantlığın tərəfdarıdır.

Sizin rəhbərliyinizlə Silahlı Qüvvələrin şanlı Qələbəsindən sonra bu bayram ilk dəfə olaraq suveren Azərbaycan Respublikasının bütün ərazisində qeyd edilir. İşğaldan azad edilmiş torpaqların miqyasına və sürətinə görə misli görünməmiş şəkildə bərpası və yenidən qurulması, abadlaşdırılması və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtması proqramı həyata keçirilir.

Paralel olaraq, ölkə regionda beynəlxalq hüququn norma və prinsiplərinə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan ədalətli və davamlı sülhün bərqərar olmasına qətiyyətlə sadiqdir. Biz səmimi-qəlbdən inanırıq ki, sülh regionun böyük əməkdaşlıq və tərəqqi potensialını üzə çıxararaq yeni era açacaqdır.

Azərbaycan özünü və regionu Şərqi Qərblə, Cənubu Şimalla birləşdirən yeni münasibətlər arxitekturasının ən mühüm tərkib hissəsi hesab edərək, cari regional layihələrin həyata keçirilməsi və yeni layihələrin inkişaf etdirilməsi üçün səylərini əsirgəmir.

Azərbaycanın fəal siyasəti və dünya miqyasında artan rolu da geniş şəkildə qəbul edilir. Qoşulmama Hərəkatının aparıcı üzvü kimi ölkə ədalətli və daha yaxşı dünyaya can atan, bir çox dövlətlərin maraqlarını əks etdirən gündəlik irəli sürür. Azərbaycan davamlı inkişaf üçün "yaşıl gündəliy"i təşviq edən və həyata keçirən aparıcı dövlətlər sırasındadır. Bu il Azərbaycan Ümumdünya İqlim Sammitinə - COP29-a evsahibliyi edəcək. Ölkə zəngin ənənələrinə əsaslanaraq mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın, tolerantlığın və mədəni müxtəlifliyin təşviqinə yönəlmiş mühüm qlobal təşəbbüslərə də rəhbərlik edir.

Biz Azərbaycanın GUAM-ın təsisçi üzvü kimi dost ölkələrimiz arasında əməkdaşlığın qurulmasında rolunu yüksək qiymətləndiririk. GUAM-ın sülh, təhlükəsizlik və əməkdaşlığı təşviq etmək üçün nadir və səmərəli regional platforma olduğuna qətiyyətlə inanırıq. Biz strateji əhəmiyyəti getdikcə artan regionumuzda əməkdaşlığımızı daha da gücləndirməyi səbirsizliklə gözləyirik.

Zati-aliləri, Sizə ölkənin daha da inkişafına, müstəqilliyinin və suverenliyinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına sülh, firavanlıq və tərəqqi arzulayırıq.

*Hörmətlə,*

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi və qardaş Azərbaycan xalqını milli bayram - müstəqilliyin 106-cı ildönümü münasibətilə təbrik edirəm.

Azərbaycan Respublikasının ötən onilliklər ərzində qazandığı uğurlar ölkə rəhbərliyinin seçdiyi və ümummilli dəstək alan, respublikanın beynəlxalq arenada nüfuzunun artmasının əsasına çevrilən kursun düzgünlüyünü təsdiq edir.

Xalqlarımızı çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələri, etimad və tərəfdaşlıq ab-havası birləşdirir. Bu gün Rusiya Federasiyasının Dağıstan Respublikası ilə Azərbaycan Respublikası arasında yaranmış əlaqələr qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığın daha da genişlənməsinin mühüm amilidir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Sergey MƏLİKOV***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.



1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsinin imzalanması güclü müstəqil dövlətin inkişafının bünövrəsini qoydu.

Böyük tarixi və zəngin mədəniyyəti olan Azərbaycan bu gün iqtisadi və sosial sahələrdə mühüm uğurlar qazanır, regionda və dünyada xarici siyasət mövqelərini möhkəmləndirir. Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə qüdrətli və inkişaf edən dövlətə çevrilib.

Bu əlamətdar gündə xalqınız yeni Azərbaycanın təşəkkül tapması, ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi üçün çox işlər görmüş Ümummilli Lider Heydər Əlirza oğlu Əliyevin xatirəsini ehtiramla anır.

Sankt-Peterburq iyirmi ildən artıq müddətdə uğurla inkişaf edən Azərbaycan Respublikasındakı tərəfdaşları ilə etimad və qarşılıqlı hörmət əsasında konstruktiv dialoqu yüksək qiymətləndirir.

Əminəm ki, bu yaxınlarda Sankt-Peterburqun Bakıda mədəni-işgüzar missiyası ölkələrimiz və şəhərlərimiz arasında qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində mühüm addım oldu. Əldə olunmuş razılaşmalar Peterburq-Azərbaycan əlaqələrini daha da möhkəmləndirəcək.

Azərbaycana tərəqqi, ölkənin sakinlərinə sülh və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***Aleksandr BEQLOV,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi və Azərbaycan Respublikasının bütün sakinlərini milli bayram - Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan mədəniyyəti və tarixi ilə zəngindir. Ölkə bu gün Sizin rəhbərliyinizlə sosial-iqtisadi inkişaf sahəsində yüksək nəticələr əldə edir. Azərbaycan dünyasəviyyəli mədəniyyət və idman tədbirlərində fəal iştirak edir ki, bu da respublikanın nüfuzunun göstəricisidir.

Şübhəsiz ki, ölkənin əsas sərvəti onun qonaqpərvər, zəhmətkeş və müdrik vətəndaşlarıdır. Onların öz əlləri ilə qurub yaratdıqları dünyanın hər yerindən gələn qonaqları heyran edir.

Azərbaycan ilə Qaraçay-Çərkəz Respublikası arasında səmimi dostluq münasibətləri yaranıb. İnanıram ki, əməkdaşlığımız bundan sonra da respublikalarımızın hərtərəfli inkişafına yönələcəkdir.

Sizə və günəşli Azərbaycanın bütün sakinlərinə möhkəm cansağlığı, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun sakinləri adından və şəxsən öz adımdan Sizə ehtiramımı ifadə edim və Sizin şəxsinizdə Azərbaycan xalqına Müstəqillik Günü münasibətilə təbriklərimi çatdırım.

Müstəqillik Günü azadlığı, xoşbəxt həyatı təcəssüm etdirən bayramdır və ölkənin hər bir vətəndaşı üçün sülhün, rifahın və sabitliyin təminatıdır. Bu gözəl gün həmişə bizim qiymətləndirdiyimiz azadlığın və müstəqilliyin əhəmiyyətini xatırladır. Qoy, bu gün Azərbaycanın tarixində hər zaman sevinc, hörmət və qürurla anılsın!

Sizə və Sizin şəxsinizdə ölkənin bütün sakinlərinə xoşbəxtlik, sülh və tərəqqi arzulayırıq. Qəlbləriniz həmişə doğma torpağa sevgi və işıqlı gələcəyə inamla dolsun! Hər birinizin daim ölkənizin məğrur vətəndaşı olmasını arzu edirik.

Öz növbəmizdə, Sizi əmin edirik ki, Qaqauziya Muxtar Ərazi Qurumunun rəhbərliyi əməkdaşlığımızın hərtərəfli inkişafına xüsusi diqqət yetirir və biz mövcud imkanlardan istifadə edərək dostluq və tərəfdaşlıq münasibətlərinin daha da dərinləşməsinə nail olacağıq.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizə yüksək ehtiramımı ifadə edirəm və Azərbaycan Respublikasının daha da inkişafı naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Yevgeniya QUTSUL,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Sizi və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqını milli bayramınız - Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Bu bayram ölkənin zəngin tarixini, onun sarsılmaz suverenliyini və müstəqilliyini, dünya arenasında nüfuzlu mövqeyini, həmçinin Azərbaycan xalqının birliyini təcəssüm etdirir. Azad olunmuş ərazilərin fəal şəkildə bərpası ölkənin nailiyyətlərinin növbəti örnəyi oldu.

Əminəm ki, Azərbaycan Sizin müdrik rəhbərliyinizlə sürətli inkişaf yolunu uğurla davam etdirəcək. Mehriban qonşular olan ölkələrimiz arasında səmimi münasibətlər isə yeni strateji tərəfdaşlıq əsasında və iqtisadi, təhsil, humanitar, mədəni əməkdaşlıq sahələrində xalqlarımızın rifahı naminə daha da möhkəmlənəcəkdir.

İcazə verin, Sizə, doğmalarınıza və Azərbaycan xalqına sülh, əmin-amanlıq, cansağlığı, xoşbəxtlik və bütün sahələrdə yeni uğurlar naminə tükənməz enerji arzulayım.

*Hörmətlə,*

***Dmitri SAVELYEV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Azərbaycan Respublikasının parlamenti ilə dostluq qrupunun əlaqələndiricisinin müavini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Sizi milli bayramınız - Azərbaycanın Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müdrik siyasi xadim və öz ölkəsinin vətənpərvəri kimi Siz xalqınızın rifah halını durmadan yüksəldir və ölkənizin nüfuzunu bütün dünyada artırırsınız.

Cənab Prezident, Sizə və bütün Azərbaycan xalqına davamlı inkişaf və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

İcazə verin, Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun (BNTİ) direktorluğunun və beynəlxalq kollektivinin adından Sizi Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edim.

Fürsətdən istifadə edərək bildirirəm ki, beynəlxalq hökumətlərarası təşkilatımızın Azərbaycanın tədqiqat mərkəzləri və universitetləri ilə qarşılıqlı fəaliyyətinin zəngin tarixi BNTİ-nin yaradıldığı vaxtdan təxminən 70 il əvvəl başlayıb. Əməkdaşlığın yeni yekun nəticəsi müstəqil Azərbaycan Respublikasının instituta daxil olması ilə əlamətdar olub. Azərbaycanın elmi ictimaiyyəti ilə tarixən formalaşmış əlaqələri möhkəmləndirən institutumuz bu il yaradılmasının birinci onilliyini qeyd edən Milli Nüvə Tədqiqatları Mərkəzi və ADA Universiteti ilə sıx surətdə fəaliyyət göstərir.

Hazırda Azərbaycanın 8 universiteti və elmi-tədqiqat mərkəzi Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun tərəfdaşıdır, onlarla nüvə və relativistik atom fizikası, nəzəri fizika və informasiya texnologiyaları, elementar hissəciklər fizikası və kondensasiya olunmuş maddə fizikası sahələrində birgə işlər aparılır. Yüksəkixtisaslı kadrların hazırlanması üzrə birgə elmi-təhsil proqramları, ABŞ və İsveçrənin elmi təşkilatları çərçivəsində əməkdaşlıq həyata keçirilir.

Əmin olduğumu bildirirəm ki, səmərəli qarşılıqlı fəaliyyətimiz, eləcə də institutun beynəlxalq əməkdaşlıq platforması kimi yüksək potensialı, tətbiqi və fundamental elm sahəsində kadr potensialının gücləndirilməsi bundan sonra da Azərbaycanın elmi ictimaiyyəti üçün əvəzsiz rol oynayacaqdır.

Möhtərəm Prezident, Sizə möhkəm cansağlığı və yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Dərin və səmimi ehtiramla Sizin,*

***Qriqori TRUBNİKOV,***
***Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan sürətlə inkişaf edən ölkədir. Qərb və Şərq sivilizasiyalarının mütərəqqi nailiyyətlərini tətbiq edən Azərbaycan Sizin rəhbərliyiniz sayəsində əsas dəyərləri - mədəniyyəti, mənəviyyatı, milli özünəməxsusluğu qoruyub saxlayır. Ölkədə ailə institutu, yaşlı nəslin xidmətlərinə hörmət, vətənpərvərlik hissi möhkəmlənir.

Hörmətli İlham Heydər oğlu, icazə verin, fürsətdən istifadə edərək "LUKOYL"un Azərbaycanda fəaliyyətinə göstərilən hərtərəfli dəstəyə görə dərin minnətdarlığımı bildirim, həmçinin Sizə və bütün Azərbaycan xalqına xoşbəxt həyat, sülh və tərəqqi arzulayım.

*Hörmətlə,*

***Vahid ƏLƏKBƏROV,***
***Rusiyanın "LUKOYL" Publik Səhmdar Cəmiyyətinin sabiq prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

"Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan milli bayramınız - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, tükənməz enerji, sülh, sabitlik və Azərbaycan xalqının tərəqqisi naminə səmərəli fəaliyyətinizdə uğurlar arzulayıram.

Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti gələcəkdə də Azərbaycanın həyatını və baş verən hadisələri maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaq.

*Səmimiyyətlə və hörmətlə,*

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 106-cı ildönümü münasibətilə Sizi təbrik edirik. 28 May zəngin tarixə, mədəniyyətə malik Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir gündür. Bu əlamətdar bayram münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi arzularımızı çatdırırıq.

İtaliya ilə Azərbaycanı qarşılıqlı hörmətə, əməkdaşlığa və dostluğa əsaslanan güclü tərəfdaşlıq birləşdirir. Biz ölkələrimizin rifahı naminə bütün sahələrdə əlaqələrimizi daha da gücləndirmək əzmindəyik.

Əminik ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bundan sonra da inkişaf edəcək və bütün sahələrdə daha böyük uğurlar qazanacaqdır. Sizə və Azərbaycan xalqına sülh, sabitlik, firavanlıq və xoşbəxtlik diləyirik.

Yaşasın Azərbaycan!

*Hörmətlə,*

***Cuzeppe KANİLİA,***
***İtaliyada fəaliyyət göstərən Napoli-Bakı Assosiasiyasının sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Beynəlxalq Rusiyalı Həmvətənlər Şurasının, Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının, Rusiya Vəkillər Gildiyasının, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin adından və şəxsən öz adımdan Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycan Sizin müdrik rəhbərliyinizlə irimiqyaslı siyasi, iqtisadi islahatlar və dəyişikliklər, əhalinin sosial rifahının yüksəldilməsi yolu ilə inamla irəliləyir, aktual beynəlxalq və regional problemlərin həllində fəal iştirak edir.

Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan ilə Rusiya arasında iqtisadi, mədəni, siyasi əlaqələr gündən-günə genişlənir və möhkəmlənir. 2022-ci ilin fevralında imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" şübhəsiz ki, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətli inkişafına kömək edəcək və bu da dost xalqlarımızın maraqlarına uyğundur.

Bir soydaş kimi, tarixi Vətənimlə fəxr edirəm, onu əziz tuturam və Azərbaycan Respublikasında bütün müsbət dəyişikliklərə səmimi-qəlbdən sevinirəm.

Xüsusi vurğulamaq istəyirəm ki, Siz atanızın - Heydər Əlirza oğlu Əliyevin Azərbaycan Respublikasında əsasını qoyduğu islahat kursunun layiqli davamçısısınız. Sizin fəal vətənpərvərlik və vətəndaşlıq mövqeyiniz, dövlət əhəmiyyətli vəzifələri uğurla yerinə yetirməyiniz Vətənə layiqli xidmət örnəyidir.

Qoy enerji, gümrahlıq və ruh yüksəkliyi daim Sizinlə olsun! Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti vəzifənizdə müvəffəqiyyətlər və Azərbaycan xalqının rifahı naminə yeni-yeni nailiyyətlər arzulayıram.

Sizə, yaxınlarınıza və bütün Azərbaycan xalqına cansağlığı, sülh və əmin-amanlıq diləyirəm.

*Hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Beynəlxalq Rusdilli Vəkillər Assosiasiyasının prezidenti, Rusiya Vəkillər Gildiyasının prezidenti, Rusiya Federal Vəkillər Palatasının vitse-prezidenti, H.B.Mirzəyev adına Rusiya Vəkillik və Notariat Universitetinin rektoru, Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq elmləri doktoru, professor, Rusiyanın fəxri ədliyyə işçisi***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident.

Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə əziz xalqımıza "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük məmnunluq və şərəf duyuram. Dövlət müstəqilliyimizin ən mühüm hüquqi dəyərlərinin bərpası ilə bizə Zəfər sevincini bəxş etdiyinizə, hər bir azərbaycanlıya qürur və şərəf hissləri yaşatdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Fəxr edirik ki, Siz Ulu Öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirdiniz, onilliklər boyunca davam etmiş haqsızlığa, ədalətsizliyə, hüquqsuzluğa son qoymaqla BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin tələblərini icra edərək ikili standartları zərərsizləşdirdiniz. Sizin gördüyünüz işlər bütün türk dünyasında qürur hissi ilə qarşılanır.

Əziz və hörmətli Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayırıq. Xalqın milli birliyinin, regionumuzda sülhün təmin olunması istiqamətində faydalı fəaliyyətinizə görə Sizə təşəkkürümüzü bildirir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, Azərbaycanımıza əmin-amanlıq, tərəqqi, firavanlıq arzulayırıq.

*Dərin hörmət və məhəbbətlə,*

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, professor, Ukraynanın Əməkdar təhsil işçisi, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Rusiyanın Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti yerli ictimai təşkilatı adından Sizi Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Sizin illər boyu apardığınız uğurlu daxili və xarici siyasət öz bəhrələrini verir. Azərbaycan sürətlə inkişaf edərək, yüksək nüfuz və hörmət qazanaraq beynəlxalq arenada layiqli yerini tutub.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə sürətlə irəliləyərək təkcə regional deyil, həm də beynəlxalq arenada inamlı və nüfuzlu mövqelər qazanır, sosial-iqtisadi inkişaf yolu ilə addımlayır.

Sizin daimi diqqətiniz sayəsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası, xüsusən Tatarıstan Respublikası arasında dostluğa, qardaşlığa, qarşılıqlı hörmətə və xalqlarımızın dəstəyinə əsaslanan ikitərəfli əməkdaşlığın üfüqləri genişlənir. Azərbaycanın inkişafı, onun nüfuzunun artırılması və dünya miqyasında mövqelərinin gücləndirilməsi, həmçinin Rusiyadakı Azərbaycan ictimai təşkilatlarının dəstəklənməsi, ölkələrimiz arasında münasibətlərin inkişafı istiqamətində gördüyünüz işlərə görə Sizə minnətdarıq. Fəxr edirik ki, müstəqil Azərbaycan dövləti bu gün beynəlxalq miqyasda öz nüfuzunu artırıb.

Cənab Prezident, Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, hər zaman yüksək əhvali-ruhiyyə və işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

***Ramiz MƏMMƏDOV,***
***Rusiyanın Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyəti yerli ictimai təşkilatının sədri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Antiqua və Barbudada bir sıra görüşlər keçirib









Milli Məclisin Sədri Sahibə Qafarova Antiqua və Barbudaya işgüzar səfəri çərçivəsində bir sıra görüşlər keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Seynt Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalves, Kuba Respublikasının vitse-prezidenti Salvador Antonio Valdes Mesa, Antiqua və Barbudanın Nümayəndələr Palatasının sədri ser Cerald Uott və Senatın sədri Alinsia Vilyams Qrant ilə görüşlərdə Azərbaycanın bu ölkələrlə münasibətlərinə dair fikir mübadiləsi aparılıb.

Tərəflər beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyətini vurğulayıblar.

Söhbətlər zamanı Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə təşkilatın institusional inkişafı, hərəkata üzv ölkələr arasında əlaqələrin və həmrəyliyin gücləndirilməsi, təşkilatın beynəlxalq münasibətlər sistemində rolunun daha da artırılması istiqamətində gördüyü işlər təqdir olunub. Ölkəmizin sədrliyi dövründə inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına xüsusi diqqət yetirilməsindən məmnunluq bildirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə də məlumat verərək, şəbəkənin hərəkata üzv ölkələrin qanunverici orqanları arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün əhəmiyyətli platforma olduğunu diqqətə çatdırıb.

Görüşlər zamanı bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 haqqında da söhbət açılıb və ölkəmizin təşkilatçılığı ilə bu tədbirin yüksək səviyyədə keçiriləcəyinə inam ifadə olunub. Spiker Sahibə Qafarova qeyd edib ki, bu tədbirin ölkəmizdə keçirilməsi beynəlxalq ictimaiyyətin Azərbaycana olan hörmət və etimadını əks etdirir.

O, COP29 çərçivəsində Milli Məclisin Parlamentlərarası İttifaq ilə birlikdə Parlament konfransı keçirəcəyini, bu tədbirin parlamentarilərə geniş fikir mübadiləsi aparmaq və iqlim dəyişikliyi ilə mübarizədə hansı addımları ata biləcəklərini müəyyən etmək imkanı yaradacağını vurğulayıb.

Görüşlərdə COP29 çərçivəsində keçirilən tədbirlərdə inkişaf etməkdə olan kiçik ada dövlətlərinin üzləşdiyi problemlərin həlli ilə bağlı məsələlərin də diqqətdə saxlanılacağı qeyd edilib.

Seynt Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalveslə görüşdə ölkəmizin bu dövlətlə beynəlxalq əməkdaşlığının səviyyəsindən, bu ölkənin BMT Təhlükəsizlik Şurasında Azərbaycana verdiyi dəstəkdən məmnunluq ifadə edilib.

Antiqua və Barbudanın Nümayəndələr Palatasının sədri Cerald Uott Azərbaycanın "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransda iştirakını və Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciətini yüksək qiymətləndirib.

Milli Məclisin Sədri Sahibə Qafarovanın Millətlər Birliyinin Baş katibi Patrisiya Skotlendlə görüşündə isə Azərbaycanın birlik üzvləri ilə münasibətlərinə dair fikir mübadiləsi aparılıb. Millətlər Birliyinə üzv olan ölkələrin əksəriyyətinin Qoşulmama Hərəkatına da üzv olduqları vurğulanaraq, Azərbaycanın sədrliyinin kiçik dövlətlərin səslərinin eşidilməsi üçün yaxşı imkanlar yaratdığı qeyd olunub.

Görüşlərdə parlamentlərarası əməkdaşlıq məsələləri, həmçinin qarşılıqlı maraq doğuran digər mövzular barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin 4-cü Beynəlxalq Konfransı keçirilib





Antiqua və Barbudanın paytaxtı Sent-Cons şəhərində İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü Beynəlxalq Konfransı keçirilib. Beynəlxalq Konfransda dünyanın müxtəlif ölkələrindən hökumət üzvləri olmaqla yüzdən çox qonaq iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, beynəlxalq tədbirdə iştirak edən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub. (Müraciətin mətni qəzetin 28 may tarixli sayında dərc olunub).

Spiker Sahibə Qafarova müraciəti səsləndirdikdən sonra bildirib ki, ölkəmizdə keçiriləcək COP-29-un rəhbər heyəti də bu konfransda iştirak edir və Azərbaycan heyəti bütün tərəflərlə görüşməyə, onları dinləməyə, həmçinin qaldırılacaq məsələlərin COP29 planlarında əks olunmasını təmin etməyə hazırdır.

*"Azərbaycan"*

# Milli Məclisdə vətəndaş qəbulu

Mayın 29-da Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev təsdiq olunmuş qəbul qrafikinə uyğun olaraq, növbəti dəfə Milli Məclisdə qəbul keçirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki şəhid ailələrinin üzvləri, qazilər olmaqla, ümumilikdə müraciət etmiş 36 nəfər vətəndaşla görüşən vitse-spiker qaldırdılmış sosial, təhsil, mənzil şəraitinin yaxşılaşdırılması kimi müraciətlərin bir qismini yerindəcə həll edib.

Bakı şəhəri ilə yanaşı, ayrı-ayrı rayon və şəhərlərdən qəbula gəlmiş vətəndaşların bəzi müraciətləri araşdırılıb, göstərilən məsələlərlə bağlı sorğu məktubları hazırlanıb və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti üzrə göndərilib. Qəbul zamanı qaldırılan məsələlərə dair vətəndaşlara qanunvericiliyin tələbləri barədə ətraflı məlumat və izahat verilib.

Milli Məclisin vitse-spikeri Adil Əliyev bir daha diqqətə çatdırıb ki, dövlət başçısının vətəndaşların müraciətlərinə yüksək həssaslıqla yanaşılması və məsələlərin qısa müddətdə həll olunması barədə verdiyi tapşırıq və tövsiyələrə əsasən, onun ünvanına daxil olan bütün müraciətlər hərtərəfli öyrənilir və orada qeyd olunan məsələlərin həlli istiqamətində qanunvericiliyə uyğun olaraq lazımi addımlar atılır.

*"Azərbaycan"*

# *Fransız Polineziyası:* kiçik ada ölkəsinin Parisin müstəmləkəçilik siyasətinə qarşı müstəqillik mübarizəsi

Fransanın dənizaşırı əraziləri hesab olunan ölkələrdə son illər rəsmi Parisə qarşı etirazlar baş qaldırmaqdadır. Həmin ərazilərdə yerləşən ölkələr artıq Fransa zülmündən xilas olmaq və müstəqil dövlətə çevrilmək üçün qəti mübarizəyə başlayıblar. Fransanın müstəmləkəçilik siyasətindən, hüquqlarının tapdalanmasından artıq cana doyan yerli xalqlar öz ölkələrində müstəqil yaşamaq, öz müqəddəratlarını özləri müəyyənləşdirmək istəyirlər. Müstəmləkəçiliyə məruz qalan və müstəqillik arzusunda olan ölkələrdən biri də Fransadan təqribən 17 min kilometr uzaqda - Sakit okeanın cənubundakı 5 arxipelaqdan ibarət Fransız Polineziyasıdır. Bu ölkə yerli dildə Maohi Nui adlandırılır. Bəs Polineziya nə vaxtdan Fransanın müstəmləkəsinə çevrilib?

AZƏRTAC Polineziyanın tarixinə, bu ölkənin azadlıq mübarizəsinə qısa nəzər salır.

1840-cı illərdə - Fransa-Taiti müharibəsinin başa çatması (1844-1847) əvvəlcə Markiz adalarında, sonradan isə Taitidə Fransanın müstəmləkə quruluşunun tətbiqinin başlanğıcı ilə "əlamətdar" oldu. Taiti kraliçası IV Pomare 1843-cü ildə qurulmuş Fransız protektoratını nəhayət qəbul etmək məcburiyyətində qaldı. Bir müddət sonra - 1880-ci ildə kral V Pomare Taiti Krallığını Fransaya verməyə razı oldu və bu razılaşma həmin il dekabrın 30-da imzalanan qanunla təsdiqləndi. Bu qanun krallığın bütün subyektlərinə Fransa vətəndaşlığı verirdi. Buradan da göründüyü kimi, Polineziyanın (Taiti Krallığı 1881-ci ildən Okeaniyanın fransız əraziləri (EFO), 1957-ci ildən isə Fransız Polineziyası adlanıb) Fransa tərəfindən işğalı məhz həmin illərə təsadüf edir.

Polineziyanın yerli əhalisi səsvermə hüququnu yalnız 1946-cı ildə əldə edib və 1957-ci ildə ilk yerli hökumətini qurub. Buna baxmayaraq, 1977-ci ilədək Polineziya məktəblərində yerli dillər tədris olunmayıb. Polineziya həm də bəzi epidemik xəstəliklərin (çikunqunya böhranı, Denge epidemiyası) yayıldığı ərazi kimi tanınır. Bu azmış kimi, 30 il ərzində - 1966-1996-cı illərdə Fransa tərəfindən burada 200-ə yaxın nüvə sınağı həyata keçirilib. Belə ki, 1966-1974-cü illərdə 46 atmosfer, 1975-1996-cı illərdə isə 147 yeraltı sınaq həyata keçirilib. Bu sınaqlar yerli əhali və ümumiyyətlə bölgədə ətraf mühit üçün ağır fəsadlarla nəticələnib. Belə ki, məhz nüvə sınaqları yerli əhali arasında xərçəng xəstəliyinin geniş yayılmasına səbəb olub. Fransızlar əsasən 120 kilotonluq bombalardan istifadə ediblər. Müqayisə üçün qeyd edək ki, Xirosima və Naqasakiyə atılan bombaların hər biri 15-23 kiloton olub. Bundan əlavə, nüvə sınaqları zamanı bir sıra uğursuzluqlar da baş verib ki, bu da ərazidə daha geniş çirklənməyə və ağır fəsadlara gətirib çıxarıb. Ümumilikdə təqribən 170 min nəfər Fransanın burada həyata keçirdiyi nüvə sınaqlarının qurbanı olub.

Bu gün yerli əhali hələ də şüalanmaya məruz qalan şəxslər üçün kompensasiya tələb etsə də, Fransa hökuməti bu istiqamətdə hər hansı ciddi addım atmayıb. 1998-ci ildə Fransanın Müdafiə Nazirliyi Polineziya əhalisinin nüvə sınaqlarından əziyyət çəkdiyini rəsmən etiraf edib və 2010-cu ildə Paris buna görə təzminat ödəməyə başlayıb. Lakin Fransa dövlətinin müstəmləkəçilik xisləti özünü burada da göstərib. Belə ki, bədxassəli şişlərin müalicəsi üçün təqribən 10 min nəfərə 800 milyon dollar ayrılsa da, bu təzminatdan yararlananların əksəriyyəti əsasən fransızlar olub. Polineziyada yerli əhalinin cəmi 63 nümayəndəsi bu təzminatdan ala bilib. Bunun nəticəsidir ki, adalarda xərçəng xəstəliyindən ölənlərin sayı kifayət qədər çoxdur.

## Fransız Polineziyasının siyasi mənzərəsi

Fransız Polineziyasının Prezidenti parlament üzvlərinin mütləq səs çoxluğu ilə seçilir. Polineziya parlamenti beş il müddətinə seçilən və yenidən seçilmək hüququ olan 57 üzvdən ibarətdir. Fransız Polineziyası 8 bölmədən ibarətdir. Hər bölmənin minimum 3 yerli təmsilçisi var. Hazırda parlamentdə təmsil olunan əsas siyasi qüvvə "Tavini Huiraatira" (müstəqillik tərəfdarları) partiyasıdır. Bu partiya ölkə parlamentində 38 yerə sahibdir. "Tapura Huiraatira" partiyası 16, bitərəflər isə 3 deputatla təmsil olunurlar.

Müstəqillik uğrunda mübarizə aparan "Tavini Huiraatira" partiyasının adı yerli dildən tərcümədə "Yerli xalqa xidmət etmək" mənasını ifadə edir. "Tavini Huiraatira" 1977-ci ildə Oskar Temaru tərəfindən təsis olunub və o, indi də partiyaya sədrlik edir. Bu partiyanın əsas məqsədi Fransız Polineziyasının müstəqilliyinin əldə edilməsidir.



Parlamentdə mütləq üstünlüyə sahib olan bu partiyanın üzvü Moetai Brotherson Fransa Polineziyasının prezidentidir. Assambleyanın sədri Antoni Geros isə partiya sədrinin müavinidir. "Tavini Huiraatira" partiyası tərəfindən müstəqillik istiqamətində növbəti addım kimi Dekolonizasiya İşləri üzrə Komissiya təsis edilib.

Partiyanın missiyası üç prinsipə əsaslanır: hörmət etmək, dəstək vermək və qurmaq. "Tavini Huiraatira" ölkənin tarixinə, coğrafiyasına və mədəniyyətinə böyük önəm verir, xüsusilə də milli kimlik məsələsini daim diqqətdə saxlayır. Daim sülh çağırışları edən partiyanın bütün sosial layihələri hörmətə və ənənəvi dəyərlərə əsaslanır. Onun tərəfindən göstərilən təşəbbüslər vətəndaşlara dəstək göstərməkdən, onlar arasında həmrəyliyi gücləndirməkdən və ədalətli cəmiyyət yaratmaqdan ibarətdir. Partiya davamlı inkişafı dəstəkləmək üçün sosial və iqtisadi strukturları gücləndirmək istiqamətində mütəmadi görüşlər, əsas hədəflərdən biri olan gənclərlə iş, təhsil və innovasiya mövzularında seminarlar təşkil edir.

Ölkədə partiyaya bağlı 8 deputatdan ibarət "Tavini Huiraatira" qrupu da fəaliyyət göstərir. Hazırda qrup Səhiyyə, həmrəylik və məşğulluq komitəsinin üzvüdür. Qrupun əsas fəaliyyət istiqamətləri nüvə silahları, ətraf mühit, nəqliyyat, turizm, səhiyyə, elm, təhsil və bu kimi digər mövzular haqqında araşdırmalar aparmaq, hesabatlar hazırlamaq və xalqı məlumatlandırmaqdır. 2013-cü ildə Polineziyanın yenidən BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınması məhz "Tavini Huiraatira" partiyasının nümayəndələrinin apardığı yorulmaz iş nəticəsində mümkün olub.

Xatırladaq ki, Polineziya 1946-cı ildə BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınsa da, Fransanın təzyiqi nəticəsində 1947-ci ildə oradan çıxarılmışdı. Fransa bu gün də bu istiqamətdə fəaliyyət göstərir. Çünki belə güclü sosial bazaya malik partiyanın bu gün Fransız Polineziyasının həm icraedici, həm də qanunvericilik hakimiyyətində üstünlüyə malik olması Fransa dövlətini ciddi şəkildə narahat edir. Çünki Fransız Polineziyasının Parisin müstəmləkəsi altındakı digər ərazilərdən fərqi ondadır ki, Fransa yerli əhalinin assimilyasiyasına nail ola bilməyib. Məhz bunun nəticəsidir ki, Fransanın Yeni Kaledoniyada etnik icmalar arasında tətbiq etdiyi "parçala və hökm sür" siyasətini burada həyata keçirə bilmir. Buna baxmayaraq, Fransa alternativ yollar taparaq dini icmalara təsir göstərməyə çalışır. Belə ki, Polineziya əhalisi əsasən protestant və katolikdir. Çoxluq təşkil edən protestantların əksəriyyəti müstəqillik tərəfdarıdır, katoliklərin əksəriyyəti isə bunun əleyhinədir. Polineziyanın adalardan ibarət olmasından sui-istifadə edən Fransa hökuməti katoliklərin çoxluq təşkil etdiyi adalarda rəhbər şəxsləri müxtəlif yollarla öz tərəfinə çəkməyə çalışır.

"Tavini Huiraatira" partiyası ölkənin müstəqilliyinin bərpası istiqamətində fəaliyyətini xarici platformalarda da davam etdirir. Partiya ötən il Qoşulmama Hərəkatının Azərbaycanda keçirilmiş nazirlər iclası çərçivəsində kolonializmlə mübarizəyə dair təşkil edilmiş tədbirdə Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılmasında iştirak edən tərəflərdən biridir. Bu partiyanın nümayəndələri Bakı Təşəbbüs Qrupunun müvafiq komitələrində təmsil olunur, Qrupun dünyanın müxtəlif ölkələrində təşkil etdiyi bütün tədbirlərdə fəal iştirak edirlər. Partiya ilə BTQ arasında əməkdaşlıq haqqında memorandum da imzalanıb. Memorandum gələcək əməkdaşlığın hüquqi bazasının yaradılması istiqamətində mühüm addım olmaqla yanaşı, müxtəlif sahələrdə əməkdaşlığın qurulması üçün yol xəritəsi funksiyasını daşıyır.

Qeyd edək ki, "Tavini Huiraatira" partiyasının rəhbər heyəti və nümayəndələrinin mayın 29-dan iyunun 2-dək Bakıya səfərləri çərçivəsində yeni sahələrdə əməkdaşlığın perspektivləri müzakirə ediləcək. Nümayəndə heyəti Milli Məclisdə Fransız Polineziyasına dair elmi konfransa da qatılacaqlar.

## Polineziyanın müstəqilliyinin əsasları BMT qətnamələrində təsbit olunub

BMT Nizamnaməsinin 73-cü maddəsinə əsasən, Fransanın Okeaniyadakı dənizaşırı ərazilərindən olan Fransız Polineziyası 1946-cı ildə BMT-nin "Dekolonizasiya edilməli olan ərazilər" siyahısına daxil edilib. Lakin yerli əhalinin razılığı olmadan 1947-ci ildə Fransız Polineziyası həmin siyahıdan çıxarılıb. Fransız Polineziyasının müstəqillik uğrunda mübarizə aparan qüvvələrinin fəaliyyəti nəticəsində 2013-cü il mayın 17-də Polineziya yenidən BMT-nin "Dekolonizasiya edilməli olan ərazilər" siyahısına salınıb. Lakin Fransa bu qərara hələ də məhəl qoymur, BMT-nin Dördüncü Komitəsinin (Xüsusi siyasi və dekolonizasiya məsələləri) və Dekolonizasiya üzrə xüsusi komitənin - C24-ün iclaslarını sistemli şəkildə boykot edir. Belə ki, bu il mayın 13-15-də Venesuelanın Karakas şəhərində keçirilən C24-ün iclasında Azərbaycanın iştirak edəcəyini öyrənən Fransa bu dəfə tədbirdə səfir səviyyəsində təmsil olunub.

BMT Baş Assambleyası 2013-cü ildən etibarən hər il Fransız Polineziyası ilə bağlı qətnamələr qəbul edir. 2014-cü ildən bəri isə Fransız Polineziyası barəsində BMT-nin Baş Assambleyası, Dördüncü Komitə, C-24, həmçinin İqtisadi və Sosial Şuranın (ECOSOC) hesabatları əsasında illik məruzə sənədi nəşr olunur.

Fransız Polineziyasının müstəmləkəçilikdən azad olunması məsələsi ilə əlaqədar BMT Baş Assambleyasının "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannaməsinin həyata keçirilməsinə dair son on ildə 11 qətnamə qəbul olunub.

BMT Baş Assambleyası təşkilatın Nizamnaməsinin XI fəslinə uyğun olaraq, 1960-cı il 14 dekabr və 2013-cü il 17 may tarixli "Fransız Polineziyasının öz müqəddəratını təyinetmə" adlı qətnamələrində Fransız Polineziyası xalqının öz müqəddəratını təyin etməsini və müstəqillik qazanmasını onun əsas hüququ kimi təsdiqləyib. Sözügedən qətnamələr rəhbər tutularaq, Fransız Polineziyasının "Dekolonizasiya edilməli olan ərazilər" siyahısına uyğunluğu qəbul edilib. Lakin Nizamnamənin 73-cü maddəsinə və "Müstəmləkə ölkələri və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannamənin qəbulundan 63 il keçməsinə baxmayaraq, ərazinin hələ də Fransa hökuməti tərəfindən idarə olunmasına dair narahatlıq ifadə edilir. Beləliklə, BMT-nin Nizamnaməsinə və Baş Assambleyanın "Müstəmləkə ölkələri və xalqlarına müstəqilliyin verilməsi haqqında" Bəyannaməni əks etdirən 1514 (XV) saylı qətnaməsinə uyğun olaraq, Fransız Polineziyası xalqının öz müqəddəratını təyin etmək hüququ var. Bu sənədlər Fransız Polineziyasının azadlıq mübarizəsinin beynəlxalq hüquqi əsaslarını təşkil edir.

Mühüm beynəlxalq sənədlərə və yerli xalqın azadlıq mübarizəsinə baxmayaraq, Fransa BMT Təhlükəsizlik Şurasının daimi üzvlüyü statusundan da istifadə edərək adalardakı kolonial maraqlarını inadkarlıqla davam etdirir. Fransanın Polineziyanı əlində saxlamaq üçün ciddi cəhdlər göstərməsi bu ölkənin müstəmləkəçi tarixindən, müxtəlif xalqların hüquqlarına laqeyd münasibətindən, həmçinin müstəmləkəsi altında olan ölkələrin sərvətləri hesabına varlanmaqda davam etmək niyyətindən qaynaqlanır. Lakin yerli əhalinin qətiyyəti və getdikcə artan dəstək Fransız Polineziyasının müstəqillik mübarizəsində uğur qazanacağına ümidləri artırır.

# Litva Respublikasının Prezidenti zati-aliləri cənab Gitanas Nausedaya

Hörmətli cənab Prezident!

Litva Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan-Litva əlaqələri xoş ənənələrə malikdir. Hazırda bir sıra sahələrdə əməkdaşlığımızın yeni məzmunla zənginləşməsi üçün imkanlar vardır. İnanıram ki, mövcud potensialdan istifadə edərək xalqlarımızın mənafelərinə uyğun olaraq dövlətlərarası əlaqələrimizin inkişafı, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın bundan sonra da davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı yetirir, Litva Respublikasının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 may 2024-cü il*

# Keniya Respublikasının Prezidenti zati-aliləri cənab Uillyam Samoei Rutoya

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikası ilə Keniya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 20-ci ildönümü ilə əlaqədar Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimiyyətlə təbrik edir, ən xoş arzularımı çatdırıram.

İyirmi illik dövr ərzində ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri bir sıra sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün əlverişli imkanlar açmışdır. Eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. 2022-ci ildə Azərbaycanın Nayrobidə səfirliyinin təsis edilməsi ikitərəfli əlaqələrimizin yeni müstəviyə keçməsinin bariz nümunəsidir.

Biz Keniya ilə dövlətlərarası münasibətlərimizi genişləndirmək və əməkdaşlığımızı yeni məzmunla zənginləşdirmək əzmindəyik. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-Keniya əlaqələrinin möhkəmləndirilməsi, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə, xüsusilə də COP29 çərçivəsində əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 may 2024-cü il*

# *İcma:* "Niderland parlamentinin nümayiş etdirdiyi mövqe mahiyyətcə böhtan xarakteri daşıyır"

"Azərbaycanlıların Ermənistandan və vaxtilə işğal edilmiş Azərbaycan torpaqlarından qovulmasına, oradakı Azərbaycan mədəni irsinin kütləvi şəkildə dağıdılmasına göz yummuş Niderland parlamentinin indi nümayiş etdirdiyi mövqe mahiyyətcə böhtan xarakteri daşıyır. Niderland hökumət üzvünün sözügedən qətnamə üzrə müzakirələr zamanı nümayiş etdirdiyi mövqe də təəssüf doğurur".

AZƏRTAC xəbər verir ki, bu fikir Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda yer alıb.

Bildirilib ki, Niderland Parlamentinin Nümayəndələr Palatası mayın 23-də anti-Azərbaycan məzmunda qətnamə qəbul edib. "Xristian İttifaqı" partiyası və "Xristian Demokratik Çağırış" partiyasının təşəbbüsü ilə qəbul edilmiş bədnam qətnamədə Azərbaycanın guya etnik təmizləmə aparması, mədəni irsə zərər vurması kimi əsassız ittihamlar irəli sürülür.

"Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, o cümlədən sərhədlərin delimitasiyası istiqamətində atılan son addımlar müstəvisində regiondan kənar dövlətlərin bu cür ziyanlı müdaxilələri yolverilməzdir", - deyə icmanın bəyanatında vurğulanıb.

Qərbi Azərbaycan İcması Niderland parlamentindən və hökumətindən qərəzli və yersiz addımlarına son verməyi, Ermənistandan qovulmuş azərbaycanlıların qayıdışını və regionda sülhü dəstəkləməyi tələb edib.

# *Papuaşvili:* "Azərbaycanla Gürcüstan regional sülh istiqamətində sıx əməkdaşlıq edirlər"

"Gürcüstanla Azərbaycan arasında əməkdaşlıq sadəcə ikitərəfli deyil. Biz regional sülh və sabitliyin, inkişafın təmin edilməsi istiqamətində də sıx əməkdaşlıq edirik".

AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili Tbilisidə Azərbaycanın Müstəqillik Günü münasibətilə keçirilən rəsmi qəbulda söyləyib.

"Gürcüstanla Azərbaycan regional sülh və sabitliyin, inkişafın, insanlarımızın rifahının təmin edilməsi istiqamətində sıx əməkdaşlıq edir. Yalnız bu yolla biz ölkələrimizin inkişafını uğurla davam etdirə və regionun potensialından tam istifadə edə bilərik. Biz bu yolla Avropa ilə Asiya arasında möhkəm körpü qura və onun faydalarından istifadə edə bilərik" - deyə, Ş.Papuaşvili vurğulayıb.

# *Azərbaycan Prezidenti:* "10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi planlaşdırırıq"

## "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 135-ci kitabı çapdan çıxıb

Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır. Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda potensialı 157 giqavat təşkil edir. Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. Biz ola bilsin ki, 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq.




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 135-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2024-cü il martın 1-də "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına müsahibəsində söyləyib. Müsahibənin tam mətni ilə çoxcildliyin yeni kitabında tanış olmaq mümkündür.

Kitabda toplanmış materiallar 2024-cü ilin mart-aprel aylarını əhatə edir.

Nəşrdə Azərbaycanın dövlət müstəqilliyi dövründə ilk dəfə respublikamızın bütün ərazisində keçirilmiş prezident seçkilərində qazandığı qələbə münasibətilə Prezident İlham Əliyevə göndərilmiş təbrik məktubları verilib.

Çoxcildliyin 135-ci kitabında dövlətimizin başçısının "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclaslarında iştirak edən bir sıra yüksəkvəzifəli şəxslər ilə görüşlərinə dair informasiyalar toplanıb.

Prezident İlham Əliyev mart ayında, həmçinin Azərbaycana dövlət səfəri etmiş Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə görüşüb, Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın birinci iclasında çıxış edib, səfər çərçivəsində sənədlər imzalanıb, iki ölkənin prezidentləri birgə mətbuata bəyanatlarla çıxışlar ediblər. Bütün bunlarla, eləcə də dövlət səfəri çərçivəsində Füzuli rayonuna gedən Qazaxıstan Prezidentinin orada Azərbaycan Prezidenti tərəfindən qarşılanmasına və iki ölkənin liderlərinin Füzuli şəhərində iştirak etdikləri tədbirlərə, habelə birgə Şuşa şəhərinə səfərlərinə dair materiallarla yeni kitabda tanış olmaq mümkündür.

Mart ayının mühüm hadisələrindən biri də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumunun keçirilməsi olub. Yeni nəşrə dövlətimizin başçısının forumda çıxışının mətni və bu tədbirdə iştirak etmək üçün Azərbaycana gəlmiş beynəlxalq təşkilatların rəhbərləri, yüksəkvəzifəli şəxslərlə görüşləri haqqında məlumatlar da daxil edilib.

Oxucu bu kitabda Prezident İlham Əliyevin Azərbaycana səfər etmiş Türkiyə Respublikasının Prezident Administrasiyasının Müdafiə Sənayesi Komitəsinin sədri Haluk Görgün, Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin, Bolqarıstan Respublikası Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkov, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, NATO-nun Baş katibi Yens Stoltenberq, Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso ilə keçirdiyi görüşlərə dair materiallarla da tanış ola bilər. Dövlətimizin başçısının Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində Rusiya Prezidenti ilə, eləcə də iki ölkənin dövlət başçılarının Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşlərinə dair informasiyalar da bu kitabda verilib.

Yeni kitaba dövlətimizin başçısının 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrikinin, Novruz bayramı münasibətilə Xankəndi şəhərində tonqal başından Azərbaycan xalqına müraciətinin və Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrikinin mətnləri də daxil edilib.

Aprel aynın mühüm hadisələrindən biri ADA Universitetində keçirilmiş "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" Forumu olub. Dövlətimizin başçısı forumda iştirak edib və çoxsaylı sualları cavablandırıb. Bu materialların bir qismi 135-ci kitaba daxil edilib, həcm baxımından geniş olan Forumun materiallarının digər hissəsinin isə 136-cı kitaba salınması nəzərdə tutulur.

Bu nəşrdə həmçinin dövlətimizin başçısının aprel ayında Hacıqabul, Qəbələ rayonlarına, Gəncə şəhərinə səfərləri haqqında materiallarla da tanış olmaq mümkündür.

"Azərnəşr" tərəfindən buraxılan 135-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Qarabağ və Şərqi Zəngəzurun bərpası üçün büdcədən ayrılan vəsaitin həcmi artırılır

Respublikamızda ardıcıl şəkildə həyata keçirilən iqtisadi islahatların uğurlu nəticələri yüksələn makroiqtisadi göstəricilərdə özünü göstərməkdədir.

2024-cü ilin ötən dövründə Azərbaycan iqtisadiyyatında baş verən artım bu baxımdan təqdirəlayiqdir. Belə ki, bu ilin yanvar-aprel aylarında ölkədə 38,2 milyard manatlıq, o cümlədən qeyri-neft/qaz sektorunda 24,2 milyard manatlıq ÜDM istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 4,3 faiz artıb. Qeyri-neft sektoru üzrə isə artım 7,7 faizdir.

### Dövlət büdcəsinin yeni xərcləri 3 milyard 796 milyon manat təşkil edəcək

Bütün bunlar, o cümlədən dünya enerji bazarında münbit qiymət konyunkturası, habelə dövlət büdcəsinə gözlənilən əlavə daxilolmalar müəyyən edilmiş prioritet istiqamətlər üzrə zəruri olan bir sıra əlavə tədbir və layihələrin maliyyələşdirilməsinə imkan yaratmaqla 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirir. Dövlət büdcəsinə dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin mayın 27-də keçirilmiş iclasında müzakirə edilib.

Yenilənmiş makroiqtisadi proqnozlara əsasən 2024-cü ilin dövlət və icmal büdcələrinin göstəriciləri təhlil edilib və həmin büdcələrə müvafiq qanunvericiliyə uyğun olaraq dəyişikliklər hazırlanıb. Dəyişikliklərdə 3 milyard 796 milyon manat məbləğində yeni xərclərin həyata keçirilməsi nəzərdə tutulub. Yenidən baxılma ilə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 39 milyard 707 milyon manat məbləğində, dövlət büdcəsinin gəlirləri isə 36 milyard 353 milyon manat həcmində proqnozlaşdırılır.

Qeyd edək ki, ötən ilin sonunda 2024-ci ilin dövlət büdcəsi qəbul ediləndə 2024-cü il üçün gəlirlər 34 milyard 173 milyon manat, xərclər isə 36 milyard 763 milyon manat proqnozlaşdırılmışdır.

### Böyük qayıdış üçün əlavə maliyyə təminatı yaradılır

Dövlət büdcəsinin xərclərinin artırılmasının əsas məqsədlərindən biri Böyük Qayıdış Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün əlavə maliyyə təminatının yaradılmasıdır. Ona görə də yeni xərclərin əsas hissəsinin işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinə yönəldilməsi nəzərdə tutulur.

Xatırladaq ki, 2024-cü ilin dövlət büdcəsindən Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manatın ayrılması nəzərdə tutulub. Dövlət büdcəsinə təklif edilən dəyişikliklərdən sonra isə bu məbləğ 1 milyard 160 milyon manat artırılacaq.

Onu da qeyd edək ki, 2023-cü ildə erməni separatizminə son qoyulması ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası dövlətimiz qarşısında yeni çağırışlar formalaşdırıb. Bu isə büdcədən Qarabağın bərpası üçün əlavə vəsaitin ayrılmasını zəruri edir.

### Müdafiə və təhlükəsizlik xərclərinə əlavə 705,3 milyon manat ayrılacaq

Ölkəmizin ərazi bütövlüyü və suverenliyinin tam bərqərar edilməsindən sonrakı dövrdə də dövlətin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin möhkəmləndirilməsi ordumuzun hərbi sursat və maddi-texniki təchizatının müasirləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi üçün əlavə maliyyə təminatının yaradılmasını zəruri edir. Beləliklə, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da gücləndirilməsi üçün əlavə 705,3 milyon manat ayrılacaq.

Bunlarla yanaşı infrastruktur və digər layihələrin maliyyə təminatı üçün 1 milyard 184 milyon manat, beynəlxalq fəaliyyət üzrə tədbirlərin maliyyələşdirilməsi və digər zəruri xərclər üzrə 499 milyon manat, zəruri əsaslı xərclər, təmir və sair üçün 146 milyon manat yönəldilməsi nəzərdə tutulur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2024-cü ilin iyun ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 6 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 7, 14, 28 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 10, 24 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 21 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 21 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 25 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 27 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 27 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 28 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**



# Qlobal ehtiramın təcəssümü

## Müstəqillik Günü ilə bağlı İlham Əliyevə gələn təbriklər dövlət başçımızın yüksək beynəlxalq nüfuzunun, Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin təsdiqidir

**Azərbaycan xalqı 28 May Müstəqillik Gününü suverenliyimizin tam bərpasının, bayrağımızın Xankəndidə dalğalandırılmasının, Qazax rayonunun dörd kəndinin azadlığına qovuşdurulmasının təsvirəgəlməz qürur və xoşbəxtliyi içərisində bir başqa təmtəraq, bir ayrı coşqu ilə qeyd etdi.**

Ölkəmizi hərtərəfli inkişaf mərhələsinə yüksəldən, onu dünyada söz sahibinə çevirən müdrik lider İlham Əliyevin yürütdüyü siyasət nəticəsində milli maraqlarımız qətiyyətlə təmin edilib. Eyni zamanda dünyaya örnək İlham Əliyev diplomatiyası bölgədə silahların susmasına, sülh danışıqlarının başladılmasına birbaşa rəvac verib.

Müstəqil, suveren, qalib Azərbaycanın qazandığı bütün bu uğurlar, ucaldığı zirvə beynəlxalq müstəvidə də etiraf olunur, müdrik siyasətçi İlham Əliyevin qazandığı uğurlar təqdir olunur.

Bu il 28 May Müstəqillik Günü ərəfəsində dünyanın dörd bir yanından Azərbaycan Prerzidentinə ünvanlanan çoxsaylı təbrik məktubları da İlham Əliyev şəxsiyyətinə olan ehtiramı, Onun qlobal liderlik nüfuzunu, dünyamiqyaslı siyasətçi olduğunu bir daha nümayiş etdirdi.

O da faktdır ki, Vətən müharibəsindəki parlaq qələbədən sonra xarici dövlət və hökumət başçıları, nüfuzlu təşkilat rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər tərəfindən Azərbaycan Prezidentinə ünvanlanan təbrik məktublarının mətni tamamilə dəyişib. İndi həmin təbriklər İlham Əliyevin timsalında həm də müharibədə qələbə çalmış Müzəffər Liderə ünvanlanır. Bu məktubların hamısında İlham Əliyevin şəksiz liderliyi, qətiyyəti ilə Azərbaycanı qüdrətli ölkəyə çevirməsi xüsusi qeyd olunur.

### R.T.ƏRDOĞAN: "Azərbaycanın keçdiyi yol bizi qürurlandırır"

Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu dünyaya nümunədir. Bütün beynəlxalq platformalarda bir-birilərinin maraqlarını müdafiə edən, dar gündə də, xoş gündə də birlikdə olan iki qardaş ölkənin səmimi münasibətlərini hər iki ölkə liderinin Türkiyə və Azərbaycanın əlamətdar günlərində bir-birilərinə ünvanladıqları təbrik məktublarında, telefon zənglərində aydın görmək olur.

Mayın 25-də Müstəqillik Günündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubu da bu baxımdan diqqət çəkir.

"Zati-alinizi və can Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə xalqım adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan indiyə qədər keçdiyi yol bizi qürurlandırır".

Təbrik məktubunu bu fikirlərlə başlayan R. Ərdoğan xüsusi vurğulayıb ki, Türkiyə olaraq kədərdə də, sevincdə də bir olduğumuz qardaş Azərbaycanın 2023-cü ilin sentyabr ayında ərazi bütövlüyünü uğurla bərpa etməsindən sonrakı ilk Müstəqillik Günündə duyduğu haqlı qürur və sevincini ürəkdən bölüşürük.

R.T.Ərdoğan onu da vurğulayıb ki, Azərbaycanın həm regionda, həm də yaxın coğrafiyada nail olduğu irəliləyişlərlə daim fəxr edir və yüksəksəviyyəli strateji əlaqələrimizi "Bir millət, iki dövlət" ruhu ilə daha da gücləndirmək istiqamətindəki birgə iradədən böyük məmnunluq hissi keçirirlər.

### V.PUTİN: "Azərbaycan dünya arenasında layiqli nüfuza malikdir"

Azərbaycan tarixən mədəni, humanitar, iqtisadi əlaqələrin mövcud olduğu Rusiya ilə qarşılıqlı etimada əsaslanan münasibətlər qurub və iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

"Azərbaycan sosial-iqtisadi inkişaf istiqamətində hamı tərəfindən qəbul edilən uğurlar qazanıb, dünya arenasında layiqli nüfuza malikdir və beynəlxalq gündəlikdəki mühüm məsələlərin həllində fəal iştirak edir", - deyə mayın 25-də Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda Rusiya Prezidenti Vladimir Putin də qeyd edib ki, Bakı ilə müttəfiqlik münasibətlərinə böyük əhəmiyyət verirlər.

Rusiya Prezidenti ona da əmin olduğunu bildirib ki, gələcəkdə də bütün sahələrdə məhsuldar ikitərəfli əməkdaşlığı, o cümlədən regional məsələlərdə səylərin əlaqələndirilməsini planlı şəkildə artırmağa birgə davam edəcəyik: "Bu, şübhəsiz ki, dost xalqlarımızın maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər dənizində təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsi məcrasında davam edir".

### S.CİNPİN: "Sizinlə birgə səylər göstərməyə hazıram"

Çin Azərbaycanın qlobal müstəvidə ən yaxın tərəfdaşlarından biridir və ökələrimiz arasında qarşılıqlı əlaqələr daim inkişaf edir. O da təsadüfi deyil ki, Çin Xalq Respublikasının Sədri Si Cinpin Azərbaycanın bütün əlamətdar günlərində ölkəmizə təbriklərini ünvanlayır.

Mayın 25-də Müstəqillik Günü münasibətilə İlham Əliyevə göndərdiyi təbrik məktubunda da Si Cinpin qeyd edib ki, hazırda Çin-Azərbaycan dostluq və əməkdaşlıq münasibətlərində dinamik inkişaf tendensiyası müşahidə olunur. İki ölkə arasında siyasi etimad möhkəmlənir, "Bir kəmər, bir yol"un birgə tikintisi çərçivəsində əməkdaşlıq dərinləşir və beynəlxalq arenada sıx qarşılıqlı fəaliyyət həyata keçirilir: "Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına yüksək diqqət yetirirəm və iki ölkə arasında əməkdaşlığın müxtəlif sahələrdə dərinləşdirilməsi və ikitərəfli əlaqələrin yeni səviyyəyə yüksəldilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram".

### C.BAYDEN: "Çiyin-çiyinə döyüşmüşük və təhlükəsizliklə bağlı çağırışlara sinə gərmişik"

Mayın 25-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Bayden Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda bildirib ki, ABŞ Azərbaycan ilə ikitərəfli münasibətlərinə dəyər verir: "Diplomatik əlaqələrimizin 30 ildən artıq bir dövründə biz enerji təhlükəsizliyi, regional təhlükəsizlik və terrorçuluqla mübarizə də daxil olmaqla birgə maraqlara söykənən tərəfdaşlıq qurmuşuq. Hər iki ölkəmiz Əfqanıstanda çiyin-çiyinə döyüşmüş və birlikdə "Cənub qaz dəhlizi"ni inkişaf etdirməklə regional enerji təhlükəsizliyi ilə bağlı çağırışlara sinə gərmişdir".

C.Bayden onu da vurğulayıb ki, Prezidentliyinizin beşinci müddətinin başladığı bir vaxtda Amerika Birləşmiş Ştatları regional və qlobal məsələlərdə, o cümlədən iqlim dəyişikliyi və "yaşıl enerji"yə keçid sahəsində qarşılıqlı əməkdaşlığı dərinləşdirməyə səy göstərəcəkdir.

ABŞ Prezidentinin təbrik məktubunda oxuyuruq: "Azərbaycanın müstəqilliyinin qeyd edildiyi bu bayramda Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə dəstəyini bir daha təsdiq edir. Biz Azərbaycanın və Ermənistanın davamlı və ləyaqətli sülhün təmin edilməsinə yönəlmiş addımlarını alqışlayır və bu səyləri dəstəkləməyə hazırıq. Ən əsası isə biz Azərbaycan xalqı ilə tərəfdaşlığımızı inkişaf etdirməyi və əlaqələri möhkəmləndirməyi arzulayırıq".

### Kral III ÇARLZ: "Ölkələrimiz sıx əməkdaşlığı davam etdirəcəklər"

Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlz mayın 25-də Prezident İlham Əliyevə göndərdiyi məktubunda Müstəqillik Günü münasibətilə özü və həyat yoldaşının dövlət başçısına və Azərbaycan xalqına səmimi təbriklərini çatdırıb: "Mən xalqlarımız arasındakı əlaqələri yüksək qiymətləndirirəm və ümid edirəm ki, ölkələrimiz gələcək nəsillərimizə fayda verəcək mühüm qlobal məsələlərdə, istər sülh və rifah, istərsə də ətraf mühit və iqlim dəyişikliyi məsələlərində sıx əməkdaşlığı davam etdirəcəklər".

❖ ❖ ❖

Mayın 25-də Belarus Prezidenti Aleksandr Lukaşenko da Prezident İlham Əliyevə Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb: "Ölkəniz əsas bayramını Sizin müstəqil, suveren dövlət quruculuğu kursunuz sayəsində əldə olunmuş yüksək iqtisadi inkişaf nəticələri və beynəlxalq arenada uğurlarla qarşılayır.

Bu yaxınlarda dost Azərbaycana səfərimi səmimiyyətlə xatırlayıram. Səfər zamanı bizim üçün mühüm olan məsələlərin geniş spektrini etimada əsaslanan və konstruktiv məcrada müzakirə etdik.

Geniş məzmunlu danışıqların yekunları strateji tərəfdaşlığın səviyyəsini təsdiqlədi, Minsk ilə Bakı arasında çoxtərəfli qarşılıqlı fəaliyyətin böyük potensialını nümayiş etdirdi".

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin 25 may tarixli təbrik məktubunda isə deyilir: "Respublikanızın suveren inkişafı tarixində əlamətdar olan bu gün azərbaycanlıların xüsusi qürur mənbəyidir, ölkənin birliyini və həmrəyliyini, davamlı inkişaf və tərəqqi yolu ilə inamlı irəliləyişini təcəssüm etdirir.

Azərbaycanın dövlətçilik əsaslarının və beynəlxalq nüfuzunun möhkəmləndirilməsi üzrə böyük nailiyyətlər bu tarixi günü xüsusi rəmzlə tamamlayır".

Mayın 25-də Ukraynanın Prezidenti Volodimir Zelenski Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda vurğulayıb ki, bu gün Azərbaycan inkişaf yolu ilə inamla addımlayır, qlobal arenada mövqelərini möhkəmləndirir və beynəlxalq səviyyədə tanınmış ərazilərini geri qaytarıb: "Fürsətdən istifadə edərək Ukrayna üçün həlledici məqamda göstərilən köməyə görə, cənab Prezident, Sizə və Azərbaycan xalqına minnətdarlığımı bildirirəm".

### S.MATTARELLA: "Bakı ilə Roma arasında səmərəli əməkdaşlıq əlaqələri məni çox məmnun edir"

İtaliya Prezidenti Sercio Mattarella mayın 28-də Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda vurğulayıb ki, Bakı ilə Roma arasında mövcud olan səmərəli əməkdaşlıq əlaqələri onu çox məmnun edir. Bu əlaqələr ikitərəfli səviyyədə inkişaf edərək Rusiya-Ukrayna müharibəsi və Orta Şərqdə gərginliyin artması ilə xarakterizə olunan hazırkı mürəkkəb beynəlxalq vəziyyətdə xüsusi əhəmiyyət kəsb edir: "Əminəm ki, bu möhkəm əsaslarla ölkələrimiz strateji tərəfdaşlığı gücləndirmək, maraq doğuran bir çox sahələrdə onu zənginləşdirən yeni təşəbbüslər irəli sürmək üçün birgə fəaliyyətini davam etdirəcək. Mən bir daha təsdiq edirəm ki, İtaliya Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da möhkəmlənməsinə, o cümlədən regional sabitlik, əlaqələr və beynəlxalq təhlükəsizlik məsələləri üzrə dialoqun intensivləşməsinə qətiyyətlə dəstək verməyə davam edəcək".

❖ ❖ ❖

Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda bildirib: "Sizin ölkənizlə qonşunuz Ermənistan arasında münaqişənin həlli üçün birgə səylər göstərmək istəyi bizim ölkələrimizin hökumət və xalqlarını birləşdirir. Əmin olun ki, bu münaqişənin regionun gələcəyinə artıq kölgə salmaması üçün Almaniya əlindən gələni əsirgəməyəcəkdir".

F.Ştaynmayer onu da qeyd edib ki, builki COP29 iqlim konfransına evsahibliyi edən Azərbaycan öz üzərinə xüsusi məsuliyyət götürmüşdür: "Mən buna görə Sizə və Sizin həmvətənlərinizə təşəkkür etmək və Sizi iddialı iqlim siyasətinə mühüm təkan verməyə təşviq etmək istərdim".

### A.VUÇİÇ: "Azərbaycan dəfələrlə səmimi tərəfdaşımız olduğunu nümayiş etdirib"

Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevi təbrik edən Serbiya Prezidenti Aleksandar Vuçiç xüsusi vurğulayıb ki, ölkəsi Azərbaycanla qarşılıqlı etimada təqdir və hörmətə, eyni zamanda, beynəlxalq hüququn fundamental prinsiplərinə ardıcıl riayət olunmasına sadiqliyə əsaslanan münasibətlərin inkişafına xüsusi önəm verir.

"İstər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə Serbiya Respublikası üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə ölkənizin göstərdiyi kömək və dəstəyə görə dərin minnətdarlığımı bildirirəm. Böyük fəxr hissi ilə qeyd etmək istərdim ki, Azərbaycan Respublikası həyati mənafelərin müdafiəsində dəfələrlə səmimi tərəfdaşımız olduğunu nümayiş etdirib və biz Serbiya Respublikasında bunu unutmayacağıq", - deyə təbrik məktubunda A.Vuçiç bildirib.

O əlavə edib ki, Serbiyanın suverenliyi və ərazi bütövlüyünün qorunmasında Azərbaycanın göstərdiyi prinsipial və qəti dəstək ölkəmizin beynəlxalq hüququn əsas prinsiplərinin qorunmasına sadiqliyinin göstəricisidir.

❖ ❖ ❖

İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda qeyd edib ki, xalqlarımız arasında uzun illərdir davam edən dostluq ildən-ilə dərinləşmiş və mühüm əhəmiyyət kəsb edən strateji tərəfdaşlığa çevrilmişdir: "Bizim tarixi əlaqələrimiz bu gün qarşılıqlı hörmət, etimad və səmimi münasibətlərə əsaslanan tərəfdaşlığa çevrilib və bu, genişlənməkdə, möhkəmlənməkdə davam edir. İqtisadi, siyasi, təhlükəsizlik sahələrində ikitərəfli dialoqumuz və əməkdaşlığımız yeni zirvələrə yüksəlib və əminəm ki, bu əlaqələrimiz gələcəkdə də inkişaf edəcəkdir".

İ.Hersoq vurğulayıb: "Biz xalqlarımız arasında möhkəm dostluq münasibətlərini yüksək qiymətləndiririk. Mən vəzifədə olduğum müddətdə əlaqələrimizi daha da genişləndirməyə sadiqliyimi bildirirəm. İmkanlar genişdir və ikitərəfli əlaqələrimizi möhkəmləndirməyə davam etmək üçün xalqlarımızın xoş niyyəti var".

### Azərbaycan adına qazanılan misilsiz qalibiyyətlər

Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev, Tacikistan Prezidenti Emoməli Rəhmon, Macarıstan Prezidenti Tamaş Şuyok, Bolqarıstan Prezidenti Roman Raev və digər ölkə liderləri də Azərbaycanın Müstəqillik Günü ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırıblar.

Eyni zamanda dövlətimizin başçısına beynəlxalq nüfuzlu təşkilatların rəhbərləri, tanınmış xadimlər də öz təbriklərini bildiriblər.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömürəlıyev, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Hissein Brahim Taha, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik, Avrasiya İqtisadi Komissiyası Kollegiyasının sədri Bakıtcan Saqintayev, Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov da Prezident İlham Əliyevi təbrik ediblər.

Dünyanın hər yanından dövlət və hökumət başçıları, nüfuzlu təşkilatların rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər tərəfindən Azərbaycanın Müstəqillik Günü ilə əlaqədar qalib lider İlham Əliyevə gələn təbrik məktubları saysız-hesabsızdır. Və bu təbriklər hələ də gəlməkdə davam edir...

Dövlət başçısına göndərilən və bəzi nümunələrini gətirdiyimiz bu məktubların hamısının mətnində İlham Əliyevə olan yüksək qlobal ehtiram əks olunub.

Bütün bunlar bir daha qalib lider İlham Əliyevin beynəlxalq arenada sahib olduğu yüksək nüfuzunu, dünyada söz sahibi olmasını, liderlik qabiliyyətini göstərir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# 1918 Azərbaycan Xalq Cümhuriyyəti 2024

Bəşəriyyət yarandığı gündən azadlığa can atır. Onu əldə etmək uğrunda mübarizə, əslində, elə insanlıq tarixinin əsas inkişaf istiqamətini müəyyənləşdirir. Azadlığa cəhd xalqların və millətlərin müqəddəs idealı və ali məqsədidir. İstiqlalın yolu isə çətin və şərəfli olur.



## Əbədi müstəqillik: reallaşan dövlətçilik amalları

1918-ci il mayın 28-də Şərqdə ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Bu, Azərbaycan tarixinə müstəqillik, milli qürur və şərəf günü kimi yazıldı. Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxdı. Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətinin xüsusiyyətlərini üzvi şəkildə birləşdirən yeni dövlət və cəmiyyət nümunəsi oldu. Cümhuriyyət qurucularımız "İstiqlal Bəyannaməsi"ni elan edərək xalqımızın müstəqillik əzmini, azadlıq ruhunu, inkişaf səviyyəsinə görə irəli getmiş dövlətlərlə bir yerdə addımlamağa layiq olduğunu bütün dünyaya göstərdilər. Qısa vaxtda müstəqilliyimiz üçün nəhəng işlər görüldü. Lakin təəssüf ki, bu şərəfli tarix uzun sürmədi. Bolşevik-daşnak quldurları və onların rəhbərlərinin tarixi cinayəti nəticəsində cümhuriyyət hökuməti 23 aydan sonra süqut etdi. Bolşevizmin milli yaddaş üzərində 70 illik hakimiyyəti başlandı.

Düz 70 ildən sonra xalqımız sinəsini sovet tankının atəşlərinə sipər edib şəhidlər və qanlar bahasına itirilmiş müstəqilliyi bərpa etməyə nail oldu. "Bir dəfə yüksələn bayraq, bir daha enməz!", "Müstəqilliyimiz əbədidir" həqiqəti ilə birləşdi.

Bu, xalqımızın istiqlal əzminin nümayişi, tarixi nailiyyətə gətirib çıxaran mütərəqqi inkişaf proseslərinin məntiqi nəticəsi idi. Bu illər ərzində onun ən layiqli qiymətini Ümummilli Lider Heydər Əliyev vermişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhvali-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

### Beynəlxalq hüququn subyekti

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması böyük tarixi hadisə idi. Cəmi 23 ay mövcud olmasına baxmayaraq, cümhuriyyət hökuməti müsəlman Şərqində demokratik ənənələrin formalaşmasında müstəsna dərəcədə böyük rol oynadı. Bu tarixi dəyər, həmçinin xalqımızın müstəqil yaşamaq, dünyanın qabaqcıl ölkələri ilə eyni səviyyədə dövlət quraraq onu addım-addım inkişaf etdirmək potensialını ortaya qoydu. Çox qısa müddətdə Azərbaycanın ilk parlamenti, hökuməti formalaşdırıldı, dövlət atributları təsis olundu, yeni dövrün tələblərinə uyğun qanunvericilik bazası yaradıldı. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkənin siyasi, iqtisadi və mədəni inkişafında, demokratik prinsiplərin bərqərar olmasında əsaslı rol oynadı. Dövlət quruculuğu sahəsində mühüm addımlar atıldı. Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq münasibətlər sistemində tanınması istiqamətində əhəmiyyətli nəticələr əldə olundu. Diplomatik müstəvidə milli maraqların qorunması təmin edildi.

Cümhuriyyət hökuməti xarici siyasətinin başlıca məqsədlərindən biri kimi yeni yaradılmış dövləti beynəlxalq aləmdə tanıtmaq hədəfinə çatdı. Birinci Dünya müharibəsindən sonra bütün dünyada ölkələrin sərhədlərinin yenidən müəyyənləşdiyi zamanda Azərbaycanın müstəqilliyi Paris Sülh Konfransında tanındı, aparıcı dövlətlərlə diplomatik əlaqələr qura bildi, dünya birliyi Azərbaycan Xalq Cümhuriyyətini qəbul etdi. Məhz bunun sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması təsbit edildi. Bu tarixi nailiyyət 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı. Bütün bunlar 23 aylıq tarixin qürur dolu səhifələridir.

### Mükəmməl dövlət quruculuğu təcrübəsi

Cümhuriyyət dövründə vətəndaş institutunun təsis edilməsi, Milli Ordunun yaradılması kimi amillər də ölkəmizdə dövlətçilik ənənələrinin formalaşmasına təkan verən tarixi nailiyyətlər idi. Azərbaycan xalqı ötən əsrin əvvəllərində bütün dünyada mövcud olan dövlətçilik modelləri arasından ən mükəmməl təcrübələri seçmiş, onları öz həyatına gətirməyə başlamışdı.

Azərbaycan Xalq Cümhuriyyəti mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanırdı. Bütün ölkə vətəndaşlarına eyni hüquqlar verilmişdi, irqi, milli, dini, sinfi bərabərsizlik aradan qaldırılmışdı.

Cümhuriyyət amili ictimai fikrin inkişafına da müstəsna təsir göstərmişdi. "İstiqlal Bəyannaməsi"nin elan olunması xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, cəmiyyətdə siyasi mədəniyyəti yüksəltmişdir. 23 aylıq mövcudluğu dövründə verilən qərarlar Azərbaycan Xalq Cümhuriyyətinin, bu dövləti qurub yaradanların ölkənin və xalqın gələcəyinə strateji baxışını, bu gələcəyə yetişməkdən ötrü yerinə yetirilməsini vacib sandıqları vəzifələri əks etdirir.

1918-ci ilin avqustunda "Xalq maarifinin, məktəblərin milliləşdirilməsi haqqında" qərarla tədris müəssisələrində təhsilin ana dilində aparılmasına başlandı. 1919-cu ilin sentyabrında cümhuriyyət parlamenti Bakıda ilk universiteti açmağa qərar verdi. İndiki Bakı Dövlət Universitetinin Nizamnaməsinin qəbul olunması, onun fəaliyyətə başlaması ölkəmizdə milli və peşəkar kadrların hazırlanması işinə çox mühüm töhfələr verdi. Bu dövrdə Bakı Universitetinin açılmasına paralel olaraq digər ali və orta ixtisas təhsili müəssisələrinin, habelə mədəniyyət ocaqlarının fəaliyyətinə də lazımi hazırlıqlar görüldü.

Ədliyyə, məhkəmə-hüquq sisteminin ölkə və cəmiyyət həyatındakı rolunu nəzərə alaraq Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu sahələrə xüsusi diqqət yetirdi. 1918-ci ilin 28 mayında elə "İstiqlal Bəyannaməsi"nin elan olunduğu gün Ədliyyə Nazirliyi təsis edildi, qısa müddətdə ədliyyə orqanları və məhkəmələrin fəaliyyətini tənzimləyən bir sıra qərarlar qəbul olundu. 1918-ci il noyabrın 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsinin, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiqlənməsi buna nümunədir.

Ulu Öndər Heydər Əliyevin də bəyan etdiyi kimi, ən mühümü odur ki, Xalq Cümhuriyyəti Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əsaslarını qurdu, hökumətin təsisatlarını yaratdı.

### Dövlətçilik dəyərləri

Azərbaycan Xalq Cümhuriyyəti çoxəsrlik tariximizin böyük dəyərlərindəndir. Bu dəyərlərin başlıca istiqamət kimi qiymətləndirilməsində Ümummilli Lider Heydər Əliyevin rolu müstəsnadır.

Ulu Öndərin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə uğurla həyata keçirdiyi inkişaf siyasəti xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytarmış, milli mənlik şüurunu yüksəltmiş, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsinə və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratmışdır. Cümhuriyyətin üçrəngli bayrağının ilk dəfə olaraq Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırılması da Azərbaycan Xalq Cümhuriyyəti ideyalarına sadiqliyin, müstəqilliyə gedən yolu bütün şəraitlərdə uğurla davam etdirərək yeni mərhələlərə çatdırmaq əzminin təzahürü idi.

Bu yola sadiqliyin daha bir nümunəsi Ümummilli Liderin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyamızda müstəqil respublikamızın Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi elan edilməsidir. Azərbaycanın inkişafının, dövlət müstəqilliyimizin əbədiliyinin təmin olunmasıdır. Zamanın gərdişindən cəmi 23 ay ömür sürə bilmiş cümhuriyyətimizin, onu yeni nəsillərə ərməğan kimi qurub-yaratmış ziyalılarımızın Azərbaycanla bağlı yarımçıq qalmış arzularının yerinə yetirilməsidir. Bu layiqli qiymət, yüksək dəyər həyata keçirdiyi məqsədyönlü siyasət sayəsində dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxarmış Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə olunan yeni möhtəşəm uğurlarımızda öz ifadəsini tapır.

"Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur" deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün ölkəmizin əldə etdiyi nailiyyətlər həm də əsrlər boyu milli dövlətçiliyimizin qurulması və möhkəmləndirilməsi üçün mübarizə aparmış və çalışmış, burada fədakarlıq göstərən şəxsiyyətlərimizin ruhuna olan boyük hörməti və ehtiramıdır. Onların mənəvi irsinin davam etdirilməsidir.

### Misilsiz töhfə

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu islahatlar, müstəqil dövlətimizin nailiyyətləri, öz xalqının ruhuna uyğun olan siyasəti Azərbaycanın əbədi və əzəli milli maraqlarına istinad edir. Cümhuriyyətin yadigarı kimi Azərbaycan bayrağı bu gün artıq ölkəmizin bütün ərazilərində dalğalanır. Ölkəmizin ərazi bütövlüyü, dövlət suverenliyi tam təmin olunub. Müzəffər Ali Baş Komandanın ordumuzun gücü, daxili və xarici siyasətimizin uğurları sayəsində əldə etdiyi qələbə nəticəsində Azərbaycanın liderliyi ilə regionda yeni tarixi reallıqlar yaranıb. Bu, Prezident İlham Əliyevin indiki və gələcək nəsillərə misilsiz dövlətçilik töhfəsidir. Belə bir nailiyyəti qoruyaraq yeni uğurlarla möhkəmləndirmək, böyütmək gələcək nəsillərin ən böyük missiyası olmalıdır.

"Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq!" - deyən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə tarixi addımlar atılır. Ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi, siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, Azərbaycan iqtisadiyyatı dönmədən inkişaf etdirilir, əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ardıcıl tədbirlər görülür.

Azərbaycan dövləti, cəmiyyəti cümhuriyyət dəyərlərinə böyük ehtiram, sayğı göstərir. Paytaxt Bakının mərkəzində ucalan "İstiqlal Bəyannaməsi" abidəsi xalqımızın dövlətçilik ənənələrinə sadiqliyinin rəmzidir. 2007-ci ilin 25 mayında dövlət başçısının təşəbbüsü ilə ucaldılmış bu abidənin rəsmi açılış mərasimində Prezident İlham Əliyev də iştirak etmişdir. Dövlət rəhbərimizin Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi, həmçinin Cümhuriyyətin 100 illik yubileyinin keçirilməsi haqqında sərəncamları da milli yaddaşın formalaşması prosesində mühüm əhəmiyyət kəsb edir. Həmçinin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi cümhuriyyət dəyərlərinə nə qədər böyük önəm verildiyini, bu dəyərlərin hər zaman uca tutulduğunu göstərir. 2018-ci il 1 may tarixli müvafiq qanunla "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı" da təsis olunmuş, həmçinin 2021-ci ilin 15 oktyabr tarixində "Müstəqillik günü haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bu qanunla 28 May Müstəqillik Günü, oktyabrın 18-i isə Müstəqilliyin Bərpası Günü elan edilmişdir. Bu hüququ müəyyənləşmə Azərbaycanın dövlət suverenliyinin məhz 1918-ci ildə bərqərar olunması faktına əsaslanır və ərazi bütövlüyünü bərpa etmiş müasir Azərbaycanın 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi olduğunu göstərir.

Azərbaycan Xalq Cümhuriyyəti tariximizin, bu günümüzün və gələcəyimizin əbədi bir dəyəridir. Nə qədər ki Azərbaycan xalqı və dövləti var, bu dəyər də var olacaq və bizi milli hədəflərimizə doğru aparacaq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## 28 May istiqlalı və Türkiyə-Azərbaycan qardaşlığı

Paris Sülh Konfransı Ali Şurasının Azərbaycan Xalq Cümhuriyyətinin tanınması haqqında 1920-ci il 11 yanvar tarixli qərarı, milli Azərbaycan dövlətçiliyinin beynəlxalq aləmdə hüquqi və siyasi cəhətdən təsdiqi idi. Bu tarixi hadisə təkcə Azərbaycanda deyil, Anadoluda da böyük şadyanalıqla qarşılanmışdır. Bu qərar ölkənin hər yerində böyük bir sevinclə qarşılanmış, o günün qəzetləri tərəfindan coşqu dolu ifadələrlə ictimaiyyətə çatdırılmışdır.

Bu hadisəni Mustafa Kamal Paşanın ən yaxın silahdaşlarından biri olan Yunus Nadi "Yeni Gün" qəzetində öz köşə yazısını "Azərbaycanın istiqlalı sülh konfransı tərəfindən təsdiq edilmişdir. Türklük aləmi yeni, müstəqil bir siyasi üzv qazanmışdır" başlığıyla vermiş, Azərbaycanın istiqlalını "fövqəladə önəmli bir hadisə" olaraq dəyərləndirmişdir.

Azərbaycan Cümhuriyyəti qurulduqdan sonra dövlətin başlıca vəzifəsi ölkənin ərazi bütövlüyünü təmin etmək idi. Nuru Paşanın rəhbərliyi ilə Bakı bolşevik-daşnak qüvvələrindən azad edilsə də, hələ də Naxçıvan, Zəngəzur, Qarabağ, Dərələyəz bölgələrinə erməni təcavüzü davam etməkdə idi. Bu təcavüzün qarşısının alınmasında, ermənilər tərəfindən bölgə əhalisinin qırğınlarının miqyasının azalmasında müstəsna xidmətləri olan şəxsiyyətlərdən biri də Atatürkün ən yaxın silahdaşı, Türkiyənin istiqlal savaşına böyük töhfələr vermiş, Nuh yurdu Naxçıvanı erməni hücumlarından qoruyaraq bu bölgənin xilaskarı kimi tanınan Kazım Qarabəkir Paşadır.

Qazi Mustafa Paşa Atatürkün "Naxçıvan türk qapısıdır. Bu xüsusu diqqətə alaraq onun mövcudiyyətini qorumaq üçün əlinizdən gələni edin!" tapşırığının ardınca Kazım Qarabəkir Paşa ordusu ilə Naxçıvana yardıma gəlir. Naxçıvanlı müəllim, o günlərin canlı şahidi Lətif Hüseynzadə xatirələrində yazırdı ki, "üçgünlük vuruşmadan sonra şanlı türk ordusu Naxçıvana daxil oldu. Kazım Qarabəkir Paşanı yerli əhali böyük ruh yüksəkliyi ilə qarşıladı. Şəhərdə bayram tədbirləri başladı. Türk bayrağının qaldırılması münasibəti ilə təşkil olunmuş izdihamda çıxış edənlərin hər biri xilaskar türk ordusuna sonsuz sevgilərini çatdırırdılar".

Kazım Qarabəkir Paşa Naxçıvanda oldugu zaman görkəmli Azərbaycan şairi Hüseyn Cavidlə birgə bölgənin maarif və mədəniyyətinin inkişafına böyük səy göstərir. Naxçıvan teatrının inkişafında yaxından iştirak edir. Namiq Kamalın "Vətən və ya silistrə" tamaşasına rejissorluq edərək hətta səhnə tərtibatını da özü verir. O, Naxçıvanda olarkən burada türk klassik yazarları - Namiq Kamalın, Tofiq Fikrətin, Xalidə Ədibin, Əbdülhəq Hamidin, Yəhya Kamalın və digər türk klassiklərinin əsərlərini toplayaraq böyük bir kitabxana yaradır.

Mudros sazişinə əsasən, Kazım Qarabəkir Paşanın 1-ci Qafqaz Kolordusu ləgv edilir, qəhrəman Paşa Naxçıvan torpağını tərk etməli olur. Naxçıvandan gedərkən o, "Harda oluramsa olum, Naxçıvanı köməksiz, arxasız qoymuyacagam. Var qüvvəmlə onu müdafiə edəcək, daşnaklara verməyəcəyəm", - demişdi.

Erməni daşnak qüvvələri 1919-cu ilin aprelində yenidən Naxçıvanın Şərur bölgəsini işğal edirlər. Bu zaman Kazım Qarabəkir Paşa yenə də Naxçıvanı tək qoymur. Ağrıdağ tərəfdən yardım üçün Naxçıvana 2 min nəfərlik əsgər göndərir. Elə ilk günlərdən xeyli itki verən ermənilər geri çəkilməyə məcbur olurlar.

1918-ci il oktyabrın 30-da Antanta dövlətləri ilə imzalanmış Mudros sazişi Anadolu dövlətçiliyinə böyük zərbə vurdu. Təkcə Osmanlı imperiyasının uzaq hüdudları deyil, qədim türklüyün beşiyi Anadolu bölgəsi də böyük ölçüdə xarici hərbi-siyasi təhlükə ilə ciddi şəkildə üz-üzə qaldı. Belə bir mürəkkəb şəraitdə dahi Mustafa Kamal Atatürkün rəhbərliyi ilə Anadoluda xarici qüvvələrə qarşı Milli Mücadilə Hərəkatı başladı (1919-1922-ci illər). Bu dövrdə Anadolu türkləri xarici işğalçılara qarşı Milli Mücadilə savaşı apararkən, Azərbaycan türkləri də öz qanları və canları bahasına türk-müsəlman dünyasının yeganə respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin suverenliyini və ərazi bütövlüyünü qorumaq uğrunda mübarizə aparırdılar. İki doğma qardaşın taleyi eyni olduğu kimi, düşmənləri də eyni idi. Məhz buna görə idi ki, dövrün real siyasi gerçəkliklərinə nəzərən Qazi Mustafa Kamal Paşa söyləyirdi ki, "Türkün türkdən başqa dostu yoxdur". Həqiqətən də həmin dövrdə Avrasiya dünyasında baş verən siyasi proseslərə diqqət yetirsək, türk liderin nə qədər haqlı olduğunun birmənalı şəkildə şahidi oluruq.

Anadoluda Milli Mücadilə Hərəkatı zamanı özünün mürəkkəb siyasi və sosial-iqtisadi dövrünü yaşamasına baxmayaraq, Azərbaycan Cümhuriyyəti hökuməti Anadolu qardaşlarını tək qoymadı. Bacardığı qədər maddi və mənəvi yardımını əsirgəmədi.

*(Əvvəli qəzetin 28 may nömrəsində)*

Azərbaycan Xalq Cumhuriyyəti hökuməti siyasi və iqtisadi baxımdan çətin durumda olmasına baxmayaraq, Anadoluda başlayan Milli Mücadilə hərəkatına imkan daxilində yardım göstərmişdir. Həmin dövrdə Azərbaycan Cümhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyli tərəfindən 1, 5 milyon fransız frankı miqdarında pul yardımı göstərmək, Anadoluya neft məhsulları çatdırmaq üçün çek qəbzləri imzalanmış və Milli Mübarizə rəhbərlərinə çatdırılmışdır.

Azərbaycan Milli Mərkəzinin rəhbəri və Məhəmməd Əmin Rəsulzadənin şəxsi həkimi Məhəmməd bəy Kəngərli öz xatirələrində qeyd edirdi ki, "1, 5 milyon franklık köməkdən əlavə, daha yüksək miqdarda başqa bir pul yardımı da Nağı Keykurun (Şeyxzamanlı) tərəfindən Türkiyəyə gətirilərək hökumətə təqdim edilmişdir. Mən Şeyxzamanlı ilə görüşlərin birində yardımın miqdarını soruşsam da, ancaq o "Doktor, bu qardaş yardımıdır, bu yardımı edən mən yardım etdim deməz"-, deyərək söhbətdən yayınmışdı".

1920-ci il aprelin 27-də bolşevik Rusiyasının hərbi qüvvələri qeyri-qanuni olaraq Azərbaycana hərbi müdaxilə edərək cümhuriyyət hökumətini devirdi və Azərbaycanı işğal etdi. Azərbaycanın siyasi təsisatları dağıdılaraq bolşevik Rusiyasının nəzarətinə keçdi. 28 aprel işğalından az sonra Azərbaycanda rus işğalına qarşı milli mücadilə hərəkatı başladı. Qarabağda, Gəncədə, Zaqatalada, Qubada, Lənkəranda, Şəmkirdə, Muğanda və digər bölgələrdə baş verən bu hərəkat Azərbaycanın istiqlalının bərpasına yönəlmiş azadlıq hərəkatı idi.

Qırmızı imperiyaya qarşı başlanan ilk azadlıq hərəkatı Bakının fatehi Nuru Paşanın rəhbərliyi ilə Qarabağ bölgəsində baş verdi. Üsyançılar Qarabağda sovet işğalına son qoyub Qarabağ İnqilab Komitəsinin üzvlərini həbs etdilər. Nuru paşa Qarabağın hakimi elan edildi. Onun ətrafında Azərbaycan ordusunun zabitlərindən Zeynalov, Səfiyev, sabiq pristav Kərimbəy Qalabəyov və başqaları var idi. İyunun 6-da Nuru Paşanın sərəncamı ilə Şuşa İnqilab Komitəsinin sədri B.Vəliyev, Türkiyə kommunisti Süleyman Nuru, qırmızı molla ləqəbli C.Hüseynov güllələndilər. Ancaq bolşeviklərdən əlavə kömək almış yerli bolşevik hakimiyyəti hərbi birləşmələri ermənilərin yaxından iştirakı ilə azadlıq uğrunda mübarizəyə qalxmış əliyalın əhalini qırmağa başladı. Bərdədə və Ağdamda xalqa divan tutan istilaçı ordu iyunun 15-də qüvvələr nisbətinin üstünlüyündən istifadə edərək Şuşanı ələ keçirdi. Milli Ordunun hissələri və Nuru paşa Qaryagin və Cəbrayıl istiqamətində geri çəkilib ölkəni tərk edərək Cənubi Azərbaycanda Şeyx Məhəmməd Xiyabaninin nəzarəti altında olan Cənubi Azərbaycana keçdilər. Onlar buradan Türkiyəyə keçib Mustafa Kamal Paşanın ordularına qoşuldular.

Azərbaycan Cümhuriyyətinin süqutundan sonra 1920-ci ildə Türkiyəyə keçərək, İstiqlal Hərbinə qoşulan, qazi və şəhid olan azərbaycanlılar da az deyil. Azərbaycan sovetləşdiriləndən sonra Qarabağda olan Azərbaycan Milli Ordu hissələrinin bir qismi Zəngəzurda ermənilərlə savaşaraq, Naxçıvana keçmiş, polkovnik Nuh bəyin və polkovnik Səməd Rəfibəylinin (Sayqın) rəhbərlik etdiyi 1200 nəfərlik bir hərbi birlik isə Cənubi Azərbaycan vasitəsilə Türkiyə ərazilərinə daxil olmuşdu. 12-ci diviziyanın tərkibində Qarsı azadetmə əməliyyatında iştirak edən Azərbaycan birlikləri Milli Mücadilə dönəmində Şərq və Qərb cəbhələrində sonadək türk ordusu ilə çiyin-çiyinə vuruşublar. Süvari generalı Səməd Sayqın (Rəfibəyov) Cənubi Azərbaycan vasitəsilə Türkiyəyə keçən Azərbaycan birliklərinə komandanlıq etmiş, Mustafa Kamal Paşa ilə şəxsən görüşmüşdü. Mustafa Kamal Paşa 28 yaşlı Səməd bəyə minbaşı rütbəsi ilə türk ordusunda xidmət keçməyi təklif etmiş, Səməd bəy də bunu qəbul etmişdir. 1948-ci ildə general rütbəsi alan Səməd bəy Türkiyə ordusunda generallığa yüksəlmiş ilk xarici vətəndaş olaraq da tarixə düşmüşdü.

Azərbaycan Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal olunduqdan sonra cümhuriyyət xadimlərinin və ziyalılarının bir hissəsi rus-erməni terroru nəticəsində qətlə yetirildi, böyük bir qismi isə Avropaya, xüsusilə də Türkiyəyə mühacirət etmək məcburiyyətində qaldı. Türkiyədə mühacirət həyatı yaşayan siyasi xadimlər və görkəmli ziyalılar türk aydınları ilə əl-ələ verərək Azərbaycanın müstəqilliyinin bərpa olunmasına çalışmış, bütün ömürlərini bu ali məqsəd uğrunda mübarizəyə həsr etmişlər.

*Mübariz AĞALARLI,*
*tarix üzrə fəlsəfə doktoru,*
*dosent*

# Müstəqillik Gününün Xocalı qüruru



***Tarix 10 fevral, 2011-ci il.***

Prezident İlham Əliyev Goranboyda məcburi köçkünlər üçün salınmış yaşayış məhəlləsinin açılışında iştirak edir. Xocalı rayonundan məcburi köçkün, şəhid ailəsi Sədaqət Ağayarovanın evində olan dövlət başçısı səmimi söhbət əsnasında deyir: "Mən həmişə demişəm ki, bunlar müvəqqəti məskunlaşma yerləridir. Bizim torpaqlarımız azad olunandan sonra biz həmin torpaqlarda bundan da gözəl binalar tikəcəyik. Bütün şəhərləri bərpa edəcəyik və öz vətəndaşlarımızı doğma torpaqlara qaytaracağıq. O gün gələcək, mən buna inanıram, şübhə etmirəm. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir... Mən şübhə etmirəm və əminəm ki, siz də Xocalıya qayıdacaqsınız".

***Tarix 28 may, 2024-cü il.***

Prezident İlham Əliyev 32 illik həsrətdən sonra Xocalı şəhərinə köçən sakinlərlə görüşdə deyir: "Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm, - Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, - deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi".

Cəmi 13 ildən sonra...

İlham Əliyevin Goranboyda əminliklə söylədiyi həmin fikirlər təsdiqini tapdı.

32 il yurd həsrəti ilə alışıb yanan Xocalı sakinlərinin də arzuları, xəyalları gerçəkliyə çevrildi.

Mayın 28-də, Müstəqillik Günündə Xocalıya qayıdış reallaşdı.

Bu ikiqat sevinc hissləri təkcə xocalılıları deyil, hər bir azərbaycanlının ürəyini dağa döndərdi, hər kəsi qürurlandırdı.

Sözü imzası qədər keçərli olan, nəyi nə zaman edəcəyini çox yaxşı bilən Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın nələrə qadir dövlət olduğunu dünyaya nümayiş etdirdi.

Qarabağ və Şərqi Zəngəzuru yenidən quran Prezidentin bayram günündə növbəti töhfəsi Xocalı sakinləri ilə görüş oldu.

İki il əvvəl - 2022-ci ilin Müstəqillik Günündə Ağalıda, 2023-cü il mayın 28-də Laçında yerli sakinlərlə görüşən İlham Əliyevin bu il həmin gündə Xocalıda olmasının rəmzi mənası vardı.

Artıq Azərbaycan ictimaiyyəti illərdir bir reallığa şahidlik edir ki, bu ölkəni tarixinin ən qüdrətli dövlətinə çevirən qurucu, xilaskar lider əlamətdar günləri yalnız xalqın arasında keçirir, mühüm xəbərlərlə müjdələyir və görüləcək işlər barədə geniş məlumat verir. Prezidentin söylədikləri isə qısa zamanda reallığa çevrilir.

Azərbaycan Ordusunun keçirdiyi anti-terror əməliyyatlarından sonra azadlığına qovuşan Xocalıda cəmi 8 aydır tikinti-quruculuq işləri başlanıb. Bu qısa zamanda yaradılan şərait hər kəsdə heyrət doğurur. Azərbaycan dövləti ümumən Qarabağ və Şərqi Zəngəzurda misilsiz işlər görür.

Prezident cəmi 3 ay öncə - fevralın 26-da hər birimiz üçün faciəli gündə Xocalıda Memorial Kompleksin təməlini qoymuşdu. Mayın 28-də isə artıq xocalılılar yurda qayıdır və şəhər də göz oxşayır.

Prezident Xocalıda yurda qayıdışın, Müstəqillik Gününün sevincini sakinlərlə paylaşdı və səmimi söhbət etdi. Dövlət başçısı hər dəfə olduğu kimi burada da müjdəli xəbər verdi - Xankəndiyə və Ağdama köçün başlanacağı tarixi açıqladı.

Bəlli oldu ki, Xankəndiyə ilk köçən müəllim və tələbələr olacaq: "Birinci köçən tələbələr və onların müəllimləri olacaqlar. Qarabağ Universiteti fəaliyyətə başlayır. Ona görə bir tərəf olacaq Xankəndi, bir tərəf Ağdam. Ağdam şəhərinə də gələn il insanlar qayıdacaqlar". Yəni dövlət artıq indidən Qarabağ Universitetində çalışacaq müəllimlərin, təhsil alacaq tələbələrin yüksəksəviyyəli yaşayış təminatını yaradır.

Bütün bunlar göstərir ki, İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru dünyanın ən gözəl məkanlarından birinə çevirmək üçün nə lazımdırsa edir. İlham Əliyev elə bir iqtisadi rayonlar qurur ki, özünün də dediyi kimi, bu yerlər ilk növbədə düşmənə qarşı çox möhkəm istehkam zonası olacaq.

Ali Baş Komandan hər zaman olduğu kimi, bu dəfə də məğlub Ermənistana çıxış yolu göstərdi, bu ölkədəki revanşistlərə sərt xəbərdarlıq etdi. Bundan sonra Ermənistanın heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcəyinə əminliyini vurğulayan Prezident dedi ki, Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Bu ölkədəki son proseslər izlənilir və görünür ki, Azərbaycana qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri mövcuddur. Ona görə də hər an hazır olmalı, ilk növbədə, ordu qruculuğu daha da gücləndirilməlidir. Dünya şahiddir ki, bu gün Azərbaycan Ordusunun yerinə yetirə bilmədiyi döyüş tapşırığı yoxdur. Ancaq Ordunun həm hərbi arsenalı, maddi-texniki bazası gündən-günə gücləndirilir, həm də şəxsi heyətin döyüş ruhu daha da artırılır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Xocalıya qayıdış uğurlarımızın zirvə nöqtəsidir

"Prezident İlham Əliyev əlamətdar günləri həmişə xalqın arasında keçirir. Vətən müharibəsindən sonra isə belə günlərdə işğaldan azad edilmiş ərazilərimizə səfər edir. Dövlət başçısının 28 May - Müstəqillik Günündə Xocalıya səfəri xalqımıza əsl bayram təbriki oldu. Bu əlamətdar gündə Xocalıya Böyük qayıdışın başlaması hər birimizə sevinc bəxş etdi".



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Tural Gəncəliyev deyib. Deputat qeyd edib ki, Xocalı bizim qan yaddaşımızda xüsusi yeri olan bir şəhər olduğuna görə oraya qayıdış həqiqətən çox möhtəşəm və təkrarolunmaz hadisədir: "Azərbaycanlıların ən böyük soyqırımı erməni silahlı qüvvələri tərəfindən məhz Xocalı şəhərində törədilib. Ona görə də Xocalı bizim üçün xüsusi sentimental dəyərə malikdir. Bu gün biz Xocalıya geri dönməklə haqq-ədaləti bərpa etdik. Xocalılıların əbədi olaraq öz doğma torpaqlarına geri dönmələri düşmənə göz dağı oldu. Xocalıda şəhid edilmiş 613 nəfər azərbaycanlının qanı yerdə qalmadı. Şükürlər olsun ki, biz öz doğma yerlərimizə başımız dik, alnımız açıq geri dönə bildik".

Deputat söyləyib ki, Xocalı şəhərinin qısa vaxtda bərpa edilməsini görmək qürurvericidir. Bu bir daha onu göstərir ki, düşmənlərimiz Qarabağa, Xocalıya artıq heç vaxt xor baxa bilməyəcəklər: "Soydaşlarımız tarixi ədalətin bərpa edildiyi, şəhidlərimizin qanının yerdə qalmadığı və Azərbaycanın yeni bir müstəvidə dünyaya öz maraqlarını diktə etdiyi bir dövrdə Xocalıya geri qayıdır. Bu, həm də Ali Baş Komandan, Prezident İlham Əliyevin xalqımıza yaşatdığı uğurların zirvə nöqtəsidir. 32 il əvvəl 613 nəfərin şəhid olması, onların qohum-əqrəbalarının yaşadığı travmalar, psixoloji gərginliklər, min-bir məşəqqətlər sevinc, qələbə və müvəffəqiyyətlə əvəz edildi".

Tural Gəncəliyev vurğulayıb ki, Prezident hər zaman olduğu kimi, yenə vədinə əməl etdi. Əvvəlki çıxışlarında bəyan etdiyi "Gün gələcək Xocalıda görüşəcəyik" vədini reallaşdırdı. Dövlət başçısı həmçinin Xocalıda törədilmiş vəhşiliklərlə bağlı Ermənistanın üzr istəməli olduğunu xüsusi qeyd etdi. Müsahibimiz deyib ki, bu gün sürətlə bərpa edilən Qarabağ və Şərqi Zəngəzur öz doğma sakinlərinə qovuşmağın sevincini yaşayır. Gün gələcək keçmiş məcburi köçkünlər digər yaşayış məntəqlərimizə, eləcə də Xankəndiyə qayıdacaqlar. Nəhayət, işğaldan azad edilmiş torpaqlarımızda firavan həyat hökm sürəcək.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Prioritet istiqamətlər bəllidir

## İşğaldan azad olunmuş ərazilərimizin bərpasına nəzərdə tutulduğundan daha çox vəsait ayrılacaq

"2024-cü ilin dövlət büdcəsinə edilən dəyişikliklərdə prioritet istiqamətlərə daha çox vəsaitin ayrılması nəzərdə tutulur. Belə ki, işğaldan azad olunmuş ərazilərimizin bərpası və yenidən qurulması əsas olduğuna görə, bu istiqamətdə dövlət büdcəsindən nəzərdə tutulduğundan daha çox vəsait ayrılacaq".



Bu sözləri qəzetimizə Milli Məclisin deputatı Vüqar Bayramov dövlət büdcəsinə dəyişikliklə bağlı fikir bildirərkən deyib. Onun sözlərinə görə, iqtisadi fəaliyyət üzrə mövcud büdcə layihəsində 7 milyard 788 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdu, amma dəyişikliklərdən sonra bu məbləğ 9 milyard 902 milyon manata qədər artırılacaq. Əlavə olaraq 2 milyard 114 milyon manat vəsait və ya 27 faiz çox bu istiqamətdə dövlət büdcəsindən xərcləmələr həyata keçiriləcək. Bunlar birbaşa və daha çox işğaldan azad edilmiş ərazilərin yenidən qurulmasına yönəldilməsi nəzərdə tutulan vəsaitdir. Bu isə ondan xəbər verir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpa və yenidənqurma prosesi 2024-cü ilin növbəti aylarında da intensiv şəkildə həyata keçiriləcək, sürətlənəcək. Bu da təbii ki, ilin sonuna qədər təxminən 25 min vətəndaşımızın Qarabağ və Şərqi Zəngəzura qayıtmasına imkan verəcək.

Deputat qeyd edib ki, müdafiə və milli təhlükəsizliyin gücləndirilməsi prioritet istiqamətdir və bu yönə ayrılan vəsaitin həcmində də artımlar var: "Belə ki, 6 milyard 421 milyon manat vəsaitin ayrılması nəzərdə tutulsa da, dürüstləşmədən sonra bu istiqamətə 7 milyard 126 milyon manat vəsait ayrılacaq. Yəni milli təhlükəsizliyimizin və müdafiə gücümüzün daha da artırılması üçün əlavə olaraq 705 milyon manat vəsaitin ayrılması planlaşdırılıb. Eyni zamanda digər vacib istiqamətlərdən biri kənd təsərrüfatına əlavə vəsaitin ayrılmasıdır. Hazırda kənd təsərrüfatı üzrə təsdiq olunmuş xərclər 1 milyard 102 milyon manatdır. Bu istiqamətə əlavə 100 milyon manat ayrılacaq. Bu da fermerlərin, kənd təsərrüfatında çalışanların daha yaxından dəstəklənməsinə, onların xərclərinin bir hissəsinin kompensasiya edilməsinə, sosial təminatlarının gücləndirilməsinə imkan yaradacaq".

V.Bayramov vurğulayıb ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən minimum əməkhaqqının artırılması ilə bağlı təkliflər noyabrın 1-nə qədər təqdim olunacaq. Artıq bununla bağlı müzakirələr aparılır. Eləcə də Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondunun büdcəsinə də dəyişikliklər edilib. DSMF-nin büdcəsinə edilən dəyişikliklərdən sonra bu istiqamətə əlavə olaraq 30 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bunun da 25 milyon manatı məhz pensiya təminatı üçündür. Bu istiqamətdə artımlar, eyni zamanda yeni sosial qərarlarla bağlı nazirlik tərəfindən təkliflərin hazırlanması və uyğun dövlət qurumlarına təqdim olunması gözlənilir. "Bütövlükdə dövlət büdcəsinə edilən dürüstləşmə əsas prioritet istiqamətlərə daha çox vəsaitin ayrılmasına imkan verəcək. Bu da fiskal gücümüzün daha da artmasına, iqtisadi sferada, o cümlədən digər istiqamətlərdə yeni layihələrin reallaşmasına şərait yaradacaq. Bu həm də onu göstərir ki, 2024-cü ildə dövlət büdcəsinə nəzərdə tutulandan daha çox vəsaitin cəlb edilməsi mümkün olub", - deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Prezidentinin Xocalıya səfəri Türkiyə mətbuatında geniş işıqlandırılıb

Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Arzu Əliyevanın Xocalıya səfəri Türkiyənin aparıcı media qurumları tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu agentliyi, "TRT" televiziyası, "Milliyet", "Sözcü", "Star", "Yeni Şafak" qəzetləri, "Haberler.com" və digər onlayn media qurumları dövlətimizin başçısının səfərinə diqqət ayırıblar.

"Əliyev Xocalıya səfər etdi!", "Azərbaycan bir daha belə acı yaşamayacaq", "Ermənilərin soyqırımı törətdiyi Xocalıya azərbaycanlı ailələrin köçürülməsinə başlanıldı", "Azərbaycan Prezidenti Xocalıda Ermənistana səsləndi", "Əliyev xəbərdarlıq etdi: Ərazi iddiaları ilə bağlı yeni cəhdləri izləyirik", "İşğaldan azad edilən Xocalıda yeni dövr: Azərbaycan ailələri qayıdırlar" və digər sərlövhələrlə yayımlanan xəbərlərdə Prezident İlham Əliyevin Müstəqillik Gününü işğaldan azad edilən ərazilərdə, bu bölgələrə qayıdan keçmiş məcburi köçkünlərlə birlikdə qeyd etdiyi vurğulanır.

Xəbərlərdə Azərbaycanın işğaldan azad edilən ərazilərin yenidən qurulması və məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtmaları üçün həyata keçirilən "Böyük qayıdış" proqramı haqqında məlumat verilib. Bildirilib ki, Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Arzu Əliyeva Xocalı şəhərində həyata keçirilən bərpa-yenidənqurma işləri, icra olunacaq yeni layihələr, o cümlədən əsaslı təmir edilən yaşayış kompleksi ilə tanış olublar. Dövlətimizin başçısı və birinci xanım Xocalıya ilk qayıdan 20 ailəyə mənzillərin açarlarını təqdim ediblər. Yazılarda dövlətimizin başçısının Xocalıda həyata keçirilən işlər, o cümlədən







yeni yaşayış binalarının inşası, fevralın 26-da Xocalıda xocalılılarla birlikdə təməli qoyulan Xocalı Memorial Kompleksinin yaradılması barədə fikirləri diqqətə çatdırılıb.

Məqalələrdə Prezident İlham Əliyevin Xocalıda səsləndirdiyi fikirlərə istinad edilərək hər şeyin öz vaxtının olduğu, bizim doğma torpaqlarımıza qayıtmağımız, həm Vətən müharibəsi, həm də antiterror əməliyyatının xalqımızın gücünü, iradəsini, əsgər və zabitlərimizin qəhrəmanlığını bütün dünyaya sübut etməsi barədə fikirlərinə xüsusi yer verilib. Bu baxımdan Prezident İlham Əliyevin aşağıdakı fikirləri xüsusi vurğulanıb: "Onların qəhrəmanlığı, fədakarlığı sayəsində biz bu gün buradayıq. Onlar sinələrini qabağa verərək düşmənə elə bir sarsıdıcı zərbə endirmişlər ki, əminəm, bundan sonra Ermənistan heç vaxt Azərbaycana qarşı hər hansı bir hərbi təxribat törətməyə cəhd etməyəcək. Halbuki Ermənistanda revanşistlər də kifayət qədər çoxdur. Biz son hadisələri də izləyirik, görürük ki, bizə qarşı yenidən ərazi iddiaları irəli sürmək cəhdləri var. Ona görə biz hər an hazır olmalıyıq. Əlbəttə ki, ilk növbədə, ordumuzu daha da gücləndirməliyik və bunu edirik".

Yazılarda 1992-ci il fevralın 25-dən 26-a keçən gecə ermənilər tərəfindən Xocalıda törədilən soyqırımı haqqında da məlumat verilib. Qeyd olunub ki, Azərbaycan Ordusunun keçirdiyi antiterror əməliyyatı nəticəsində bir çox ərazilər kimi, Xocalı da işğaldan azad edilərək əzəli sahiblərinə qaytarılıb.

# 4 kəndin azad olunması qələbələrimizin davamıdır

"Qazax rayonunun 4 kəndinin Azərbaycana geri qaytarılması Prezident, Ali Baş Komandan İlham Əliyevin növbəti zəfəri kimi dəyərləndirilməlidir. Bu qələbə nəticəsində Azərbaycanın Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin ərazisi artıq Dövlət Sərhəd Xidmətimizin nəzarətinə keçib. Bu, Azərbaycanın suverenliyinin təmin olunması istiqamətində atılmış növbəti addımdır".

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Ekspert qeyd edib ki, yaxın gələcəkdə işğaldan azad edilmiş bu ərazilərdə sərhəd infrastrukturunun yaradılması nəzərdə tutulub. Bunun üçün Azərbaycanın mövcud sərhəd xətləri yeni mövqelərə daşınacaq, həmin yerlərdə zəruri olan qüllələr, maneə xətləri və zastavalar yerləşdiriləcək. Həmin ərazilərdə mövcud olan hakim yüksəkliklər tamamilə Dövlət Sərhəd Xidmətinin nəzarətində olacaq. Bu, gələcəkdə Ermənistan sərhədçilərinin ərazidə həyata keçirdikləri fəaliyyətləri müşahidə etməyə və onlara qarşı adekvat tədbirlər görməyə imkan verəcək".

Ekspertin sözlərinə görə, bir güllə belə atılmadan Azərbaycan kəndlərinin sahiblərinə geri qaytarılması ondan xəbər verir ki, Ermənistan Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi "o kəndlər ki, anklav deyil - 4 kənd - onlar Azərbaycana qeyd-şərtsiz qaytarılmalıdır" bəyanatını kifayət qədər ciddi qəbul edib: "Paşinyan hökuməti yaxşı başa düşürdü ki, Qazaxın 4 kəndini qaytarmazsa, Azərbaycan hansısa yolla öz torpaqlarını azad edəcək. Ona görə də dövlətimizin başçısının bəyanatını eşidən kimi, Paşinyan bu istiqamətdə fəaliyyətə keçdi. Ermənistandan savayı, dünyanın heç bir yerində dövlətə rəhbərlik edənlər öz xalqlarını digər ölkənin müharibə edə biləcəyi ilə hədələmirlər. Deməli, bu ölkədə qorxu hissi maksimum səviyyəyə çatıb".



Ədalət Verdiyev söyləyib ki, Ermənistan sülh prosesini uzatmağa çalışmamalı, bunun faydasız olduğunu anlamalıdır: "Əks halda, İrəvan yenə daha əvvəl aldığı zərbələrdən birini üzərində hiss edə bilər. Azərbaycan bütün dövlətlərlə, eləcə də qonşuları ilə mehriban dostluq şəraitində yaşamaq istəyir. Bu baxımdan Qazaxın 4 kəndinin qeyd-şərtsiz qaytarılması Azərbaycanla Ermənistan arasında etimad mühitinin möhkəmlənməsini və sülh sazişinin imzalanmasını yaxınlaşdırır".

Ekspert vurğulayıb ki, bu növbəti uğurumuz 44 günlük Vətən müharibəsində və ötən il sentyabrın 19-20-də keçirilən antiterror tədbirlərində əldə etdiyimiz qələbələrin davamıdır: "Bu kəndlərin Prezidentimizin bir sözü ilə qaytarılması xüsusi qeyd olunmalıdır. Həmçinin nəzərə almaq lazımdır ki, sülhə doğru atılmış bu addımın Azərbaycanla Ermənistan arasında heç bir vasitəçi olmadan baş tutması xüsusi əhəmiyyət kəsb edir. Ümid edirik ki, iki ölkə arasında delimitasiya və demarkasiya prosesi bundan sonra da uğurla davam edəcək".

***N.QAFARZADƏ,***
***"Azərbaycan"***




# Növbəti ünvan Xocalıdır

Xocalı düşmənin xalqımıza vurduğu elə yaralardandır ki, qaysaq bağlasa da, sağalmır, illər keçsə də, unudulmur. Lakin Xocalının işğaldan azad olunması ilə xalqımız az da olsa toxtaqlıq tapdı.














Tarixi qələbəmizdən, haqq-ədalətin bərpasından sonra Qarabağ və Şərqi Zəngəzurda, habelə Xocalıda yenidənqurma və bərpa işlərinə başlanıldı. Qüdrətli dövlətimiz xocalılıların da yurd həsrətinə son vermək üçün gücünü səfərbər etdi. Və o gün gəldi: ötən 32 ildə çadır şəhərcikləri və yataqxanalarda, qaçqınlar üçün salınmış şəhərciklərdə yaşamış xocalılılar mayın 28-dən doğma ocaqlarına geri qayıtdılar. İllər əvvəl isti evlərindən, göz açdıqları doğma torpaqlardan qarlı qış günündə faciəli şəkildə qovulan soydaşlarımız bu il Müstəqillik Gününü qalib xalqın nümayəndələri kimi Xocalıdakı evlərində qeyd etdilər. Öz doğma sakinlərinə qucaq açan Xocalının küçələrinə, evlərinə isti nəfəs, doğma səslər yayıldı.

Sakinlərə cəmi 8 ay ərzində yenidən qurularaq bərpa edilən Xocalıya qayıtmaq sevincini bəxş edən Prezident İlham Əliyev Xocalıya qayıdışın Müstəqillik Günündə baş tutmasının təsadüfi olmadığını bildirdi. Dövlət başçısı dedi: "Bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir".

Mayın 29-da isə Xocalı daha bir qayıdış karvanını qarşıladı. Bu mərhələdə daha 24 ailə - 88 nəfər dədə-baba ocağına qovuşdu. Doğma yurda qayıdan Xocalı sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkür edib, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbr diləyiblər.

Beləliklə, Xocalının artıq 169 nəfər sakini var.



### Xocalıda yeni həyat qurulur

Xocalıda sakinlərin rahat və təhlükəsiz həyat sürmələri üçün hər şey nəzərə alınıb. Burada bütün zəruri sosial, inzibati xidmətlər, mədəni mühit yaradılacaq, ticarət, ictimai iaşə fəaliyyətləri üçün geniş imkanlar təqdim ediləcək.

Şəhərin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Təqdim edilən şəhər planına əsasən, 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir.

Xocalıda orta təhsil müəssisəsi və uşaq bağçası inşa olunub. Məktəbin qarşısında park, onun yanında isə sənətkarlar məhəlləsi salınıb. İdman kompleksində isə tamamlanma işləri görülür. Kompleksdə şahmat, cüdo, güləş, gimnastika, stolüstü tennis, basketbol, minifutbol, badminton ilə məşğul olmaq üçün lazımi şərait yaradılacaq. Bütün bu infrastruktur işlərinin yaxın müddətdə tamamlanması nəzərdə tutulub.

Şəhər mühitini canlandıran yeni nəqliyyat qovşağı vacib rol oynayacaq. Olduqca strateji mövqedə yerləşən Xocalı Əsgəranla 5 kilometr, Ağdam şəhəri ilə 10 kilometr, Xankəndi ilə 11 kilometr, Şuşa ilə isə 7 kilometr məsafədədir. Bu, həmçinin Xocalıda iqtisadiyyatın, sahibkarlığın inkişafına da təkan verəcək. Şəhərin girişində - çay kənarında sakinlərin istirahəti üçün bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz çarşı-bazar qurulur, iaşə obyektləri tikilir.

Fevralın 26-da təməli qoyulan Soyqırımı Memorial Kompleksi Heydər Əliyev Fondu tərəfindən inşa edilir.

### Artıq 7487 sakin əzəli məskəninə qayıdıb

Böyük Zəfərdən qısa müddət keçməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərimizdə həyat canlanır, bərpa-quruculuq işləri davam etdirilir, keçmiş məcburi köçkünlər yurdlarına qovuşurlar. Artıq 1920 ailə - 7487 nəfər əzəli məskənlərinə qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 493 ailə (1838 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 90 ailə (349 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

Bu statistika hər ay, hər həftə yenilənir. Qayıdış karvanlarının ünvanları da dəyişir. Prezident İlham Əliyev mayın 28-də Xocalı şəhərinə köçən sakinlərlə görüşü zamanı yeni müjdələr verib, sentyabr ayından artıq Xankəndiyə də köçün başlayacağını söyləyib. Qarabağ Universiteti fəaliyyətə başlayacağı üçün elə ilk sakinlər də məhz tələbələr və onların müəllimləri olacaqlar.

Bu ilin sonuna qədər Cəbrayıl və Kəlbəcərə, 2025-ci ildə isə Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə də keçmiş məcburi köçkünlərin qayıtması nəzərdə tutulur. 2026-cı il, Böyük qayıdışın birinci mərhələsi bitənə qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin - 34 min 500 ailənin dədə-baba torpaqlarında daimi məskunlaşması təmin ediləcək.

Uzun illər düşmən əsarətində qalan, viran qoyulan torpaqlarımız yenidən qurulduqca yurd həsrəti çəkən yüz minlərlə vətəndaşımız öz evlərinə qayıdacaqlar.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Xocalıya qalib kimi qayıdırıq

"44 günlük Vətən müharibəsini qalibiyyətlə başa vurduqdan sonra işğaldan azad olunmuş ərazilərimizə Böyük qayıdış prosesinə başlanılıb. Artıq Laçın, Füzuli, Zəngilan rayonlarında, Şuşa şəhəri və Talış kəndində keçmiş məcburi köçkünlərin məskunlaşması təmin olunub".



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Deputat bildirib ki, sentyabrın 19-20-də keçirilmiş antiterror tədbirlərindən sonra ərazilərimiz işğalçılardan, separatçılardan tamamilə təmizləndi. Həmin ərazilərimizdə elə həmin vaxtdan Prezident İlham Əliyevin rəhbərliyi altında bərpa-quruculuq işlərinə başlanıldı. Artıq yaşayış üçün hazır olan ərazilərimizə tədricən köç edilir. "Müstəqillik Günümüzdə Xocalıya da ilk 20 ailənin qayıdışı baş tutdu. Artıq xocalılılar doğma yurda qayıtdılar və bu, davamlı olacaq. Prezident İlham Əliyevin də iştirak etdiyi tədbirdə məlum oldu ki, Xocalıda hazırda yaşayış üçün 15 çoxmənzilli bina var. Digərləri də hazırlanır. Ötən gün də Xocalıya növbəti köç karvanı yola düşdü, ümumilikdə 44 ailə burada məskunlaşıb", - deyə deputat əlavə edib.

Xocalıdan öncə Şuşaya köçün baş tutduğunu xatırladan E.Məmmədov bildirib ki, sentyabrda isə Xankəndiyə qayıdış başlayacaq. Yəni işğaldan azad olunmuş bütün ərazilərimizə Böyük qayıdış mərhələli şəkildə davam edir. Prezidentin rəhbərliyi altında 2026-cı ilə qədər 140 min nəfərdən çox keçmiş məcburi köçkün doğma yurd-yuvalarına qayıdacaq. Bu proses sürətlə davam edəcək.

Deputat vurğulayıb ki, sevincli, qürurverici, fəxr ediləsi günlər yaşayırıq: "Biz xocalılılar, şuşalılar, ağdərəlilər, xankəndililər bu ərazilərdən məğlub olaraq çıxmışdıq. Ancaq indi o ərazilərə qalib kimi qayıdırıq. Düşmən, işğalçılar üzərində qəti qələbə çalmışıq, ərazilərimizi terrorçulardan tam təmizləmişik. Böyük ruh yüksəkliyi ilə doğma yurd-yuvamıza qayıdırıq. Bunun üçün təbii ki, şəhidlərimizə, hərbçilərimizə, xalqımıza, dövlətimizə, ordumuza rəhbərlik edən cənab Prezidentimizə, Müzəffər Ali Baş Komandanımıza minnətdarıq".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# *Xocalı sakini:* "Bu qədər işlər görmək yalnız Prezident İlham Əliyevin qüdrəti idi"



"Çox müsibətlər görmüşük. Mən özüm Qarabağ əliliyəm, yaralanmışam. Allah bir də o günləri xalqımıza yaşatmasın". AZƏRTAC xəbər verir ki, bu sözləri Xocalı şəhərinə qayıdan keçmiş məcburi köçkün Gülarə Məmmədova söyləyib. O bildirib ki, görülən işlər çox böyükdür:

"Təsəvvürü belə çətindir. 4 ilə bu qədər böyük işlər görmək yalnız bizim Prezidentimiz İlham Əliyevin qüdrəti idi. Allah onu qorusun! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı arzulayıram".

# Böyük qayıdışın Xocalı səhifəsi

Vətən müharibəsində Azərbaycanın qazandığı böyük zəfərdən dərhal sonra Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə başlandı. İşğaldan azad olunmuş rayonların yaşayış məntəqələrinin bərpası və yenidən qurulması dövlətin əsas vəzifəsinə çevrildi. Şəhər və kəndlərdə elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət və digər zəruri infrastrukturların qurulması üçün görülən işlərin miqyası aybaay, ilbəil genişlənməyə başladı. Və qısa müddətdən sonra köç karvanları Qarabağa yol aldı...

Doğma yuvalarına dönən keçmiş köçkünlər getdikləri yerdə çox gözəl mənzərə ilə qarşılaşdılar. Uçub-dağılmış, viranə qalmış evlərin yerində gözəl, yaraşıqlı, müasir üslübda tikilmiş mənzillərin qapısı öz sahiblərinin üzünə açıldı, illərin həsrətinə son qoyuldu. Bundan sonra onlar cənnətə dönmüş yurdlarında həyat sürəcək, yaşayıb-yaradacaqlar. Hələ müharibə gedən günlərdə azad olunmuş torpaqların xoş müjdəçisinə çevrilmiş Prezident İlham Əliyev bərpa-quruculuq işləri ilə bağlı xəbəri də özü vermişdi: "Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə də 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır". Dövlət başçısı hər köçün sevincini yurduna dönən, evinə qayıdan insanlarla bərabər yaşayıb.

Sanki bu xalqın alnına taledən bir köç yazılıb. Qərbi Azərbaycanda yaşayan soydaşlarımız ötən yüzillikdə zaman-zaman taleyin acı sınağına çəkildilər. Ermənilər fürsət düşdükcə, daha doğrusu, havadarlarının köməyi ilə soydaşlarımızı əzəli torpaqlarından didərgin saldılar. Yurdundan qovulanlar Azərbaycana sığındılar, müxtəlif bölgələrdə müvəqqəti məskunlaşdılar. Pənah gətirdikləri yerdə əbədi qalanlar da oldu, doğma torpağına dönənlər də. Türkiyəyə, İrana keçənlər də imkan olanda evlərinə qayıtdılar. Amma 1988-ci ildə qovulanlar hələ də dönə bilməyiblər... Ardınca Qarabağ faciəsi, insanların evlərini tərk etməsi, dəmir vaqonlarda, yataqxanalarda, yarımçıq tikililərdə məskunlaşması Azərbaycan xalqının XX əsrdə taleyinə yazılan çox ağır kədər, ürəklərə dağ basan qəm oldu. Miqyasına görə analoqu olmayan Xocalı soyqırımı isə erməni faşistlərinin qəddarlığının göstəricisi kimi dünyaya yayıldı.

Gün gəldi, bütün acılara son qoyuldu. Qızmar yayda yağan güclü yağışdan sonra çıxan günəşin buludu qovduğu kimi, köçkünün qəmini, kədərini də böyük Zəfərin sevinc göz yaşları əvəz etdi. Qarabağ tamamilə azad oldu. Prezident İlham Əliyev "Qarabağ Azərbaycandır!" formulunu dünyaya qəbul etdirdi. Azərbaycan tarixinin ən parlaq qələbəsinə imzanı Ali Baş Komandan İlham Əliyev qoydu. Azərbaycan xalqı öz rəhbərini siyasətlə məşğul olan, dövləti idarə edən, ölkənin problemlərini çözməyə çalışan insan kimi tanıyırdı. Amma müharibə Ali Baş Komandanın xeyli məziyyətini ortaya çıxardı. Prezidentin Azərbaycana qazandırdığı Zəfər vətən, yurd, xalq sevgisindən qaynaqlanan bir triumf idi. 44 günlük Vətən müharibəsi dövründə dünyaya təkcə qalib sərkərdə, Müzəffər Ali Baş Komandan, qətiyyətli siyasətçi, adil dövlət başçısı, mahir diplomat kimi görünmədi. Dünya xalqları İlham Əliyevi həm də millətini düşünən, onun qayğıları ilə yaşayan nümunəvi lider kimi tanıdı. Prezident ən həssas dönəmdə xalqının qarşısına çıxdı, ən xoş xəbəri insanlara özü çatdırdı. Bu, indiyə qədər heç bir dövlət başçısının atmadığı addım idi. Bu addımın ən böyüyü torpaq həsrəti ilə yaşayan insanları doğma yurda göndərməsi oldu. O, 30 ildə bir an da olsun ümidi sönməyən, inamı tükənməyən, məcburən tərk edilmiş torpağa qayıtmaq istəyi ölməyən insanları yurdları ilə görüşə apardı.

Qarabağa köç davam edir. Bu köç o köçdən deyil. Bu köç Azərbaycan dövlətinin gücünün, şəxsən Prezident İlham Əliyevin Vətən müharibəsində işğaldan azad olunan ərazilərin bərpasına göstərdiyi qətiyyətinin, siyasi iradəsinin nümayişidir. Həmin iradənin hələlik sonuncusu olan növbəti köç karvanı mayın 28-də Xocalıda dayandı. 44 ailənin Xocalıda daimi məskunlaşması təmin edildi. Nə xoş ki, Xocalı sakinlərinin yurda dönüşü Müstəqillik Günündə baş tutdu. 28 May Azərbaycan tarixinin müqəddəs günlərindəndir. Həmin gün Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və qızları Arzu Əliyeva Xocalı sakinləri ilə görüşdülər. Xocalı sakinləri o gün üçqat sevinc yaşadılar: yurda qayıdış, 28 May bayramı və dövlət başçısının onlarla görüşüb söhbət etməsi.

Prezident hər zaman olduğu kimi yenə də bayram günündə sadə insanların yanında idi. 28 May gününü iki il əvvəl Ağalıda, keçən il Laçında, indi də Xocalıda qeyd etməsi Prezidentin xalqa arxalanmasının və xalqın ona güvənməsinin göstəricisidir. Yurda qayıdışın sevincini sadə isanlarla birgə yaşayan dövlət başçısı deyir: "Əlbəttə ki, bu qayıdışın Müstəqillik Gününə təsadüf etməsi təsadüfi deyil. Çünki bildiyiniz kimi, keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur. Bu gün, əslində, "Böyük qayıdış" proqramının Xocalı səhifəsi yazılır".

Xocalı bu gün ən gözəl günlərini yaşayır. Bundan sonra şəhərin torpağının üstündə Xocalının doğma sakinləri addımlayacaqlar. Havasını da onlar udacaq, suyunu da köçkünlüyə son qoymuş insanlar içəcəklər. Burada üçrəngli Azərbaycan bayrğı əbədi dalğalanacaq. Xocalının gözəlliyinin üstünə gözəllik gələcək. Xocalı sakinləri ilə səmimi görüşən, içdən söhbət edən Prezident onların sevincinə daha bir sevinc qataraq dedi: "O qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək. Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm. Bakıda və digər yerlərdə qəsəbə salınmışdır. Deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi. Sizi təbrik edirəm".

Qeyd edək ki, Xocalı şəhərinin yenidən qurulması üzrə birinci mərhələ 167 hektar və 18 hektar olmaqla iki hissədən ibarətdir. Birinci mərhələdə 167 hektar ərazidə 140 fərdi ev, 48 kottec tipli ev və 9 binadan ibarət 110 evdə tikinti, təmir-bərpa və abadlıq işləri görülür. Bütün kommunikasiya xətləri yerin altına salınıb, ilk 50 evə birləşmələr verilib. Şəhər üzrə kommunikasiya işlərinin 90 faizi icra edilib. Həmçinin 18 hektar ərazidə yerləşən fin tipli 92 evdə isə tikinti, təmir-bərpa və abadlıq işləri həyata keçirilir. Bunlardan əlavə, Xocalı şəhərinin girişində - çay kənarında bulvarın salınması işləri davam edir. Bulvar ilə üzbəüz isə çarşı-bazar qurulur, iaşə obyektləri tikilir.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# "Azərişıq" ASC cənub rayonlarında yenidənqurma işlərini davam etdirir

Azərbaycan Prezidenti İlham Əliyevin təsdiqlədiyi regionlarda əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına dair Tədbirlər Planına əsasən, "Azərişıq" ASC bütün rayon və kəndlərdə elektrik təsərrüfatını yeniləyir. Əsaslı təmir və yenidənqurma işləri çərçivəsində Cənub Regional Enerji Təchizatı və Satışı İdarəsinə daxil olan rayonlarda da elektrik şəbəkəsi yenidən qurulur.

Qurumun Mətbuat xidmətinin məlumatına görə, hazırda yenidənqurma işləri Cəlilabadda Günəşli və Axtaxana kəndlərində davam etdirilir. Zərbiəli kəndində isə işlər tamamlanmaq üzrədir. Həmin kəndlərdə 0.4 və 10 kV-luq yeni dayaqlar basdırılır, özünüdaşıyan izolyasiyalı naqillər (ÖİN) çəkilir, köhnə güc mərkəzləri yeni KTM-lərlə əvəz edilir. Həmçinin Biləsuvar rayonunun şəhər mərkəzi, Əsgərabad və Aşağı Cürəli kəndlərində, Masallı rayonunun 4 kəndində - Şərəfə, Ağakişibəyli, Babaser, Köhnə Alvadı kəndlərində elektrik şəbəkəsi yenidən qurulur. Rayonun ən böyük kəndlərindən biri olan Ərkivan kəndində də yenidənqurma işlərinə start verilib.

1200 abonentin yaşadığı Astaranın Şiyəkəran kəndində 0.4 və 10 kV-luq elektrik xətləri və dayaqlar tamamilə yenilənir. Həmçinin Astaranın Çayoba, Lerikin Zövnə və Züvüc kəndlərinin elektrik təsərrüfatları yenidən qurulur. Yardımlının Perimbel kəndinin elektrik şəbəkəsi artıq tam yenidən qurularaq sakinlər dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunublar.

"Azərişıq" ASC ölkənin bütün regionlarında, bir sıra kənd və qəsəbələrin elektrik şəbəkəsini yeniləyir. Yenidənqurma işləri abonentlərin dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi ilə yanaşı, həm də elektrik enerjisi itkilərinin minimuma endirilməsinə hədəflənib.

# Kanaklar Makronun vədlərinə inanmırlar

## Yeni Kaledoniyada etirazlar davam edir





Yeni Kaledoniyanın Fransadan ayrılması tərəfdarlarının etirazları davam edir. Beşinci respublikanın "xüsusi inzibati-ərazi qurumu" adlandırılan, əslində isə müstəmləkəsi olan bu adalar qrupu Avstraliyanın şərqində, Sakit okeanın cənubunda yerləşir. Əhalisi 270 min nəfərdir ki, onlardan da 40 faizi yerli kanak xalqıdır.

Arxipelaq 1774-cü ildə məşhur ingilis dənz səyyahı Ceyms Kuk tərəfindən kəşf edilib. Bundan sonra orada avropalı müstəmləkəçilər peyda olmağa başlayıb. Fransa 1853-cü ildə bu əraziləri öz mülkü elan edib. 1998-ci ildə Paris və Numea Yeni Kaledoniyada 20 ildən sonra adaların gələcəyi ilə bağlı üç referendumun keçiriləcəyi ilə bağlı saziş imzalayıblar. İlk iki plebissitdə müstəqillik tərəfdarları cüzi fərqlə məğlub olmuş, koronavirus epidemiyası dövründə keçirilən üçüncü referendum isə kanaklar tərəfindən boykot edilmişdi. Yeni Kaledoniya müəyyən muxtariyyətə malikdir, lakin eyni zamanda təhsil, müdafiə məsələlərində Parisdən asılıdır. Fransanı burada beşinci respublikanın prezidenti tərəfindən təyin olunan ali komissar təmsil edir. İcra hakimiyyəti yerli hökumətin əlindədir.

Bütün hay-küy arxipelaqda Numeadakı dinc müstəqillik tərəfdarları nümayişinin talanlara çevrilməsi ilə başlayıb. Onlarla mağaza, aptek və yanacaqdoldurma məntəqəsi yandırılıb və qarət edilib. Toqquşmalarda 7 nəfər həlak olub, yüzlərlə insan yaralanıb, 240 nəfər saxlanılıb.

O vaxtdan bəri adalarda həm dinc etirazlar, həm də polislə toqquşmalar, qırğınlar və yanğınlar davam edir. Mayın 15-də elan edilən fövqəladə vəziyyət rejimi ayın 27-də ləğv olunsa da, Numeada və digər ərazilərdə müstəqillik tərəfdarlarının aksiyaları səngimir. İğtişaşlara səbəb Yeni Kaledoniyada on ildən artıq yaşayanların yerli seçkilərdə səs verə biləcəyi Fransa konstitusiya qanunu layihəsi olub. Ancaq indi yalnız 1998-ci ildə Fransadan ərazilərə əhəmiyyətli muxtariyyət verən Numea Sazişinin imzalanması zamanı seçici siyahılarına daxil edilmiş şəxslər və onların uşaqları arxipelaqda səs vermək hüququna malikdir. Bu qanun Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarını qəzəbləndirib. Kanaklar, seçicilərin son 10 ildə arxipelaqa köçmüş avropalıları - kaldoşları da əhatə edəcək şəkildə genişləndiriləcəyi təqdirdə, azlıqda qalacaqlarından ehtiyat edirlər. Mayın 14-də qanun layihəsi Fransa Milli Assambleyası (aşağı palata) tərəfindən təsdiqlənib. Sənəd hər iki palatanın bu il iyulda Versalda keçiriləcək birgə iclasında təsdiqlənməlidir. Beləliklə, beşinci respublika parlamentinin aşağı palatasında səsvermə ərəfəsində adalarda etirazlar başlayıb.

Ekspertlərin fikrincə, Parisin Yeni Kaledoniyada baş verənlərə reaksiyası bu ərazinin Fransa üçün əhəmiyyətini göstərir. Birincisi, arxipelaqda dünyanın ən böyük nikel yataqlarından biri yerləşir. İkincisi, xarici ərazilər beşinci respublikaya müstəsna iqtisadi zonaya sahib olmağa imkan verir. Üçüncüsü, onların sayəsində Fransa Asiya-Sakit okean regionunun daxili proseslərində iştirak edərək, geosiyasi təsirini genişləndirə bilər. Bu ərazi həm də Paris üçün Asiya-Sakit okean regionunda Çin və ABŞ arasında artan qarşıdurma fonunda strateji əhəmiyyət kəsb edir. Fransa Vaşinqtondan Avropanın strateji muxtariyyətini müdafiə edərək özünü dünya səhnəsində müstəqil oyunçu kimi göstərməyə çalışır.

Rusiya Elmlər Akademiyasının Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər üzrə Milli Tədqiqat İnstitutunun analitiki Pavel Timofeyev qeyd edir ki, Fransanın xarici ərazilərində yerli əhali ilə gəlmələr arasında fərqlər də daxil olmaqla, böyük daxili problemlər var: "Yeni Kaledoniyada həyat standartları baxımından cəmiyyətin ciddi təbəqələşməsi müşahidə olunur - buraya gələn ağdərili fransızlar daha yaxşı vəziyyətdədir, yerli əhali isə daha pisdir. Kanaklar qorxurlar ki, arxipelaqa ağ təbəqənin əlavə olunması yerli əhaliyə qarşı ayrı-seçkiliyi artıracaq və zaman keçdikcə onların öz vətənlərində azlığa çevrilməsinə gətirib çıxaracaq". Ekspert qeyd edir ki, bu vəziyyətdən çıxış yolunu təsəvvür etmək çətindir: "Makron etiraz liderləri ilə danışmağa çalışdı, lakin buna məhəl qoyulmadı. İndi Fransa təhlükəsizlik qüvvələrini ora köçürür və hadisələrin sonrakı inkişafı aydın deyil. Ya ordu dəmir nizam quracaq, hətta qan da töküləcək, ya da dialoq yolu zəfər çalacaq. Burada vacib məqam ondan ibarətdir ki, Fransa parlamentinin islahatı hələ qüvvəyə minməyib, qanunverici orqanın hər iki palatası səviyyəsində təsdiqlənməlidir, bundan sonra o, konstitusiya xarakteri alacaq. Bu ana qədər kompromis tapmaq üçün vaxt var".

Rusiya Elmlər Akademiyasının Avropa İnstitutunun aparıcı elmi işçisi Sergey Fyodorov isə hesab edir ki, Emmanuel Makron üçün həll yolu tapmaq çətin olacaq, çünki o, bir tərəfdən konstitusiya islahatları vəd edib, digər tərəfdən isə kanaklarla ortaq dil tapmağın lazım olduğunu söyləyb. Üstəlik, bu, əlbəttə ki, Makronun imicinə zərbədir. Onsuz da ölkə daxilində vəziyyət hazırda yaxşı deyil. Bundan əlavə, ekspert Avropa seçkiləri ərəfəsində, sorğulara əsasən, Makronun əsas rəqibi Marin Le Pendən geri qalmasına diqqət çəkib: "Avropanın siyasi suverenliyi, strateji muxtariyyəti ideyası üzərində bu qədər mübarizə aparan Makron üçün bu, sadəcə, siyasi şillə olacaq... Bütün bunlara baxmayaraq, o, bu seçkini acınacaqlı şəkildə Marin Le Penə uduzacaq. Hələlik hər şey buna doğru gedir".

Eyni zamanda bütün ekspertlər razılaşırlar ki, Azərbaycan hekayəsi daha çox diqqəti Bakıya və onun vəziyyətə təsirinə yönəltmək üçün bir addımdır. Sadəcə olaraq, Fransa hakimiyyəti dünya ictimaiyyətinin diqqətini situasiyaya müdaxilə edən şərti xarici qüvvəyə yönəltmək üçün məlum texnikadan istifadə edir və informasiya hücumu həyata keçirir.

Keçən həftə arxipelaqı ziyarət edən prezident Makron adadakı siyasi partiyalara yerli seçkilər üçün islahatla bağlı razılığa gəlmək üçün bir neçə həftə vaxt verib. Bununla belə, adada iğtişaşlar dayanmayıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 31.05.24-cü il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
**struktur idarələrə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə**
***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 7 iyun 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


# Keçmiş hərbi xuntaya növbəti zərbə

## Revanşistlərin etirazları nəticəsiz qalır

Keçmiş hərbi xunta sülh müqaviləsinin imzalanması prosesinin qarşısını almaq üçün məkrli niyyətlərini aşkarda nümayiş etdirir. Belə ki, xaricdəki siyasi dairələrin ssenarisi əsasında Kanada vətəndaşı olan, Erməni Apostol Kilsəsinin Tavuş Yeparxiyasının primatı, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərliyi altında revanşist qüvvələrin Hayastanda keçirdikləri etiraz aksiyaları dünən də davam edib.





Şüarlar səsləndirməklə kifayətlənməyən radikallar bütün ölkədə küçələri və magistral yolları bağlamağa cəhdlər göstəriblər. Bu təxribatçı hərəkətlərin qarşısını alan ölkə polisi 300-ə yaxın etirazçını saxlayıb. Ermənistanın Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəsmi məlumatına görə, həmin şəxslər polis əməkdaşlarının qanuni tələblərini yerinə yetirməkdən boyun qaçırıblar.

Saxlanılanlar arasında parlamentdəki "Ermənistan" fraksiyasının deputatı Artur Sarksiyan və KTMT-nin keçmiş baş katibi general-polkovnik Yuri Xaçaturovun oğlu İqor Xaçaturov da var.

Qalstanyanı daha da hiddətləndirən hadisə ondan bir gün öncə Nikol Paşinyanın "Sardarabat" abidəsini ziyarət etməyi təxirə salmaqla əleyhdarlarının planını pozmasıdır. Çünki səhər saatlarında "Sardarabat" abidəsinə yürüş edən keşiş Baqrat öz tərəfdarları ilə Paşinyanın memorial kompleksə gəlişini gözləyirdi. Lakin baş nazir həmin tədbirə getməyi təxirə salmaqla orada baş verə biləcək qarşıdurmanı zərərsizləşdirmiş oldu. Bununla da o, taktiki və strateji baxımdan vacib addım atdı. Halbuki, Baqrat və tərəfdarları "Sardarabat" kompleksində təxribat baş verməsinin və toqquşmanın marağında idilər.

Keşiş və tərəfdarları memorial komlkeksi tərk edəndən sonra baş nazir Nikol Paşinyan "Sardarabat" abidəsini ziyarət edib. Baş nazir Ermənistan prezidenti və parlamentin sədri ilə birlikdə "Sardarabat" abidəsinin önünə gül dəstələri qoyub. Nikol Paşinyan burada çıxış da edib.

Bəzi erməni mənbələrində və sosial şəbəkələrdə yayılan məlumatlara görə, ikili vətəndaşlığı olan Baqrat Qalstanyan hazırda Bakıda həbsdə saxlanılan milyarder Ruben Vardanyana yaxın adam hesab olunur. "4rd.am" nəşri yazıb ki, hətta etirazçı keşişi oliqarx Ruben Vardanyanın "səlahiyyətli nümayəndəsi" adlandıranlar da var. Qeyd edilir ki, vaxtilə Rusiyada təlimatlandırılaraq Qarabağa göndərilən, Xankəndidə separatçılara "dövlət naziri" təyin olunan Ruben Vardanyan daha sonra İrəvana yüksək posta transfer olunacağı anı gözləyirdi. Lakin Vardanyanın planlarını pozan Nikol Paşinyan buna imkan vermədi. İndi Baqrat Hayastanda hakimiyyət dəyişikliyinə nail olmaq istəyir. Bu məsələdə erməni diasporunun və bir sıra erməni iş adamlarının keşiş Qalstanyana dəstək verdiyi bildirilir.

Bu arada revanşist politoloq Stepan Danielyan deyib ki, beynəlxalq nizama görə, legitim hökumət təhdid olunarsa, başqa ölkənin silahlı qüvvələrini daxili düşmənlərdən müdafiəyə çağıra bilər. Qeyd edilib ki, indiki baş nazir istefa verməməklə Hayastanı işğal təhlükəsi altına qoyur: "Bu açıqlama həm də hazırkı rejimin əsl sponsorlarının kim olduğunu göstərir. Biz hüquqi sahəyə girməliyik və indiki baş nazir artıq məqbul olmadığını, vaxtının bitdiyini başa düşərək qanuni şəkildə istefa verməlidir".

Beləliklə, proseslərin gedişi qarşıdakı dövr ərzində davam edəcək etirazlar fonunda Hayastanda vəziyyətin daha da qarışacağını deməyə əsas verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

**ALLAH RƏHMƏT ELƏSİN!**

Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları iş yoldaşları Mübariz Əsgərova əzizi

**ƏFSANƏ SİRACZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və aparat işçiləri AHİK-in katibi - Maliyyə şöbəsinin müdiri Qalib Qəribova əzizi

**AZƏR QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4410
Sifariş 1176

Qiyməti 60 qəpik